SEYİDƏLİ SƏDA



# QARABAĞ TƏBİƏTİN İNCİSİDİR

SEYİDƏLİ SƏDA

# Qarabağ təbiətin incisidir

ab 2024.

ab

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 125376

"Elm və təhsil"
Bakı–2022

84(5Aze)
S 41

**Bu kitab Qarabağ uğrunda gedən döyüşlərdə həlak olmuş Şəhidlərin müqəddəs ruhuna həsr olunur.**

**Korrektor: Əyyar Tahirov**

**Seyidəli (Səda) Məhəmməd oğlu Məhərrəmli.**
**Qarabağ təbiətin incisidir.**
**Bakı, "Elm və təhsil", 2022, 200 səh.**

"Qarabağ Təbiətin incisidir"

Şair Seyidəli Sədanın oxucularla növbəti görüşüdür.Kitabda şairin son dövrdə qələmə aldığı şer və poemaları mühüm yer tutur.

Vətən məhəbbəti, torpaq sevgisi, el-obaya bağlılıq,Qarabağ ağrıları və 44 günlük Vətən müharibəsində zəfərə aid şer və poemaları kitaba daxil olunmuşdur.

4702000000 qrifli nəşr
N-98-2022

© S. Səda, 2022

## Ön söz

*Seyidəli Səda yaradıcılığı haqqında düşüncələrim.*

Mən Seyidəli Sədanın poyeziyası ilə xeyli müddətdir ki, tanış olmuşam. Belə ki, onun əvvəlki iki müxtəlif janrlı şeir kitabları haqqında öz ürək sözlərimi sərgiləmişəm. Yəqin ki, hörmətli oxucuların bundan xəbərləri olmamış deyil. Üçüncü kitab haqqında fikir söyləmək öz düşüncələrimi paylaşmaq, şairin müxtəlif janrlı şeir və poemalarına öz münasibətimi bildirmək şərəfinə yenidən nail oldum.

Bu işıqlı, yaradıcılığı günəş kimi daim parıldayan söz adamı haqqında nəsə qənaətbəxş bir söz demək mənim üçün elə də asan deyildir. Seyidəli Sədanın imzası şeir sevənlərə çoxdan tanışdır. Seyidəli Səda ədəbiyyatımızda öz dəst-xətti, öz yolu olan dəyərli şairimizdir. Onun yaradıcılığında janrdan danışarkən deməliyəm ki, yaradıcılığında bu məsələ çox saylı və rəngarəngdir. Müxtəlif janrlarda Seyidəli Səda bir-birindən gözəl nümunələr yaratmışdır. Şeirlərin məna çalarlığına gəldikdə isə görürük ki, bütün hər yerə cəmiyyətin və təbiətin ayrı-ayrı sahələrinə, vətən nisgilinə, torpaq həsrətinə, müxtəlif peşə sahibi olan insanların tərənnümünə, erməni işğalına və digər neqativ hallara həsr edilmiş əsərlərlə rastlaşa bilərik.

Vətən sevgisi ona bağlılıq öz qəlbi ilə yurd yerlərinə sayğı şairin yaradıcılığında aparıcı xətlərdən birini təşkil edir. Onun "Vətən sevgisi" adlı şeirindən bir bəndə diqqət yetirək:

Mənim varım hər vaxt vətənə sevgi,
Vətən oğul deyir yurdu sevənə.
Vətən ana yurdum, vətən müqəddəs,
Vətənin varlığı dünyadır mənə.

Və ya "Yurdda axtarın" əsərindən bir parça:

Küsmüşəm nə vaxtdı qələmdən daha,
Siz məni oylaqda, yurdda axtarın.
Bu könlüm yol gedir yurda, kəndimə,
Siz məni dağlarda, yurdda axtarın.

Bir sıra silsilə şeirlərində şair insanları müqayisə edir, ayrı-ayrı xarakterlərin daxili və xarici keyfiyyətlərini böyük ustalıqla-poetik dillə tərənnüm edir:

"Adam var ki", şeirində olduğu kimi:

Adam var ki bədxah işə can atır,
Haqlını bu işdə ayaqdan dartır,
Talayır el varın əlaltdan xəbis,
Hər zaman haqlının qəsdinə yatır.

Seyidəli Səda yaradıcılığında məhəbbət mövzusu xüsusi yer tutur. Məhəbbətin ilahi bir güc olduğunu hər bir yaranmış insanın qəlbinə hakim və onun hər bir şəxsin həyatında mövcud olduğunun təsdiqinə bu mövzuya həsr olunmuş bütün şeirlərində rast gəlirik:

"Dərdə qalanım"şeirindən bir bənd:

Sən gedəli könlüm çıxıbdı cəngə,
Həsrətin can alır, sənsən amanım.
Sən mənim ümidim, gül üzlü yarım,
Bax sözə dön geri dərdə qalanım.

Və ya "Həsrət çəkir" gəraylısından bir bənd:

Bir vaxt sevgim oldu sənin,
Biz and içdik görüş çağı.
Söz-söhbətin könül açdı,
Şahid oldu Xan bulağı.

Seyidəli Sədanın şeirlərində janr zənginliyindən söhbət açmayacağam. Çünki əvvəlki yazılarımda bu mövzuda kifayət qədər məlumat vermişəm.

Qırx dörd günlük müharibənin sevincini bütün Azərbaycan xalqı yaşadığı kimi Seyidəli Səda da bayram edir və bu sahədə özünün yeni şeirlərini yazır.

Onun "Qarabağ azad oldu"şeirindən bir hissəyə diqqət yetirək:

Tarixə şərəfdir xalqsevər insan,
Kimin kim olduğun göstərir zaman,
Xalqa başçı olmaz hər adam yəqin,
Oxuyun tarixi siz diqqət verin.
Hər xalqa zəkalı insan gərəkdir.

Dəyərli şairin şeirlər toplusunda verilmiş "Tərsimə törəmələr"silsiləsindən mövzulu qoşmalar xüsusi diqqət çəkir. Belə ki, burada verilmiş şeirlərin hamısı üç bənd-

dən ibarət olmaqla yanaşı dərin fəlsəfi məzmuna və orjinal ideyalar daşıması ilə oxucunu özünə cəlb edir.Mən şairin şəxsiyyətinə dərindən bələd olduğuma və onu şəxsən tanıdığıma görə səmimiyyətlə deyə bilərəm ki, "Çatar murada" adlı qoşmasında ortalığa qoyduğu fikir eynilə şairin özünə aiddir:

Mən uymaram vara həyatım boyu,
Can atmaram nə şöhrətə, nə ada.
Tanınar hər kəsin eldə soy-kökü,
Buna şahid olub hər vaxt el,oba.

Həyatı boyu öz zəhməti ilə yaşayan şair heç vaxt xalq malına göz dikməmiş (baxmayaraq ki, buna kifayət qədər imkanı da var idi) və o yolla hərəkət edənləri həmişə qələm qamçısına məruz qoymuşdur."Vaxt gələr" şeirindən bir bənd:

Haram yığan hər vaxt kəc baxır mənə,
Nə olsun onun tək əldə varım yox.
Yurd dərdi çəkənə ağılsız demə,
Mən zəhmətin dostu, gözlərim də tox.

Seyidəli Sədanın yaradıcılığında poemalar da xüsusi yer tutur. Lakin təəssüflə qeyd etmək istəyirəm ki, poema adlandırılan geniş tərkibli şeirlərə də rast gəlmək mümkündür. Belə ki, geniş tərkibli şeirlərdə bəndlərin az da olsa sayı diqqəti cəlb edir.

"Cəngdə zəfər bizimdir" poemasını şair xalqın müvəqqəti olaraq məğlubolma səbəblərini o vaxt xalqa baş-

çılıq edən böyüklərdə görür. Belə ki, yad dillərdə danışaraq öz ana dillərini unudub evlərində başqa millətin nümayəndələrini öz xanımı edən insanları qınayır. Bütün günahları, başımıza gələn faciələri torpaqların, yurd yerlərinin itirilməsinin səbəbi onların olduğunu cəsarətlə qələmə alır.

Vətəni ucaldar hər vaxt zəkalı,
Gərək hər vaxt başçı olsun ağıllı,
Oxusaq tarixi olmarıq naşı,
Ucaldar başçını ağıllı başı.
Başlı başçı xalqı bədgünə qoymaz,
Bəzən başçı olur ağıldan dayaz,
Vətən, millət doğru yolun itirər,
Xalq, millət tarixən yaman gün görər.

Həmişə yad başlı insanları başçı seçdiyimizə görə, ağıllı insanlara qulaq asmadığımıza və onları həyatın tələbi baxımından lazimi səviyyədə qiymətləndirə bilmədiyimizə görə başımıza müsibətlər gəlmişdir deyən şair dərin təəssüf hissi keçirir.

Şair sevinc hissi ilə qeyd edir, nəhayət ki, xalq belə bir başçını seçə bildi və onun ətrafında sıx birləşərək torpaqlarımızı işğaldan azad etdi:

O elmlə, ağılla ordu yaratdı,
Cəngdə zəfər üçün ilk addım atdı.

Başçımız millətə haqq sözün dedi,
Bəzən məqsəd üçün güzəştə getdi.
Mötəbər Məclisdə haqlı biz olduq,
Axır haqsız hayla biz cəngə durduq.
Bərkdə gərək oldu dərin düşüncə,
Ali Baş komandan əmr verdi cəngə.

Beləliklə, illər boyu işğal altında olan şəhər və kəndlərimizin azad olunması prosesini şair çox sevinclə,ritmiq notlarla öz oxucularına çatdırır.Poemanın sonu çox nikbin notlarla başa çatdırılır:

Qarabağ Azərbaycan Türk yurdudur,
Torpağın sahibi xalqla, ordudur,
Qırx dörd gündə cəngdə zəfər çalmışıq,
Tarixdə şərəfli dastan yazmışıq,
Yaşa! Azərbaycan xalqı, ordusu.

Seyidəli Səda yaradıcılığında "Şair xalqın oğludur" poeması xüsusi yer tutur. Mən bu əsəri poema yox, mənzum roman adlandırardım. Əlbəttə ki, bu mənim gəldiyim qənaət və şəxsi fikrimdir. Əsər milli azadlıq hərakatının liderlərindən biri, ömrünü-gününü xalqın azadlıq mübarizəsinə həsr etmiş, böyük qəlbli insan, əvəzolunmaz şəxsiyyət və dəyərli Azərbaycan oğlu, xalq şairi Xəlil Rzanın həyat və fəaliyyətinə həsr olunmuşdur. Şair dərin araşdırmalar və özünün tarixi yaddaşına arxalanaraq heç nəyi təhrif etmədən dövrün bütün hadisələrini Xəlil Rza ətrafında baş vermiş onunla bilavasitə və bilvasitə bağlı

olan hər bir epizodu xırdalığına qədər böyük ustalıqla qələmə almışdır. Həmin dövrün ictimai-siyasi hadisələri, xalqın vəziyyəti, dövlət başçısının, Azərbaycan hakimiyyətini idarə edən adamların hansı səviyyədə olduğunu və digər məsələləri ön plana çəkmişdir. Bu çətin dövrün sakinlərindən və ictimai-siyasi hadisələrin bir başa iştirakçısı olan Xəlil Rzanın prototipini yaradan şair təəssüf hissi ilə belə deyir:

Dərd-qəmim yenə çəkir ərşə məni,
Mən necə yazım Xəlil Rza qəmini.

Mən rəhmətlik Xəlil Rzanı dərindən tanıyırdım. Onunla çox oturub-durmuşdum və xarakterinə tam bələd idim. Mən poemanı oxuduqca Seyidəli Sədanın Xəlil Rza obrazını necədə doğru-düzgün yaratdığının şahidi oldum. Xəlil Rza qorxmaz bir insan kimi poemada öz oğlunu da vətən yolunda qurban verir və evdəki xanımına muşduluq verir ki, "gözün aydın, Firəngiz, oğlumuz şəhid oldu". Xəlil Rza çox qorxmaz, sözünü kim olursa olsun üzə deyən bir şair idi. Seyidəli Səda tarixə səyahət edərək Xəlil Rzanı Puşkin, Karamzin kimi şəxsiyyətlərlə bir sırada və onların da haqsızlığın qurbanı olduğunu təəssüflə qeyd edir. Şair bir az dərinə gedərək dünyadakı dostlarını haqqa səsləyir və Xəlil Rza şəxsiyyətinin kimliyini bilməyə çağırır:

Hər eldən dost təki qonaqlar gəlsin,
Özü görüb haqqı, nahaqqı desin,
Hələ vətən bütöv deyil ayrıdı,
Bil ki Xəlil Rzanın hay-harayıdır.
Türkün oğlu qoy tanısın dostunu,
Düşmənə dərs versin azssa yolunu.

Dəyərli şair Seyidəli Səda poemanı çox nikbin notlarla tamamlayır:

Biz də gördük azadlığın dadını,
Azadlıq yolunda getdi neçə can.
Yaşasın hər vaxt anam Azərbaycan,
Xəlil Rza qurban getdi vətən yolunda,
Əbədi göz yumub vətən qoynunda.

"Şair xalqın oğludur" poemasını S.Səda yazarkən epiloqla başlayıb proloqla başa çatdırmışdır.

Yuxarıda qeyd etdiyim kimi Seyidəli Səda müxtəlif janrlarda əsərlər yazmağı bacaran dəyərli bir şairdir. Bu kitabda da onun o cür əsərləri vardır. Bu kitabda şairin bir Müsəddəsi də diqqəti cəlb edir:

Hər işdə nöqsanı var, insan görür dünyanın,
Ümid edir, hər insan dərdə salır öz canın,
Müəmma, sirdi dünya danır insanla andın,
Biz etibar etməyək, yox vəfası dünyanın,
Nəyi qalıb dünyada, sən söylə Süleymanın?!

Beləliklə, bu kitabda olan müxtəlif məzmunlu şeirlərin çoxusu haqqında həcmi nəzərə alaraq daha geniş fikir

söyləyə bilmədim. Yəqin ki, şair məni bağışlayıb günahımdan keçər. Seyidəli Sədaya yeni-yeni yaradıcılıq uğurları və can sağlığı arzu edirəm.

***Hörmətlə Elbrus Qəmgin,***
***Şair.***
***Prezident və Qızıl Qələm mükafatları lauriatı.***
***Bakı,16.04.2022-ci il***

## AZAD OLDU

Anasısan sən dahi Üzeyrin,
Natəvan qəlbinin nur aynasısan.
Yaşa tarix boyu, ay mənim Şuşam,
Oğul, qız ömrünün sən mənasısan.
Mən gərək adına çox dastan yazam,
Sənə kəc baxana dar məzar qazam.

Sən sevgi, məhəbbət kanısan hər vaxt,
Uca dağlarımın tac, cəlalısan.
Yaşa tarix boyu, ay mənim Şuşam,
Sən ömrü tanrıdan bəxşiş almısan.
Mən gərək adına çox dastan yazam,
Sevginçin çağlayan mən Kür, Arazam.

Adın gəzir dildə hər vaxt nəğmətək,
Hər zaman şöhrətli, şanlı biz görək.
Yaşa tarix boyu, ay mənim Şuşam,
Sənə kəc baxana biz dağ çəkərik.
Mən gərək adına çox dastan yazam,
Yurdçin cəngdə igid əsgər Oğuzam.

Şöhrət, şanın hər vaxt ucalır, Şuşam,
Millət, xalqla daim yaşa sən qoşa.
Yaşa tarix boyu, ay mənim Şuşam,
Tarixlə hər zaman sən ver baş-başa.
Xəbis haylar əsla qoy zənn etməsin,

Yad sözə aldanıb cəngdə mən çaşam.
Yaşa tarix boyu, ay mənim Şuşam,
Sənin keşiyində sayıq durmuşam.
Mən gərək adına çox dastan yazam,
Sevginçin çağlayan mən Kür, Arazam.
Yurdçin cəngdə igid əsgər–Oğuzam,
Dədə Qorqud əldə tutan bir sazam,
Hayla cəngdə zəfər çalan Oğuzam.
İstərik ürəkdən yurdu, bölgəni,
Candan çox istərik hər vaxt vətəni,
Cəngdə igid gördüm yurdu sevəni,
Xəbis hayla mən döyüşə girdim,
Cəngdə mənə arxa durubdu elim.
Ordumuz vətənçin qalxdı döyüşə,
Qırx dörd günlük cəngdə Şuşanı aldıq,
Şuşada üçrəngli bayraq ucaltdıq.
Ali Baş komandan verdi şad xəbər,
Yaşa xalqım cəngdə zəfər çalmışıq.
Dünya gördü cəngdə haqsızdı haylar,
Haylar əlin üzdü dağ Qarabağdan,
Haylara pay olmaz bizim torpaqdan.
Cəngdə zəfər çalmaq şərəfdir türkə,
Azad oldu neçə-neçə yurd, bölgə.
Dünyaya bəllidir türkün hünəri,
Xalqla Ordum hər vaxt vətən sipəri.
Xalqımla Ordumun gücünə sən bax,
Qarabağ azəri yurdudur hər vaxt.

## TƏNHA QOYMADI

Çətin olub həyat yolum hər zaman,
Qeyrət məni bərkdə tənha qoymadı.
Mənə əzab verib yurd dərdim hər vaxt,
Dərdim məndən bir gün uzaq olmadı.

Yurda həsrət qaldım,ürək ağrıdı,
Üz tutdum hər gecə aya dost kimi.
Şüası əl çəkdi bəyaz telimə,
Görüb məni gəlib haya dost kimi.

Üzümü tutmuşam əsən küləyə,
Halıma ah çəkib öz yolun gedib.
Baxdım buludlara mən kömək umdum,
Hər vaxt məni göz yaşımda qərq edib.

Dedim bəlkə mənə əl verdi günəş,
Mən gəzən çəməni oda qaladı.
Güvəndim dağlara yönəldim yola,
Yolumun üstünü boran,qar aldı.

Bilirəm bəd yazıb fələk bəxtimi,
Məni bərkə çəkir hər vaxt həyatda.
Dözürəm dərd-qəmə yurda çatım kaş,
Canım yurdu istər olsam da harda,
Gözləyir yolumu vəfalı yar da,
Həsrətin əlində qalmışam darda,
Ürək yurdu istər olsam da harda.

## QƏLBƏ NUR SAÇAR

Qiymətdə ləl-gövhər olur yaxşılar,
Nadanın gözündə dəyərdən düşər.
Yaz-bahar nəfəsli olar yaxşılar,
Hikmətin mənasın aqillər bilər.

Yaxşılar söz deyər qəlbə nur saçar,
Hər kəsə səadət görünər həyat.
Yaxşı vaxtsız köçsə bizim dunyadan,
El,oba qəm çəkər,olar narahat.

Qədri bilinməsə eldə yaxşının,
İtirər bu dunya qədir-qiymətin.
Yaxşılar ürəkdən yanıbdı yurda,
Bədxah qəlbdə çəkməz yurd-yuva dərdin.

Dünyaya qeyrətli oğul,qız verən,
Səcdəyə laiqdir eldə hər ana.
Canın fəda bilər yurda yaxşılar,
Ucaldar hünəri onu ad-sana.

Anıram yaxşının qızıl əməlin,
Könlümü ağrıdar onun yoxluğu.
Sən qoru yaxşını ey ulu tanrı,
Vətəni ucaldar hər qızı,oğlu.

## DÜNYA HAQLI GÖRÜR

Türkün torpağında yurd salıb haylar,
Yaman gündə haylar türkə güvəndi.
Üzdə hər vaxt haylar türkə yavındı,
Xəbis haylar türkə şər iş görəndi.
Çağırır döyüşə vətən bizləri,
Türkdən zərbə alsın hay xəbisləri.

Oxuyun tarixi düz qərar verin,
Haylar yenə bizi arxadan atır.
Türkləri silahsız görübdü haylar,
Dindaşın bizimlə döyüşə dartır.
Çağırır döyüşə vətən bizləri,
Dağlar olub hər vaxt türkün səngəri.

Düşmüşük dərdə biz yada aldanıb,
Qarış-qarış girib hay bizim yurda.
Hayların dindaşı güc verib cəngə,
Türkün dostu yoxdu qalmışıq darda.
Çağırır döyüşə vətən bizləri,
Türkə çökər cəngdə hayın dizləri.

İblisin sinəsin alın hədəfə,
Kəlbəcər həm Laçın odda yanmasın.
Durub xalqla ordu hayla döyüşə,

Qarabağ,Şuşanı haylar almasın.
Çağırır döyüşə vətən bizləri,
Qalmasın bölgədə hayın izləri.

Zəngilan,Qubadlı gözləyir ordu,
Cəbrayıl,Füzuli,Ağdam cəng edir.
Türk əsgəri zəfər çalır döyüşdə,
Düşmən məğlub olur yurdu tərk edir.
Çağırır döyüşə vətən bizləri,
Dağ çəkir haya cəngdə türk-azəri.

Türkdən zərbə alır hay xəbisləri,
Çökür türk önündə hay kənizləri,
Qalmaz Qarabağda hayın izləri,
Dağ çəkir cəngdə haya türk-azəri,
Dünya cəngdə haqlı görür bizləri,
Türkdən zərbə alır hay xəbisləri,
Bütün bəşər qalib görür bizləri.

## YURDDA AXTARIN

Küsmüşəm nə vaxtı qələmdən daha,
Siz məni oylaqda,yurdda axtarın.
Bu könlüm yol gedir yurda, kəndimə,
Siz məni dağlarda,yurdda axtarın.

Dünyanın dərd-qəmi keçir içimdən,
Düşmür aqil dostlar mənim dilimdən.



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 125376

Sözümə siz baxın mən incimədən,
Siz məni gözoxşar yurdda axtarın.

Nadan kef-damaqda,dərd çəkir arif,
Bu dünya beş gündür söyləyir hərif,
Nə olsun aqillər xoşlamır tərif,
Siz məni kefdə yox,darda axtarın.

Yolum üzyuxarı gücüm azalıb,
Gözümün baxarın duman,çən alıb,
Bilmirəm bəxtimə tanrı nə yazıb,
Siz məni hər zaman yurdda axtarın.

## HƏSRƏT ÇƏKİR

Bir vaxt sevgim oldu sənin,
Biz and içdik görüş çağı.
Söz-söhbətin könül açdı,
Şahid oldu Xan bulağı.

Özgə dilə inandın sən,
Sən çəkirsən qəm yükünü.
Ay qız günah məndə deyil,
Zay etdin sən öz ömrünü.

Nə günahım vardır söylə,
Ay ürəyimi dərdə salan.

Vəfan yoxmuş mən nə bilim,
Ömür-günüm oldu talan.

İlk sevgimə dönük çıxdın,
Mən itirdim qəlb sevəni.
Ay vəfasız sən də mənə
Pay vermisən qəm,qüssəni.

Gəldi sevgim bədxah gözə,
Yada qismət oldu gülüm,
Neçə-neçə ildi belə,
Yar həsrəti çəkir könlüm.

## VƏTƏNƏ SEVGİ

Mənim varım hər vaxt vətənə sevgi,
Vətən oğul deyir yurdu sevənə.
Vətən ana yurdum, vətən müqəddəs,
Vətənin varlığı dünyadır mənə.

Sənin yerin vətən ürəyimdədir,
Hər vaxt qəlbim sənlə döyünür vətən.
Bilsəmki nə vaxtsa darda qalmısan,
Keçərəm yolunda başımdan vətən.

Sənsiz ömür sürmək mənə gərəksiz,
Vətən səni canım,gözüm bilmişəm.

Vətən məhəbbəti yaşadır məni,
Vətən adın ləl tək sözüm bilmişəm.

Ürəkdə vətən üçün ümmandı sevgim,
Bərkdə şirin canım yolunda qurban.
Qoynunda boy atdım,ucaldım vətən,
Eşqinlə çağlayır könlüm hər zaman.

## EL VARI

Bizdə kürsü tutan boy gəzir eldə,
Əyri dostla talan edir el varın.
Atır el qızını bəyənmir daha,
Göz üstə saxlayır özgə dildarın.

Danır soy kökünü dəyişir soyun,
Adi cümlə yazır qoymur vergülün.
Dinləmir el sözün deyir haqq mənəm,
Adına şor deyir bar verən çölün.

Sözün doğru deyən düşür cəncələ,
Ələyri hər yerdə doğru sayılır.
Başçı deyir qərar verən tək mənəm,
El varını sağa-sola talayır.

Bizə gərək deyil ağıllı başlar,
Bədxah bəd iş tutur cəzasın almır.
Əyri zəhmət çəkmir yaxşı gün görür,
İndi zəhmət çəkən kafi dolanmır.

## TƏMİZ ÜRƏKDƏN

Bir vaxt sən şam idin,mən də pərvanə,
Eşqin atəşində yanardıq qoşa.
Hicrana sevincdən acıq verərdik,
Deyərdik bəxt oxu dəyməsin daşa.

Məndən yana tutdu üzün bəxt,tale,
Yalvardım,yaxardım o qaçdı məndən.
Arada ayrılıq özgə söz oldu,
Sevirdim mən səni təmiz ürəkdən.
Sən mənim ömrümə günəş,ay idin,
Bilməzdim səninlə nədir qüssə,qəm.
Saymadım ömür,gün sənsiz günləri,
Yar sevən könlümdə anırdım hərdəm.

İndi qəm karvanım yol gedir qəlbdə,
Çəkirəm könlümdə dərd-qəmi ay qız.
Axtarır gözlərim gülüm tək səni,
Vermişdim mən sənə qəlbimi yalnız.

Bəlkə çıxıb özgə sənə vəfasız,
Bəlkə səndə mən tək tənha qalmısan.

Aldanıb daş-qaşa, uyub yad sözə,
Bəlkə dərdi-qəmi satın almısan.
Sözümə xəbər ver gülüm dön geri,
Dübarə qovuşsun bəxtin ülkəri.

## ADAM VAR Kİ

Adam var ki, bədxah işə can atır,
Haqlını hər işdə ayaqdan dartır,
Talayır el varın əlaltdan xəbis,
Hər zaman haqlının qəsdinə yatır.

Adam var ki, eldə salar ədavət,
Olmaz düzlə cəngdə özündə cürət,
Özün eldə sayar xeyirxah adam
Doğruya hər zaman söyləyir lənət.

Adam var ki, tamah salar yad vara,
İstər haqlı düşsün hər zaman dara,
Haqlıya hər işdə kəc baxar eldə
Bəd əməl istər eldə vursun ara.

Adam var ki, dosta edir xəyanət,
Bəd sözü haqlıya etməz dəlalət,
Hər vaxt bədxah yalan sözün sayır düz
Kim görüb nə vaxtsa xəbisdə mürvət.

Adam var ki, üzdə yoxdu həyası,
Olub bəd əməli üzün qarası,
Cahil adam əbəs bəyənməz elin
Özgə dilbər olar canın cəfası.

Adam var riyakar,tor qurar düzə,
Əyri dostla məhəl qoymaz düz sözə,
Özün haqlı sayar bədxah iş tutar
Bədəməl hər yerdə kül atar közə.

Adam var ki,haram vara göz dikər,
El varını əyri dostla tək yeyər,
Özün eldə haqlı sayır bəd əməl
El sevər insana şər,böhtan deyər.

Adam var ki,əyri yolla var yığır,
Cahil dostla süfrə açır hey tıxır,
Eldə özün uca sayır bədxislət
Zəhmətə həyatda hər vaxt kəc baxır.

## HAQQI DANARIQ

Harda sus dedilər susmarıq müdəm,
Haqsız sözə ağız açıb dinmərik.
Əyri yalan deyər haqlı sanarıq,
Haqlı sözün desə qulaq vermərik.

Biz çıxarsaq əgər səs,ün nə fayda,
Doğru ağzın açsa yəqin qoymarıq.
Bax beləcə həyat boyu biz varıq,
Dil açmarıq hər vaxt haqqı danarıq.

Ədalət axtarır əyridə çoxu,
El varını talan edir ələyri.
Haqlı zəhmət çəkir barın yad yeyir,
Düzün göydə qalıb hər vaxt əlləri.

Elin gözü yaxşı görür hər kəsi,
Bəd iş tutan çox and içir Qurana.
Doğru haqsız olur əyri başbilən,
İnam yox vəzifə tutan insana.

Eldə əyri düzə kəc baxır hər vaxt,
Dost olar əyriyə bölgədə başçı,
Hər zaman ələyri haram var yığır,
Doğrunun əlində düz sözü qayçı.

## GƏZƏR GÖZÜN

Yarın təkcə səni səslər,
Yar yarına sevgi bəslər,
Yada baxsan yarın küsər,
Özgə səni dildə sevər,
Axır sənə cəza verər.

Hər vaxt yarı gəzər gözün,
Yarı görcək gülər üzün,
Xatırla sən yar sözünü,
Yarın güldən çələng bağlar,
Gül çələngin döşə taxar.

Sevən könül istər yarı,
Yarla saxla düz ilqarı,
Kimə qalır dünya varı,
Yar yoluna dik gözünü,
Sanma yarsız sən özünü.

Yar könlünü sən al özün,
Söylə yara sözün düzün,
Qoy ağ olsun hər vaxt üzün,
Sənə qurban yarın canı,
Özün yarı yaxşı tanı.

Ahın çatar bütün elə,
Yar həsrətin düşər dilə,
Sanma haya özgə gələ,
Canda özün dərd çəkərsən,
Göz yaşını hey tökərsən.

Telli sazın əldən düşər,
Yar inciyib özgə səslər,
Öz yarından könlün küsər,
Niyə özgə üzə baxdın,
Öz canını oda yaxdın.

## TANRI DƏRGAHI

Gəlibdir məclisə dostlar,qonaqlar,
Seyid muğam desin biz də dinləyək.
Xan əmi "Çahargah" oxusun bügün,
Kamandar Habilə biz qiymət verək.

Deməyin yaşlanıb Zülfi,Mütəllim,
Yaqubu,Mürşüdü dinləyək gəlin.
Ədalət sazında çalsın "Sarı tel",
Eşidək xoş avaz Qulunun səsin.

Sərvboy Həqiqət bəzək səhnəyə,
Şövkət könül açır təsnif deməklə.
El-oba şad olur hər vaxt doğrusu,
Zeynəbi səhnədə hər gün görməklə.

Şahmalı "Rast" desin olaq feyziyab,
Arif zilə çıxsın dinləyək səsin.
Rasim ləhçəli oxusun bülbültək,
Sabir də "Segah"ı zil üstə desin.

Sara "Qatar" desin, boy versin zilə,
Tükəzban oxusun məclis şad olsun.
Şəkili Ələsgər desin "Şikəstə",
Bülbül könül versin gülə yar olsun.

Üzeyir bir daha doğulmaz bilin,
Əlövsət səhnədə səslə can üzür.
Eşidək gur səsin biz yenə onun,
Əminə qol açır sonatək süzür.

Muğamın beşiyi bizim Qarabağ,
Cabbar Qaryağdı da muğamın şahı.
Oxudub Bülbülü tarla Sadıqcan,
Qarabağ muğamın tanrı dərgahı.

## QİSMƏTİN OLSUN

Yaşamaq istəyir insan həyatda,
Könül varı sevgi olub hər zaman.
Əl verməz dərd,qəmə insan sevgidə,
Vəfalı sirdaşa möhtacdı insan.

Həyat boyu sevgi,ümid tükənməz,
Əhdinə düz ilqar,yar özgə sevməz.
Ömür boyu cantək sevər dildarın,
Əhdə sadiq yarla insan qəm yeməz.

Yar açıb qəlbini sən ol vəfalı,
Çıx yola hər səhər yarla görüşçün.
Çağlasın dilində sevgi nəğməsi,
Sən yara həmdəm ol ömür-gün üçün.

Məhəbbət əzəldən könüllər varı,
Odur insanlığın əsil mayası.
Qoyma həsrət salsın yardan ayrılıq,
Yarın sənin sevgi payın olası.

Səadət bəxş edir sevgi insana,
Gözünə nur saçar alyanaq sifət.
Qəlbin ruhudur hər zaman saf eşqin,
Ürəkdən sevdiyin qoy olsun qismət.

## UNUTMAZ MƏNİ

Ürəkdə dərd qəmim, həm də tənhayam,
Qapımı ayrılıq döyür açıqca.
Bezib qəlbim daha dərdin əlindən,
Dərdim dilənçi tək gəlir ardımca.

Aparır uzağa bədfikir məni,
İstərəm qüssə,qəm məndən əl üzsün.
Bərkdə hər vaxt xəyal mənə təsəlli,
İstər xatirələr üzümə gülsün.

Tək mənəm otaqda qələm,ağ kağız,
Gəzir xəyallarım mənlə hər yanı.
Göz açıb xəyalda yar baxır mənə,
Yar görüş istəyir yandırır canı.

Gözünü lil tutan bir bulağam mən,
Gərək səddi yaram axam çöllərə.
Unutmaz yar məni olar düzilqar,
İstərəm eşqimiz düşsün dillərə.

Məhəbbət güc verir idraka hər vaxt,
Ucalır ad-sana əsər yaradan.
Sevgidə yar tapan dərd çəkməz daha,
Könlü sevər yarı yəqin hər zaman.

## EL ÇƏLƏNG HÖRƏR

Bilinməz yaxşının,yamanın sayı,
Görünər hər işdə hər kəsin yeri.
Əl tutmaz yaxşıya çətində əyri,
Doğruya uyuşmaz yamanın şəri.

Yaxşılar əməldə nəfsə baş əyməz,
Bədxaha əl tutar əyri hər zaman.
El içində bədxah sayılmaz adam,
Çünki haqqı deməz, söyləyər yalan.

El görür yamanın naqis əməlin,
Yaman ada yaxşı deməz el,oba.
El içrə yamanın çoxdu gunahı,
Bil ki halal deməz el haram vara.

Haqsızı ələyri dost sayar eldə,
Hərkəsin əməlin eldə göz görür.
Bədxaha inanmaz,el sevər haqqı,
Yaxşılar adına el çələng hörər.

Haqsızın hər sözün əyri saydı düz,
Çünki elin varın əyri taladı.
Yaxşılar hər zaman çəkibdi zəhmət,
Haqlı hər vaxt halal varla dolandı.

## DƏRDƏ QALANIM

Sən gedəni könlüm çıxıbdı cəngə,
Həsrətin can alır,sənsən amanım.
Sən mənim ümidim, gül üzlü yarım,
Bax sözə dön geri dərdə qalanım.

Bu könül dünyama olarsan bələd,
Sevgim sənin üçün olar zər qədri.
Yad sözə baxma sən, pozma əhdini,
Səni aldatmasın daş-qaş dəyəri.

Nur təki eşqimi duyarsan ay qız,
Yad sözü sevgimə bəd külək olmaz.
Səninlə əhdimi danmaram əsla;
Həsrətin heç zaman bizi ayırmaz.

Mən səni sevmişəm hər vaxt canım tək,
Qalmışam mən indi dərdin əlində.
Günəş tək sevgimiz sönməz məşəldi,
Dərdimi görürsən bəyaz telimdə.

Sən dönüb arxaya baxmadın mənə,
Bəd yola düzəldin vida etmədin.
Hər görüş xatirə oldu var payım,
Yaşadım həyatda özgə sevmədim.

## EL QINAR SƏNİ

Çörək yerdə olsa al qoy göz üstə,
Çörək müqəddəsdir hər zaman oğul.
Hər vaxt öp çörəyi istə bərəkət,
Onu ucuz tutma əl,aman oğul.

Çörək sənin gücün, hər vaxt həyatın,
Onu ucuz tutma el qınar səni.
Özünü sən qına yol versən səhvə,
Çörək sənə möhtac edər düşməni.

Yerə düşən çörək olmaz gərəksiz,
Dünyanın varlığı onunla bağlı.
Çörəyin qiyməti namusdan artıq,
Çörəksiz insanın sinəsi dağlı.

Çörəyin qədrini bilməz müftəxor,
Kimsə varmı çörəksiz süfrə açsın?
Çörək varsa bilki vətən basılmaz,
İnsana güc verir uca dağ aşsın.

Çörəyin qiymətin tutma sən ucuz,
Çörək istər ona zəhmət çəkəni.
Babalar çörəkçin tökübdü qan,tər,
Müqəddəs ruhlar da izləyir səni.

## SƏN HAQQ GƏZİRSƏN

Görürəm hər zaman sən haqq gəzirsən,
Ədalət yolunda zülmə dözürsən.
İnanıb gedirsən işığa doğru,
Olasan sən polad gərək bu yolda.

Hər kəsdə hünər olmaz tutsun haqq yolun,
Ömrünü bu yolda güdaza versin.
"Özünə güvənib mən varam deyən",
Görmədim cangüdən ədalət sevsin.

Haqq yolunda durmaq çətindir,dostum,
Bu yolda sinədə şirürək gərək.
Harama göz dikən qənimdi haqqa,
Hər yetən insanda axtarma məslək.

Haqlıya şər atır düzə kəc baxan,
Əyri quyu qazır hər vaxt haqlıya.
Haqqa aşiq olan keçər canından,
Bərkə düşsən eldə düzü harayla.

## BİRLİK GƏRƏKDİR

Bəxt,tale yükləyib kədərlə məni,
Təbiblər çalışdı çarə tapmadı.
Göylərə üz tutdum kömək istədim,
Yerdəki dindaşım kömək olmadı.

Düşmüşəm cənginə bir məkr,felbazın,
Qurubdur tor, tələ çəkirəm dərd-qəm.
Nəzir-niyaz verdim olmadı xeyri,
Dərdimə həm şərik yoxdu bir həmdəm.

Kim bilir nələr var mənim qəlbimdə,
Sorağın alan yox,dərd qəmim nədir?
Halımı görənlər söylədi yazıq,
Yurddan uzaq düşmək nə yaman dərddir.

Yurddan ayrı düşən dərdə dözəmmir,
Köçkünün ömrünə dərd qənim çıxır.
Yurda qayıtmağın görünmür yolu,
Yurdsuz el,oba canın oda yaxır.

Dərdimə yad yazır saxta qərarlar,
Ən ali fərmandan çarə olmadı.
El,oba qalıbdı dərd-qəm əlində,
Keçsədə çox illər yurd alınmadı.

El,oba düşünür dərdə çarəsin,
Gəzir vətənində yadtək ümidsiz.
Yurda gedən yolu kəsibdi yadlar,
Can alır yurd üçün hər vaxt dərdimiz .

Nə fayda yurd üçün dərd-qəmə dözmək,
Hayla cəngə girmək hünərdir bizə.
Dərdimə yek dərman obada birlik,
El gücü,sel gücü gərəkdir bizə.

## AZƏRBAYCAN ƏSGƏRİ

Ana vətən oğul sayır bizləri,
Dunyaya göz açan zamandan bəri,
Hifz edəcək tanrı səni çətində,
Ümidvar ol bərkdə sına hünəri,
Yurdsev ər ol Azərbaycan əsgəri.

Vətənə bağlı ol,qorxma döyüşdə,
El,oba gücünə güvən hər zaman,
Hər döyüş cəbhədə olma sən aciz,
Hər vaxt sına özün canda hünəri,
Hədəfə sən düz at hər vaxt gülləni.

Qeyrətli sayılmaz cəngə durmayan,
Xalq da uca sayar döyüşdə oğlun,
Ölümdən qorxma gəl yurdu sən qoru,
Hədəfə sən düz at düşmən qaçmasın,
Qəhrəman ol Azərbaycan əsgəri.

Cəbhədə qorxma sən pələng tək döyüş,
Düşmənə zərbə vur diz çöksün haylar,
Vətən sənə hər vaxt deyər qəhrəman,
Cəngə çağır yurddan qaçqın elləri,
Qəhəman ol Azərbaycan əsgəri.

Baxma yaşım keçib mən də əsgərəm,
İstərəm vətənçin şəhid tək öləm,
Qoymayaq göz açsın döyüşdə haylar,
Dunya özü görsün haqlıdır ölkəm,
Şərəfli ol tarix türkə bələddi,
Türkoğlu vətənin hər vaxt əsgəri,
Yurdçin yaşa Azərbaycan əsgəri.

## DOST OLAN

Ey bəşər övladın yaşadan əmək,
Sayəndə hər zaman boy atıb insan.
Sənlə əl tutana yaddı kasıblıq,
Artırar öz varın sənə dost olan.

Asan işə qaçar zəhmət sevməyən,
Namərd hər vaxt istər haram var yesin.
İnsanın həyatı əməklə bağlı,
Varsa mənim səhvim aqillər desin.

İnsanı ucaldar hər eldə zəhmət,
Halal varın hər vaxt artar azalmaz.
İdraksız bir insan ağacdı barsız,
Torpağa kəc baxan bil xöşbəxt olmaz.

Həyat mübarizə,ömür də möhlət,
Ey insan özgədən umma mərhəmət.
İnsanın borcudur qurub yaratmaq,
Yaşadır insanı sevgi,məhəbbət.

## XALQIMA HEYRƏT

Bu qədər dözümlü xalqıma heyrət,
Vətənçin hər zaman gərəkdi qeyrət,
Yurda qayıtmağa çatıbdı müddət,
Nə vaxt hayla cəngə duracaq xalqım?
Dağ çəkir canıma dözülməz halım.

El,obalar yurddan uzaq düşübdü,
Neçə yurdda yanar ocaq sönübdü,
Bəxt,taleyin məndən üzü dönübdü,
Nə vaxt hayla cəngə duracaq xalqım?
Göy üzünə indi qalxıbdı ahım.

Yağı haylar ayaq açıb Qarabağa,
Məndən qorxmur göz dikib Murovdağa,
İndi Cıdırda tək gəzir tısbağa,
Nə vaxt hayla cəngə duracaq xalqım?
İstərəm torpaqçin tökülsün qanım.

Sənin ata,baba şöhrətin hanı?
Döyüş quran türk xalq,millətin hanı?
Döyüşə durmağa qeyrətin hanı?
Nə vaxt hayla cəngə duracaq xalqım?
Qurbandır vətənə mənim can varım.

"Daha yetər qalx ayağa ey xalqım!",
Qoy olsun torpaqçin çox şəhid canım,
Türkdən başqasına yoxdu gümanım,
Yurdçin döyüşdə oğul,qız qurbanın,
Vətən,torpaq azadlığı məramım,
Sən ol ədaləti bütün dünyanın,
Türkdən başqasına yoxdu gümanım,
Qarabağ,Şuşada qalxsın bayrağım,
Hər yerdən qoy gəlsin dostlar-qonağım,
Çağlasın nəğmətək İsa bulağım,
Qonşu yağı haya uymasın ağlım,
Vətən,topaq azadlığı məramım,
Vətənçin qeyrətim olsun silahım.

## VERMƏRƏM YADA

Tutubdu Şuşanı qara duman,çən,
Qalıbdı tənhaca məndən küşübdü.
Dikilib gözləri uzaq yollara,
Baxıram üzünə eldən küsübdü.
Çölündə boy gəzir hayın dığası,
Bilirsən kimdi,onun din dayısı?!

Görürəm uzaqdan halını qəmgin,
Tutub ala qarğa Murov dağını.
Düşüb satqın əllə tora,tələyə,
Haylar satın alıb özgə ağlını.
Sülənir çölündə dindaş tulası,
Bilirsən kimdi, onun din dayısı?!

Olubdur tarixən başın bəlalı,
Yağılar səninlə cəngə çıxıbdır.
Qarabağ-yurdumun dağlar maralı,
Səndən ötrü qanlar seltək axıbdır.
Çölündə gəzənlər hayın ağası,
Bilirsən kimdi,onun din dayısı?!

Şuşaya həsrətdən gözüm saralıb,
Düşübdür el,oba yurdundan ayrı.
Canda qorxu gəzir dığa Cıdırda,
Salacaq ayağa ordum hayları.

Çölündə gəzənlər buldok balası,
Bilirsən kimdi,onun din dayısı?!

Qədim Oğuz yurdum Şuşa,Qarabağ,
Keçərəm canımdan verməərəm yada.
Sabah yenə günəş təki gülərsən,
Qurular toy-büsat eldə-obada.
Alacaq bəd cəza hayın dığası,
Olacaq Qarabağ canda ağrısı.

## AZAD OLUR

Bizlə haqsız cəngə çıxıbdı haylar,
Niyə dünya görmür cəngdə haqsızı.
Zaman əlin verib haqsız haylara,
Dağ Qarabağ türkün canda ağrısı.

Türkün torpağında yurd salıb haylar,
Dünya görür türkə silah işlədir.
Viran qoyub neçə yurdu, ocağı,
Amma haqsız haylar haqlı görsənir.

Döyüşdə türk gücü xalqın inancı,
Cəngdə ordum hayı salar ayağa.
Tab gətirməz haylar türklə döyüşdə,
Qan görüb diz çökər türkə şandığa.

Milli ordum qisas alır döyüşdə,
Haylar məğlub olub qalıb qəfəsdə.
Sözlə qüvvə alır dindaşdan haylar,
Çökər türk önündə axır nəfəsdə.

Qarabağ yad əldə qalıb nə vaxtdı,
Şuşasız qalıbdı dərdlə el-oba.
Diləyir güc,imdad Xankəndi bizdən,
Bəd gündə bizlərə yar olsun Xuda.

Döyüş cəbhəsində İlham əmr verir,
Ali Baş komandan deyir irəli.
Tükənir döyüşdə hayların gücü,
Türkə əlin açıb hay kənizləri.

Başın uca tutsun xalqım,millətim,
Vətən keşiyində durub ordumuz.
Ali Baş komandan deyir inamla,
Haydan azad olur oğuz yurdumuz.

## MÜƏLLİM SÖZÜ

Müəllim sözünü saxla yadında,
Həyatda hər zaman olar gərəyin.
Müdrik insan eldə sayılar uca,
Hər fikrin mənasın dərin öyrənin.

Müəllim sözləri olmaz gərəksiz,
Bəhrəsin görərsən öz əməlində.
Həyat yollarında düşsən müşkülə,
Qalmazsan sən naçar bilki çətində.

Nur saçar yolunda müəllim sözü,
Çıxar el içində yaxşı ad-sanın.
Vətənçin şərəfdi zəkalı insan,
Bağlayar vətənçin hünər dastanın.

Müəllim sözünü el sayar doğru,
Düz sözə baxmayan haqq yolun çaşar.
Borcludur hər insan xalqa,vətənə,
Doğru yol tutanlar vətənçin yaşar.

Vətənin aşiqi hər vaxt müəllim,
Yaşadır ürəkdə vətənə eşqin.
Vətənçin döyüşdə edər can sipər,
Ucaldar zəfərlə vətən şöhrətin.

## YURDU SEVƏR

Dağların ətəyi olubdu məskən,
Yaşayır yurdsevər burda el,oba.
Yoxdu yaşın bilən neçə yüz ildir,
İgidlər oylağı sayılır Quba.

Dağların döşləri əlvan çiçəkdir,
Çağırır sevəni gülün dər deyir.
Aparır insanı xəyal,düşüncə,
Durma əldə sazın "Misri" çal deyir.

Bir cənnət yaranıb əzəldən Quba,
Güneyi bir nazlı dilbərə bənzər.
Quzeyi sanki bir tamaşa,xalça,
Yamacda,təpədə turaclar gəzər.

Hər zaman günləri ötür yaz kimi,
Könüldə arzular bağlayıb qönçə.
Qurular toy-büsat barlı payızda,
Gözləyər oğlanlar qəlbə qız seçər.

Zəhməti el,oba var,dövlət sanar,
Tanrıdan halalca öz payın istər.
Özünə vətəni anatək bilən,
Qeyrətli oğul,qız öz yurdun sevər.

## BİZDƏN ƏL ÜZMƏZ

Niyə dandın ay qız sevgi andını,
Sən məni itirdin,mən də ki səni.
Ancaq xatirələr bizdən əl üzməz,
Unutmaq çətindir könül sevəni.

Hər görüş günləri qalıb xatirə,
Ötsədə ömü-gün könül usanmaz.
İlk sevgi həsrəti dərd olar qəlbə,
Günəşsiz baxçada bilki bar olmaz.

Bizdən küskün olar ürəyimiz də
Ömür boyu canda ağrı çəkərik.
Özgə sözə baxıb əgər ayrılsaq,
Sevgili bir ömrü yada verərik.

Dil verib özgəyə yar desək əgər,
Ayrılıq əlində yanar qəlbimiz.
Hicran gülər bizə hər zaman boyu,
Bizə aman verməz bilki dərdimiz.

Bilməsən sevginin qiymətin ay qız,
Qalarsan hər zaman dərdin əlində.
Daş-qaşa aldanan sevgi anlamaz,
Çəkər yar həsrəti yad yar evində.

## İZİM QALANDIR

Xalqı sevən sevgi dolu ürəyim,
Bir aşiqdir hər vaxt torpağa,yurda.
Vətən canım,gücüm həm də qeyrətim,
Qurbanam vətənə olsam da harda.

Çağlayır qəlbimdə sevgi vətənə,
Mən sadiq olmuşam ağlım deyənə,
Dözüm pənah durub çətində mənə,
Elim arxam oldu qalmadım darda.

Oxudum mən yadı onun gözündən,
Özgə xəbisləri tutdum sözündən,
Yalan,böhdan hey danışdı özündən,
Mən varisəm bu torpaqda "Boz qurda".

Mən ölümə qorxu gəlib güc etdim,
El adına ləkə deyənə yetdim,
Mənəm qənim sənə bəd işdə dedim,
Pisə dağ basacam olsa da harda.

Dad çəkmərəm mən əzabdan el bilir,
Hər kəsin əməli eldə deyilir,
Yaxşı dost da yaman gündə bilinir,
Candan artıq olur namus da, ar da.

Şəki,Şirvan,Muğan,qədim Naxcıvan,
Gəncə,Quba,Car-Balakən,Lənkəran,
Bizə bir anadır yurd Azərbaycan,
Hər vaxt cəngi çalsın kaman da,tar da.

Bu canım ana vətən sənə qurbandır,
Yurdun,elin şanı şəhid balamdır,
Mən gedəsi sözüm,izim qalandır,

Bilirəm borcluyam bir can bu yurda,
Mən varisəm bu torpaqda "Boz qurda",
Elim arxa dursa qalmaram darda,
Sözümdə düz ilqar olmuşam yurda,
Bilirəm borcluyam bir can bu yurda,
Qurbanam vətənə olsam da harda.

## AY CAVAD

Dəyişib zəmanə indi ay Cavad,
Ələyri haqlının yolun bağlayır.
Əqlizay olubdur bölgədə başçı,
Əyri əllə el varını talayır.

Aqillər, ulular qalıb arada,
Qorxu yox haramxor boy gəzir eldə.
Yaltaqlıq baş alıb gedir hər yerdə,
Tərif gəzir indi nağmətək dildə.

Tarixin təkəri dönməz yolundan,
Qızıl itməz bilki yatsa torpaqda.
Bədəməl heç vədə düz getməz yolun,
Mərdə böhtan atar eldə,obada.

Xəstənin halını dərk edər təbib,
Qumruya toxunsan tərk edər yurdun.
Dost dostun sınayar dara düşəndə,
Çətin gündə dosta əl tutan oldun.

Bil ki, Cavad yetən dost olmaz sənə,
Çoxu sözə dönük çıxır çox əfsus.
Çəkmisən çox cəfa bərkdə dost üçün,
Sədaqət,yaxşılıq insana məxsus.

## BAĞLAYIR FƏLƏK

Bağladır haqsıza haqlının qolun,
Haqq yolun gedənə kəc baxır fələk.
Yurdsevər insanın durur qəsdinə,
Haqlıya hər işdə şər yaxır fələk.

Haqsıza göstərir bəd işin çəmin,
Kiminə həyatda bol verir qəmin.
Bəzən bəxti gülməz eldə sənəmin,
Bədxahın əllərin yalayır fələk.

Fələkdən diləmə dərdinə dərman,
Hər yetən adamdan sən umma güman.
Olammaz hər yetən karvana sarban,
Gücsüzün haqq yolun bağlayır fələk.

Gətir göz önünə yurdu bölgəni,
Fələk qəsdə durub kəsib döngəni.
Görmüşəm gözümlə mən,cəhənnəmi,
Yurdsevər insanı dağlayır fələk.

Sən güc al hər zaman eldən,obadan,
Birlik olarsa el qurtarar dardan,
Əroğul çox istər vətəni candan,
Haqq yolun gedənə kəc baxır fələk,
Yurda gedən yolu bağlayır fələk,
Haqlını bəd gündə sınayır fələk,
Yurdsevər insanı dağlayır fələk,
Birlik olarsa el qurtarar dardan,
Əroğul çox istər vətəni candan.

## ÖMÜR UZANSIN

Billur gözlü axan dağ çayı hər vaxt,
Torpağa can verir çörək bəxş edir.
Dünya heyran olub varlı yurduma,
Zəhmətin bəhrəsi ləl,gövhər verir.

Hər zaman güc verir ağıl insana,
Bizdən uzaq duşər qəm,qüssə,dərd də,
Yurdsevər insanı ucaldar əmək,
Həyat gülər üzə şəhərdə,kənddə.

Biz istərik dostluq olsun dünyada,
Bərkdə əlin versin insan-insana.
Unutmaq nə demək türkün düşmənin,
Çətindi əl tutmaq bərkdə yamana.

Özünü dunyada haqq sayar namərd,
Tutsa da var yükün gözləri doymaz.
Acgöz hər vaxt istər təkcə öz canın ,
Yığsa dünya varın eldə ucalmaz..

İnsanı yaşadır yaxşı əməli,
İstəyir hər zaman arzuya çatsın.
Bəşər istər dünya olsun davasız,
Həyat üzə gülsün,ömür uzansın.

## DÜZ SÖZÜN DESİN

Varmı eldə oğul söz versin bizə,
Mən tamam kəsərəm kökün rüşvətin.
Əroğul odur ki,yeritsin sözün,
Hər sözün haqlı desin cəmiyyətin.

Oğul gərək hər vaxt saxlasın nəfsin,
Əyrini qoymasın el varın yesin,
El içində üzə düz desin sözün,
Olsun diqqətində xalqın,millətin.

Eldə daş-baş alan az deyil hələ,
Qurulur haqlıya hər işdə tələ,
El varın talayan boz kərtənkələ,
Saxlar əyri dostla hər vaxt ülfətin.

İndi rüşvət alan utanmır eldən,
Harda fürsət düşsə buraxmaz əldən,
Hər yerdə yalana pərgardı dildən,
Bərkdə baş ağanın çəkər minnətin.

Nəfs bizdən qeyrət istər boğaq onu,
Biz də gedək hər vaxt haqqın yolunu,
Ucalsın hər yerdə haqq sözün tonu,
Anlayaq haqq sözün dərin hikmətin.

Doğruluq hər işdə istər el,oba,
Gecə olar günəş getsə qüruba,
Görünməz zülmətdə gözə ağ,qara,
Hər sözün haqlı desin cəmiyyətin,
Əroğul odurki yeritsin sözün,
Düz olsun önündə hər vaxt cəmiyyətin,
Olsun diqqətində xalqın,millətin.

## YURD HAYA QALMAZ

Bir vaxt türkə yurdçin yavındı haylar,
Yaman gündə haylar türkə güvəndi.
Yurdsuz haylar türk qabını yaladı,
Zaman keçdi haylar yadla gücləndi.
Vətən deyir türklə haylar bacarmaz,
Türklə cəngdə haylar zəfər çalammaz.

Haylar türklə haqsız giribdi cəngə,
Türkü haylar yadla çəkibdi dara.
Türk eli silahsız,haylar silahlı,
Neçə kənd,bölgəni qoydu xaraba.
Vətən deyir türkün oğlu basılmaz,
Xalqım cəngə dursa yurd haya qalmaz.

Fələk qəsdə durdu gen düşdüm yurddan,
Keçərəm yurd üçün can təki vardan.
Tutulub yol-iriz özgə güc ilə,
Daha pay verməmərəm haya torpaqdan.
Vətən deyir cəngdə hay aman dilər,
Haylar məğlub olar türkə diz çökər.

Hələ canda gücüm tutur əlimdən,
Yurddan əl üzmərəm neçə ki sağam.
Haya zərbə vurub alacam qisas,
Bərkdə mənlə olsun tanrı tək ağam.
Vətən deyir vermə aman haylara,
Göstər türk ordusun dindaş daylara.

Soy-köküm türk oğlu,özüm yurdsevər,
Ölümdən qorxmaram sağ qalasıyam.
Hər döyüşdə haya aman verməmərəm,
Hayla cəngdə mən zəfər çalacam.
Xalqla ordum birdi hayla döyüşdə,
Mən qurban edərəm canımı yurda.
Əmr verib Ali Baş komandan bizə,

Vətən toprağını verməyərik yada.
Vətən deyir cəngə haylar diz çökər,
Türk oğlu yurd üçün varından keçər.
Əmr verib Ali Baş Komandan bizə,
Vətən torpağını verməyərik yada.
Yurda gözün dikən eli,obanı,
Cəngdə zəfər çalıb qoymarıq darda.
Qayıtsın el-oba bölgəyə,yurda.

## XEYİR, ŞƏR

Dunyada xeyir,şər olub olacaq,
Dunya bədxah işdən xali olammaz.
Əzəldən xeyir,şər insan əməli,
İnanma sən xeyir,şərlə barışmaz.

Xeyir nədir soruş sən al cavabın,
İnsan əməlidir deyər baş bilən.
Şər də hər vaxt bədxah insan əməli,
Xeyir yola gedər,şərlə cənginən.

Bu millətin oğlu,qızı doğmadır,
İnsanın tamahı onun şər gücü.
Xalq içində oğul,qızın öz yeri,
İnsan mənliyinə yoxdur tam ölçü.

Hamı bu vətəndə xeyir istəyir,
İnsan əməli həm xeyir,həm şərdir.

Kimi qəlbdə xeyir,kimi şər bəslər,
Deməк xeyir,şəri gəzən bəşərdir.

Kimsə zəmanəni sayar günahkar,
Çoxu ümid bəslər hər vaxt xeyirə.
Haqsız hər vaxt haqqa eldə kəc baxar,
Acgöz gözün dikər hər yerdə şərə.

Səsim yetmir yəqin böyük Allaha,
Üz tutur hər insan ona çətində.
Xeyir,şərdən baş açmıram mən daha,
Bərkə düşür xeyir şərin əlində.

Öz ağlımla torpaq üstdə gərəyəm,
Xeyir mənlə yola gedir hər zaman.
Sahib olar hər vaxt şər haram vara,
Sayılar günahkar xeyirxah insan.
Əzəldən xeyir şər insan əməli,
Əbəs yerə haqsız haqqa kəc baxar,
Hamı zəmanəni sayar günahkar.

## DÜZLÜK İSTƏRİK

Bizdə hamı sözdə düzlük istərik,
Amma ki, bədxah iş görərik xəlvət.
Adımız müsəlman,dinimiz islam,
Fürsət düşən təki alarıq rüşvət.

Uşaq evdə görür bədxah əməllər,
Hər vaxt ata deyir doğru olaq biz.
Məni qınamayın olsa nöqsanım,
Halal varla zəngin olmaz süfrəmiz.

Kimsə zəhmət çəkir qazanır ad-san,
Ağıllı istəməz əl açsın yada.
Zəhmətlə dost olan kafi dolanar,
İstəməz göz diksin özgə,yad vara.

Kimsə çalışır bir sənət oyrənsin,
İstər ondan uzaq olsun dərd,möhnət.
Kimi zəhmət çəkir eldə ucalır,
Kimi də özgədən hey çəkər minnət.

Kimsə kürsü tutur yığır haram var,
Düşünmür bədcəza alacaq özü.
Qusacaq tək özü haram var yığan,
Yaddan çıxmaz heç vaxt elin düz sözü.

## YOXDU SƏFASI

Nə bilim indi sən necəsən mənsiz,
Mənsə sənsiz tənha qalmışam,gülüm.
Bilmirəm yadla sən xoşbəxt olmusan,
Qəm,kədər əlində qalıbdı könlüm.

İlk sevgi qönçəmiz çiçək açmadı,
Bəxt bizə kəc oldu üzə gülmədi.
Bəd gözə tuş oldu bizim sevgimiz,
Arzumuz həyatda barın vermədi.

Sal yada mənimlə sevgi illərin,
Yəqin qəlbin olub dərd-qəmə həmdəm.
Qəlbə ağrı oldu eşqin cəfası,
Canda cəza olar ayrılıq,müdəm.

İndi ömür-günün yoxdu səfası,
Ürək bu ağrıya çətinki dözsün.
Bizə təsəllidir tale yazısı,
Çəkirik cəzasın bizdə qismətin.

## ADAM SAYILMAZ

Dost olub zəmanə əyriyə indi,
Yol-iriz,alçaqlıq hələ sənindi,
Başçı nökər dedi yaltaq sevindi,
Eldə əyri,yaltaq adam sayılmaz,
Haram varla bədxah heç vaxt bay olmaz.

Bir məsəldi zər qədrin zərgər bilər,
İnsan eldə xoş günü dosta dilər,
Döyüşdə yurd üçün canından keçər,
İblis işıq salar, ay ola bilməz,
Axan yağış suyu çay ola bilməz.

Soy-kökü yaxşılar bədxah olammaz,
Hər metal qiymətdə qızıla çatmaz,
Əsli zay adamlar eldə sayılmaz,
Zəmanə haqsıza əl tutur hər vaxt,
Haram var qazanır əyriyə sən bax.

Adam var ki,sağ canın xəstə sayır,
Eldə iş görəndə başın bulayır,
Haqlının düz sözün bəd söz qayırır,
Əldən tutmaz əyri,alçağın biri,
El-oba içində ucalmaz əyri.
Elsevər insanı ucaldar hünər,
El-oba sevənlər yurd qədrin bilər,
El içində yaltaq adam sayılmaz,
Haram varla bədxah heç vaxt bay olmaz,
İbliz işıq salar ay ola bilməz,
Axan yağış suyu çay ola bilməz,
Zəmanə əyriyə əl tutar hər vaxt,
Haram var qazanan əyriyə sən bax,
Əldən tutmaz eldə əyri,alçağın biri,
El-oba içində ucalmaz əyri.

## DƏRS ALAQ

Anlamaz cahillər nədir yaxşılıq,
Ağlı kəmə gündüz olar qaranlıq,
Özün haqlı sayar ələyri varlıq,
El sözün düz deyib,biz də dərs alaq,
Haqlıya yad sözlə böhtan atmayaq.

Haqlıya ələyri qurar tor-tələ,
Qəm çəkər baxanda dost bəyaz telə,
Bağbanı olmasa bağ dönər külə,
El sözün düz deyib,biz də dərs alaq,
Aldanıb tamaha haqqı danmayaq.

Axan yağış suyu bilki durulmaz,
Yolu uzaq deyil çaya tay olmaz,
Hər gün buğda versən yabı day olmaz,
El sözün düz deyib,biz də dərs alaq,
Hər zaman haqq sözə biz qulaq asaq.

Xeyir hər vaxt görüb şərdən yamanlıq,
Acgözü bəlaya salar harınlıq,
Yurda kəc baxanda olmaz insanlıq,
El sözün düz deyib,biz də dərs alaq,
Oxuyaq el sözün biz varaq-varaq,

Haqqı cəngə çəkər namərd dinc durmaz,
Qeyrətsiz var güdər el,oba saymaz,
Ar,namus itirən eldən utanmaz,
El sözün düz deyib,biz də dərs alaq,
Hər yerdə ədalət,haqqı danmayaq.
El sözün düz deyib,biz də dərs alaq.

# HİKMƏTLİ SÖZLƏR

Anlamaz hər adam haqqı həyatda,
Tanınar yaxşı dost hər zaman darda.

Doğru deməz eldə yalan,bötanı,
Unutmaz el,oba yaxşı insanı.

Nuş edin içkini öz qaydasında,
Olmasın bəd söhbət dost arasında.

Qalmasın haqlıdan dost,qohum küskün,
Bəxş etsin yaradan bizə ömür-gün.

Niyyətim əməldə olub yaxşılıq,
Yaxşı dost adına siz deyin sağlıq.

Nuş edin dostla siz halal çörəyi,
Təmiz olar düzün hər vaxt ürəyi.

Bədxah ələyrinin tutdu əlindən,
Acgöz həbsə düşdü əyri felindən.

Adam var and içir dosta yalandan,
Bir vaxt ayrı düşər and üstə dostdan.

İdrakı küt olan düz sözə baxmaz,
Elin bəd günündə can oda yaxmaz.

Adam var hər işdə öz xeyrin güdər,
Əyri cəza alar düz baxıb gülər.

Nalbənd nal axtarar zər qədrin bilməz,
Əbləh yad yer istər öz yurdun sevməz.

Hər adam çətində el üçün yanmaz,
Haram var güdəndə ar,namus olmaz.

Hər yetən mərd olmaz eldə,a dostlar,
Yaxşılar adına dastan yazılar.

Mənəm deyən bərkdə qaçar sözündən,
İnciyər hər yerdə sözün düzündən.

Yekə tutar arsız özün obada,
Hər vaxt dost,qohumdan gen gəzər darda.

## SİRDİ AÇILMAZ

Dərdi var dünyanın canda dərya tək,
Hələ sirr qapısın görən,açan yox.
Haqlıya şər atan əyri yol gedir,
Dünyanın yaxşısı az,yamanı çox.
Dünyanın hər işin anlamaz çoxu,

Doğruya əl verməz bərkdə bu dünya,
Haqsızı qaldırar günəşə,aya,

Görsə yağış suyun bənzədər çaya,
Dünyanın əməli sirdi,açılmaz,
Haqq üçün xeyirə qərar yazılmaz

Haqlıya şər atar salar tələyə,
Kafi qiymət verməz halal çörəyə,
Dünya özü gözdə oxşar mələyə,
Yoxdu eldə bədxah işdən baş açan,
Kim görüb haqlını sözündən qaçan,

Ağıl gərək dərk eləyə dünyanı,
Yaxşı seçə hər vaxt şər və yalanı,
Dünya sevər işdə düyün salanı,
Dostudur dünyanın düzə şər atan,
Doğruya şər atar salar tələyə,
Dünya özü gözdə oxşar mələyə,
Dünyanın hər işin anlamaz çoxu,
Doğruya kəc baxar ucaldar toxu,
Dostudur dünyanın düzə şər atan ,
Yoxdu hələ bədxah işdən baş açan,
Haqlını kim görüb sözündən qaçan

## UTANMIR

Adam var ki,yaxşı işdə əl tutur,
Doğru şəxsə böhtan atan utanmır.
Vicdanı olan şəxs çəkir xəcalət,
Haqqın yolun haqsız tutan utanmır.

Əldən tutan hər vaxt olub elsevər,
Xəbis,paxıl təkcə öz canın güdər,
Aqil yaxşı şəxslə qonşuluq edər,
Xeyir işdə qəsdə yatan utanmır.

İlahmı yox,təbi sönük adam var,
Haqq yolunda xain mərdə şər atar,
Yurdsevər hər insan qurub yaradar,
El içində ara qatan utanmır.

Adam varki çatar uca ad-sana,
Arif qiymət verər sözü qanana,
Eldə yaxşı deməz ara qatana,
Çoxu haram vara çatır utanmır.

Elin şad günündə paxıl sevinməz,
Yurdsevər adına yaxşı söz deməz,
Hatəm eldə yaxşı işdən əl çəkməz,
Yaman işdən yaxşı yazan utanmır.

## SƏNSƏN

Sən mənim can yarım,qəlbə sirdaşım,
Sənsən bu həyatda hər zaman varım.
Yarımla hər görüş ürək sevincim,
Pozulmaz sevgidə yarla ilqarım.

Yarsız bu dünyanın dəyəri azdı,
Döyünməz duyğusuz ürək canımda.
Mən yarı sevəni olmuşam onun,
Gəzirəm vəfalı yarın yanında.

Məhəbbət ürəkdə çağlayır müdəm,
Qəlbimdə diləyim yar məni sevsin.
İstərəm mənimtək yarın sevəni,
Taleyi ömür-gün ərmağan etsin.

Könlümdə çiçəktək əbədi solmaz,
Mən sənin hüsnünü nərgizdə gördüm.
Ümid yerim hər vaxt tək sənsən yarım,
Muradım səninlə ömür-gün sürüm

## YAŞADIR MƏNİ

Məhəbbət qəlbimin tükənməz varı,
Sevdiyim bir gözəl duymadı məni.
Hicranın əlindən qüssə-qəm yedim,
Sevgimin möhnəti yormadı məni.

Məhəbbət məşəldi hər vaxt ürəkdə,
Sevgisiz bir həyat insana dərddi.
Eşqimin yolunda çox cəfa çəkdim,
Əhdə sadiq olmaq bilki hünərdir.

Könlündə sevgisi yoxsa insanın,
Məhəbbət oduna atarmı özün.
Aşiqin hünəri canda sevgisi,
Mənası böyükdür sevdalı ömrün.

Məhəbbət çırağı günəşə bənzər,
Həyatda ilk sevdam yaşadır məni.
Axtarır gözlərim sevdiyim yarı,
İlk sevdam məcnuna oxşadır məni.

İlk sevdam könülmə nurdu günəştək,
Unutmaz andını düz ilqar aşiq.
Yar yolunda cəfa çəkər usanmaz,
Aşiqə yar olsa sevdiyi məşuq.

## ÜRƏKDƏ HƏSRƏTİM

Taleyin yazısın bəndə pozammaz,
Duyğusuz bir könül sevgidə yanmaz,
İlqarsız gözəldən qəlbə yar olmaz,
Aldanma yad sözə düşərsən oda,
Əl üzməz yaxandan bilki dərd,qada.

Vəd mənə şirin pay sevdiyim yardan,
Əl versin yar mənə qurtarım dərdan,
Yar sevən əl çəkməz sevdiyi yardan,
Sən məni unutsan dərdə düşərsən,
Özgəni andına dönük görərsən.

Qoymaram sevgimi dərdin əlində,
Əlim gəzər yarın qara telində,
İstərəm şux nəğmə yarın dilində,
Dözərəm sevgidə dərdə,möhnətə,
Yəqin mən çataram bir vaxt niyyətə.

Yayılıb sədası eldə eşqimin,
Sevgidi daş-qaşı sevən qəlbimin,
Çəkirəm hər zaman yarın dərd,qəmin,
Çıxıbdı ad-sanım eldə düz ilqar,
Ürəkdə həsrətim sevdiyim dildar.

Mənə ümid verir yarın düz sözü,
Qəlbə nur çiləyir ulduztək gözü,
Könülmə nur verir al yanaq üzü,
Sevirəm mən yarı ürəkdən hər vaxt,
Səadət bəxş edər bizə tale,baxt.

## BİZ YADA İNANDIQ

Bizlər doğru sözü saymışıq yalan,
Özgə yalan dedi biz də inandıq.
Bəd gözlə baxmışıq ağlı olana,
Onu özgə sayıb biz canın aldıq.

Paxıllıq hər yerdə olubdur mərəz,
Boğmuşuq başlını erkən yaşında.

Qoymarıq ucalsın yurdsevər insan,
Görmüşük hər xəta düzün başında.

Hər vaxt olub bizdə ayrı-seçkilik,
Bölgə,kənd adları işdə əsasdı.
Qəsd edərik hərgiz eldə haqlıya,
Haqsız hökmü verən ağ saçlı başdı.

Saymarıq zəkanı eldə baş bilən,
Başda yer verərik hər vaxt biz yada.
Bizə kəc baxanı darda qoymarıq,
İstərik haqlını tapsın dərd,qada.

## SAYIQ OLMALI

Adam var haram vara göz dikər,
Haqqa böhtan atar eldən utanmaz.
Bəd işdə hər zaman güdər qazancın,
Qeyrətsiz adamdan yurdsevər olmaz.

Həyat çox üzlüdür qoru özünü,
Adam var bədxislət,mələk simalı.
Bəzən qənim çıxır insana dostu,
Ömür boyu hər vaxt sayıq olmalı.

Özünü sən qoru bədxah adamdan,
Tamah salma əsla sən haram vara.

Hər vaxt uzaq dolan acgöz adamdan,
Sadiq ol hər zaman eldə dostlara.

İnsan var kimliyin tanımaq olmur,
Kimi tələ qurar düzə əlaltdan.
Kimi bəlli olur bədxah əməldə,
Baş açmaq çətindir bilki həyatdan.

Tanıyar çətində insan insanı,
Dosta dayaq olmaz bərkdə hər insan.
Həyat hər vaxt olub sınaq meydanı,
Kimin kim olduğun göstərir zaman.

## DƏRDƏ MƏN HƏMDƏM

Çoxalır dərd-qəmim uzun gecələr,
Qoşuram dərd,qəmi gedən karvana.
Gecələr ürəkdə fikrim əlləşir,
Üz tuturam çarə üçün sarbana.

Xəyalım önündə durur dağ,qaya,
Başımın üstünü alır duman,çən.
Baxıram göylərə umuram nicat,
Görürəm olmuşam dərdə mən həmdəm.

Açılır ümidlə yolum,irizim,
İstərəm ömür-gün yaşayım eldə.

Gərək hünər tapıb gedim doğru yol,
Görək yurd yuvada nə qalıb əldə.

Bəzən ayaq baxmır sözə yol gedim,
Vətənçin əsgərtək durum keşikdə.
Görür məni dərdlə cəngə çıxmışam,
Baxır mənə oğul nəvəm beşikdə.
Görürəm olmuşam dərdə mən həmdəm,
Üz tuturam çarə üçün sarbana,
Hələki qalmışam dərdin içində,
Ümid var əl tutan aqil insana,
Üz tuturam çarə üçün sarbana.

## QEYRƏT ÖYRƏNƏK

Borcumuz vətəni yaddan qorumaq,
Gərək qeyrət elmin hər vaxt öyrənək.
Arxa duraq müdəm bərkdə haqqa biz,
Bizlər gərək haqqı əldən verməyək.

Bizə zərbə dəyir cəngə durmuruq,
Sözün düz deyənə tələ qururuq.
Elsevər insana biz yad oluruq,
Eldə yalan sözlə cəngə getməyək.

Bölgədə hayla dost olub başbilən,
Əyri deyir sən də yola getginən.

Haqlı ömür sürür hər vaxt cənginən,
Gərək haqlı sözü bizlər dinləyək.

Ay Səda yatıbdı bəxti bizlərin,
Elin yurdu olub boz kələzlərin,
Bizdə sözü keçir yad kənizlərin,
Həqiqət elmini gərək öyrənək,
Canı qurban deyib döyüşə gedək,
Vətənçin döyüşdə biz şəhid verək,
Torpağı yağıdan biz azad görək.

## FRAQMENTLƏR

Sanmaki şəkərdi gördüyün dünya,
Haqlıya pay verir qüssə,qəm,kədər.
Yadla cəngdə yurdçin can fəda etsən,
Dünyanın gözündə sayılmaz hünər.

Çoxdu bu dünyanın bədxah işləri,
Xamırla sındırır salamat dişi,
Güc,hünər sahibi adlanmaz kişi,
Haqlını hər işdə günahkar görər.

Bədxaha bəxş edər bu dünya xoş gün,
Deyər qeyrətsizə siz çələng hörün,
Salıbdı doğrunu bəd günə görün,
Satqına var payın əlaltdan verər.

Bu dünya hərcəyi adamı sevər,
Əyriyə hər zaman xoş həyat dilər,
İnsan var yurd üçün göz yaşın tökər,
Dünya da kəc baxıb ürəkdən gülər.

Haqlıya əl tutmaz bu dünya eldə,
Haqsızın bəd işin tәriflər dildə,
Düzün dərd payını saxlayar əldə,
Namərdi dost sayar mərdə çor deyər.

Düzü tutar topa,gülləyə dünya,
Sayılmaz kimdə var ar,namus,həya,
Haqqın yolun kəsər çapılmaz qaya,
Bədxahlar həyatda yaxşı gün sürər.

Kəc baxır bu dünya yurdu sevənə,
Üz tutar bədxaha çıxar çəmənə,
Ağır cəza verər düz söz deyənə,
Alçağın yolunda varından keçər.

Yabını kölənə dünya tay tutar,
Qır atı bazarda çox ucuz satar,
Haqlının hər zaman qəsdinə yatar,
Namərdə həyatda ömür gün dilər.

Dünyanın gərdişin çətindi bilmək,
Haqqa nəsib olmaz dünyanı sevmək,

Haqsıza bəd işdə olmaz söz demək,
Bu dünya haqsıza can deyib sevər.

Haqsıza əl verib deyər haqlısan,
Haqqa baxıb deyər sinə dağlısan,
Cəngdə şəhid verib yara almısan,
Düzün sözün kəsər haqsızı dinlər.

Söz deyən insanın yumar ağzını,
Bağlayar əllərin alar sazını,
Namərdin hər yerdə çəkər nazını,
Mat qalıb dünyaya bəd işdə ellər.

## MUĞAMIN MƏKKƏSİ

Musiqi beşiyi küllü Qarabağ,
"Çahargah","Şur" üstə səslənir uşaq.
Dinləsən sən hərgah aqilin sözün,
Deyəcək ay nəvə sən oxu "Üşşaq".

Muğamın incisi "Segah","Qatar"dı,
Hər vaxt könül açır Şuşanın yazı.
Cabbarın "Segah"ı ləl tək dəyərli,
Oxuyar zil səsdə "Dilkəş","Şahnaz"ı.

Yolun düşsə Cavad qalx uca Kirsə,
Hər bulaq səsində nəğmətək avaz.

Görərsən bülbüllər girbidi bəhsə,
Könlü sevən gülə oxuyur "Şahnaz".

Qarabağ Məkkəsi nəğmə,muğamın,
Sən gəl ol qonağı Şuşa,Ağdamın.
Tanrının bəxşişi xalqa Üzeyir,
Təməl daşın qoyub nəğmə,muğamın.

Muğam Qarabağın tacıdır başda,
Məşədi Məmmədlə,Xan əmi sultan.
Seyyid,Yaqub,Arif can alar səslə,
Hər üçü bağlıdır yurda xalqınan.

Qarabağın kəndi,bölgəsi cənnət,
Yağı həsrət çəkir hər vaxt uzaqdan.
Bu yerin qocası cavana həmdəm,
Oğul,qıza ana olub Natəvan.

El,oba dost sayar gələn qonağı,
Könül oxşar hər vaxt İsa bulağı,
Çatır Qarabağın dosta sorağı,
Şuşa Qarabağın hünər qalası,
Hər vaxt Şuşa yurdun gözəl sonası,
Şuşanı dağ,qaya alıb qoynuna,
Qız,gəlinlər qolun salır boynuna,
Qarabağ yurdudur türkün hər zaman,
Nəqş edib bu yurdu böyük Yaradan.
El,oba hər zaman bu yurdda xöşbəxt,

Əldən tutur hər vaxt hünər,sədaqət,
Bağlıdır ürəkdən el,oba yurda,
Təbiət canlıdır hər zaman burda,
Qarabağ yurdudur türkün hər zaman,
Onun şanı,şöhrəti Azərbaycan.

## SƏN HAQLI OLSAN

Dünyanın işləri çətindir,çətin,
Tanınar əməldə düzü hər insan.
Yetənə dost deyib bağlama ülfət,
Yaxşı dostu çətin gündə taparsan.

Hünər sahibini eldə,obada,
Namərd istər versin heç nədən bada,
Əkizdir xeyir,şər bilki dünyada,
Comərdsən yaxşıya sən arxa dursan.

Ləl gövhər söz,fikir demiş atalar,
Qəvvas olan dürrü dəryadan tapar,
Qeyrətsiz adamda gəzmə düz ilqar,
Namərdin yolunda canı yorarsan.

Eldə zatı qırıq vəzifə tutdu,
Haram yığıb el,obanı unutdu,
Vardan ötrü düzün evin uçurtdu,
Bədxah adam eldə qazanmaz ad-san.

İnsanın əlləri varı,dövləti,
Agıldır əməldə onun qüdrəti,
Sayılar hər yerdə varsa cürəti,
El,oba gücündür sən haqlı olsan,
Eldə haqqı deyən qazandı ad-san.

## ELSEVƏR İNSAN

Qənimdi düz sözə əyri əzəldən,
Adam var ki, üzü utanmır eldən,
Bədxah ləzzət alır naqis əməldən,
Beləsi obada adlanmaz insan.

Öz əməlin namərd sayar güc,hünər,
Yaxşı dara düşsə gülər sevinər,
Elin bəd günündə təzə geyinər,
Bu yolla hər eldə tanınmaz insan.

Haqq yolunda haqlı naçar qalıbdı,
Əyri əldən ağır zərbə albdı,
Axırda haqq işi zəfər çalıbdı,
Dağıtmaz el varın elsevər insan

Yabıdan Cıdırda umma bərk qaçış,
Namərdlər yaxşını düşmənə satmış,
Tahmakar saf südə göl suyu qatmış,
Harama üz tutan olammaz insan.

Olubdu məramım düzlük,yaxşılıq,
İnsanda gərəkdir olsun xoş qılıq,
Dost olmaz insana hər zatı qırıq,
Beləsi dünyada sayılmaz insan.

## GÖRMÜŞƏM

Vətənə bağlıyam,ona qurbanam,
Mən onu canımdan əziz bilmişəm.
O mənim gözümdə dönüb dağlara,
Mən ona güvənib cəngə girmişəm.

Sərvətdir xalq üçün hər qarış yeri,
Qoruyar vətəni hər vaxt əsgəri,
Hər eldə şərəfdi şəhid hünəri,
Mən canı yurduma fəda demişəm.

Bu dünya varında yoxdu tamahım,
İstərəm obamla birgə dolanım,
Təki uca olsun eldə ad,sanım,
El bilir gözümü yurda dikmişəm.

Dünyada şöhrətim doğma elimdi,
Namərdə bəd işdə gücüm qənimdi,
Torpağın yolunda ölüm mənimdi,
Yurdumu ana tək qəlbən sevmişəm.

El sevər ürəkdən yurdun,yuvasın,
Elim gözlər döyüş cəngi çalınsın,
Mən istərəm Dağ Qarabağ alınsın,
Vətənə can verən mərdi görmüşəm.

## DAHA CƏNGƏ DURMAZ

Tükənir can gücüm könlüm qəm çəkir,
Zorla uzaq düşüb elim yurdundan.
Həyat bir nağıldır məni aldadır,
El-obam qurtarmır düşmən torundan.

Gecəli,gündüzlü dərdlə yoldayam,
Kədərin əlindən üzülür canım.
Fikir dəryasında yol azıb gəmim,
Ümid var tuş gələr həmdəm olanım.

Bəzən bir yetim tək büküb boynumu,
Özgə yerdə dərd yükümü bağlaram.
Ömrümün günləri baş alıb gedir,
Cəngə dursaq düşman gözün dağlaram.

İndi yaşım keçir düzü altmışı,
Cavad nəvəm hayla döyüş gözləyir.
Neçə elim,obam durub döyüşə,
Cəngdə saysız hayı edəcək əsir.

Cəngdə zəfər çalar xalqımla ordum,
Çökəcək diz üstə hayın əsgəri,
Orduma baş əyər hayın əsiri,
Yağı düşmən türkdən ibrət götürsün,
Hayların yox gücü türklə döyüşsün,
Vətənçin hər zaman cəngdə əsgərəm,
Düşmənin can gücün hədəf alaram.
Yurduma kəc baxan türklə bacarmaz,
Hayların dindaşla hərb gücü çatmaz,
Qarabağ qurtardı hayın əlindən,
Şuşada yüksəldi üç rəngli bayraq,
Qayıtsın el-oba bölgə,yurduna,
Dinləyək Arifin nəğmə dilindən,
Türkün tarixi var şanlı zəfərli,
Tarix boyu qalar türkün izləri,
Dünya görüb yadla türkün cəngisin,
Əsir verməz yada bölgəsin,elin,
Daha cəngə girməz bizimlə haylar,
Türklə cəngə dursa hay yurdsuz qalar.

## OLSA ƏDALƏT

Yapışıb qəm,kədər mənim yaxamdan,
Söylədi bir payam qəlbinə möhnət.
Ha qaçdım mən yazıq kədərdən uzaq,
Bəxtimin özündən qazandım töhmət.

Yolunda qəm yedim həyatda düzün,
Dinləmir dünya da haqlının sözün,
Düz işlə dağladım əyrinin gözün,
Dostum oldu kimdə gördüm dəyanət.

Dünya çəkib məni bəd işdə bərkə,
Naşılar bəd işdə olubdu yengə,
İnsan gərək laiq olsun soy-kökə,
Haqq tapar öz yerin olsa ədalət.

Nurlu sabahımı kəsəndə duman,
Dözmüşəm ağrıya özüm hər zaman,
Bir ömür bəxş etdim sevgiyə,inan,
Əlini əlimdən çəkdi səadət.

Könlümdə vətənə sevgi tükənməz,
Yad yerə üz tutan el qədrin bilməz,
Vətən,el yolunda döyüşə girməz,
Çağlayır qəlbimdə yurda məhəbbət,
Vətənin torpağı hər zaman sərvət,
Ucaldar vətəni hünərlə insan,
Vətənin ad-sanı zəkalı insan.

## QAÇIR UZAĞA

Sığal çəkdim qəmdən küsən qəlbimə,
Namərd səbəb oldu duman,çənimə,
Haqsız,xəbis həsrət çəkdi şənimə,
Niyə eldə çəkir dərdi yaxşılar.

Bəd işin yönünü kəsib durmuşam,
Mən özüm pisləri düzdə yormuşam,
Yaxşı işlə eldə ad,san qoymuşam,
Niyə eldə çəkir dərdi yaxşılar.

Azdırmayıb məni əməldə yaddaş,
Könlümə düz adam olubdu sirdaş,
El,oba sevməyən olmaz vətəndaş,
Yurd-yuva dərdini çəkir yaxşılar.

Özümə qəsd etdim haqqın yolunda,
Mən oldum günahkar işin sonunda,
Görünür bədəməl yaxşı donunda,
Eli də aldadıb bəzən naxışlar.

Səadət hey qaçır məndən uzağa,
Hər insan ağılla gedər qabağa,
Hər yetəndə sevgi olmaz torpağa,
Ağlı olan çətin düşər duzağa,
Canım qurban doğma yurda-oymağa.

## FRAQMENTLƏR

Adam var ki bilmir nədir əqidə,
İş,gücü hər zaman haram əridə,
Güvənir hər işdə hər vaxt acgözə
Özünə dost sayar gic mürtədi də.

Adam var ki düzə böhtan atandı,
Kim deyər yurdsatan eldən utandı,
Əldə olsa silah yəqin alçağın
Yurdsevər insana güllə atandı.

Adam var xisləti xudbin,amansız,
Yurdsatan adama əsla daş atmaz,
Haram var doyurmaz acgözün qarnın
Namərd həyat boyu elsevər olmaz.

Adam var qısqanclıq onun xisləti,
Bədxaha hər zaman vardır rəğbəti,
Eldə özün sayar hər vaxt hünərli
Görünməz çətində gücü,qeyrəti.

Adam var ki, qorxunc,daha amansız,
Deməz eldə düzə sözün yalansız,
Özün sayar eldə hər vaxt iş bilən
Eldə nə iş görsə olar yararsız.

Adam var ki,istər haram var yesin,
Utanmaz ələyri haqlıdır desin,
Acgöz aman dilər divan qurulsa
El istər ən ağır cəza verilsin.

Adam var iş gücü ədavət salmaq,
Haqlının adına böhtan,şər atmaq,
Özünə güvənər hər işdə hər vaxt
Alçağın əməli məqsədə çatmaq.

Adam var bədniyyət,şər atar düzə,
Arxada söz deyər görünməz gözə,
Bədxahın əməli hər vaxt yamanlıq
Əyrinin bəd sözün söyləməz üzə.

## NƏ GƏZİR ƏDALƏT

Hər vaxt ədalətdən yaman deyirsən,
Guya ki, hamıdan sən çox bilirsən,
Haqqı deyib əbəs cəngə girisən,
Görmürsən haqlı söz işləmir indi,
Eldə doğru sözə baş qoşan kimdi.

Hər mal qiymətindən baha satılır,
Varlı üçün kütbaş asan tapılır,
Onları aldadıb çox bala batır,
Ədalət sözünü işlətmə sən də,
Nə gəzir haqq-hesab şəhərdə,kənddə.

Bilinmir ağanın nədir məramı,
Kimi dərdlə xəstə salır canını,
Oğul gərək cəngə çəkə hamını,
Bölgədə haqlı söz kimə gərəkdir,
Adam var ki dərdi ucuz çörəkdir.

Bil ki kürsü tutmaq baha olubdu,
Başçıya dost olan varlı olubdu,
Doğru neçə ildi canın yorubdu,
Sən desən doğru söz düşərsən cəngə,
Axtarma ədalət bizim bölgədə.

Bölgədə ələyri ucaldıb saray,
Hər kənddən gur axır daş-başı hər ay,
Kimsəyə güvənmə salma sən haray,
Ədalət itirib öz gücün indi,
Görünmür el yolu dumandı,çəndi.

## SİRDİ BU DÜNYA

Sonu görünməyən sirli dünyadı,
Kiminə ayaqsa,kimə qanaddı;
Kimi ömür sürüb yüz yaşa çatdı,
Dünya özü yaxşı,yaman görübdü,
Dünya hər vaxt əldə varın güdübdü.

Dünya çoxun bərkdə sınağa çəkdi,
Var,dövlət yığanlar əli boş getdi,

Dünya vəfasızdı aqillər dedi,
Bərkdə dünya düzə arxa olmadı,
Onun hər əməli qəlbə yatmadı.

Söylə kimə qalıb dünyanın varı,
Sən de kimlə olub,əhdi,ilqarı,
İnsanı həyatçin yaratdı tanrı,
Aldanıb güvənmə dünya varına,
Qoyma ləkə düşsün namus,arına.

Kimin bəxt günəşi üzə gülmədi,
Yarla çiçək dərib çələng hörmədi,
Cəfa çəkdi yarla səfa görmədi,
Dünya düzlə bərkdə yola getmədi,
Dünya zaman-zaman haqqı sevmədi.

Ağlı olanlara dərs verir dünya,
Əqli kəmi bərkə çəkir bu dünya,
Sözün deyir qərar verir bu dünya,
Öz karvanın asta çəkir bu dünya,
Bu dünyanın kimlə olub ilqarı,
Söylə kimə qalıb dövləti,varı,
Haqlı,haqsız qəsdə yatır bu dünya,
Haqqa hər vaxt güllə atır bu dünya,
Haqsıza dost düzə bədxah bu dünya,
Niyə haqda görür günah bu dünya,
Öz karvanın asta çəkir bu dünya,
Sözün deyir qərar verir bu dünya.

## XALQIN ƏMLAKI

Bizdə matah işdi torpaq al-veri,
Üçsot torpaq satan çatır qazanca.
Sonra nöqsan üzə çıxır bəd işdə,
Torpaq alan düşür dərdə yamanca.
Satanın ünvanın tapammır alan,
Çünki torpaq satan demiş ağyalan.

Torpaq satan sözlə çoxun aldadıb,
Sən öl,mən öl sözlə bəd iş tutbdu.
Aldadıb tamahı torpaq satanı,
Eldə çox adama tələ qurubdu.
Torpaq satan yalan and içir dinə,
Yalan doğru çıxır satan nəfinə.

Torpaq satan itir,görünmür gözə,
Aldatmaq adəti silahdı əldə.
Torpaq alan cəngə çıxır satanla,
Məsəl çəkir yalan günahdı dində.
Torpaq satan yalan deyir and içir,
Torpaq alan haqlı deyir and içir.

Torpaq satan düşür haqqın əlinə,
Dedi pulu çatar böhtan atanın.
Uzaqbaşı çatar bir ay müddətə,

Satan əlin qoyur üstə Quranın.
Torpaq alan üzün tutur Allaha,
Yalan olsa satan tapsın bədbəla.

Torpaq satan dedi alan xəstədi,
Məhkəmə söylədi yoxdu bir sənəd.
Satan dedi alan dosttək istədi,
Hakim dedi əldə yoxdu bir sənəd.
Torpaq satan haqsız oldu bədişdə,
Çatmadı köməyə çünki səriştə.

Çox adam aldatdı torpaq satanlar,
Düşür nahaq cəngə torpaq alanlar.
Müsəlman dindaşın salır dərd-sərə,
Torpaq alan dərdlə çıxır səhərə.
Qanunla ələyri almır sərt cəza,
Keçmir həbsdə onun ömür,günləri.
İnsanı aldatmaq yoxdu Quranda,
Cəza almır haqsız işin sonunda.
Bölgədə qanunla görülsə hər iş,
Olunar qanuna hər yerdə vərdiş.
Gənclər görür bədxah cəzasız gəzir,
Onlar olur bədxah işə müntəzir.
Olsa qanun-qayda yəqin bölgədə,
Düşməz haqlı adam vətəndə dərdə.

Torpaq xalqın varı,satılmaz əmlakı,
Satılar bazarda zəhmətin bəhəri.
Qoyulmaz nə torpaq, nə yurd hərraca,
Torpaq, yurd da elin satılmaz gövhəri.

## ZƏFƏR BİZİMDİR

Eldə ərkişinin oğlu olmuşam,
Elsevər insana arxa durmuşam,
Namərdi hər zaman bərkdə yormuşam,
Özümü yurduma borclu saymışam,
Yurd üçün döyüşdə dağlar aşmışam.

Düşmənlə döyüşdə qorxu bilmədim,
Yağını qaçmağa aman vermədim,
Doğma yurda mən canı qurban dedim,
Özümü yurduma borclu saymışam,
Düşmənə dağ çəkib gözün oymuşam.

El,oba yurd üçün durub savaşa,
Haylara gözdağı olacaq Şuşa,
Qoymarıq gülləmiz tuş olsun daşa,
Özümü yurduma borclu saymışam,
Kim deyər nə vaxtsa bərkdə çaşmışam.

Qarabağ türklərin olub məskəni,
Günəş çıxan təki yox edər çəni,
Qeyrətli hər zaman sevər vətəni,

Özümü yurduma borclu saymışam,
Şəhid oğul verib ad-san almışam,
Yurd üçün döyüşdə dağlar aşmışam,
Kim deyər nə vaxtsa bərkdə çaşmışam,
Yurd adlı sevgimə həsrət qalmışam,
Mən əsgərəm hayla cəngə durmuşam,
Döyüşdə haylara zəfər çalmışam,
Sabah xəbər çatar yurda çatmışam.

## QORU SAĞ CANI

Sən qoru sağ canı olmasın ağrın,
Canın ağrı tapsa özündən inci.
Özünə baxmasan sən səhv edərsən,
Çünkü canın ağrı tapar birinci.

Özünə güvənmə olsa sağ canın,
Bilmək olmur fələk yazan qərarı.
Çoxda ümid olma əldə varına,
Bil ki əldən çıxar dünyanın varı.

El,oba içində sən ol xeyirxah,
Uzaq ol hər zaman bədxah əməldən.
Özünə arxa bil hər vaxt obanı,
Bir gün bərkə düşsən el tutar əldən.

Doğru sözü yadda saxla,unutma,
Sən nəfsə başəysən olar can ağrın.
Hər yerdə ağılla xeyir iş tutsan,
Ömür boyu özün dərərsən barın.

## YOXDU KƏSƏRİ

Dəyişir bu dünya günbəgün yaman,
Ədalət həyatda çatammır dada.
Görünmür hardadır bəd işin sonu,
Deyən yox,günahkar kimdi dünyada,
Haqlını hər işdə tapır dərd,qada.

Dövran başçı seçir indi kütbaşı,
Kürsü tutan aşkar alır daş-başı,
Tanımır ələyri dostu,qardaşı,
Deyən yox,günahkar kimdi dünyada,
Əyrinin qiyməti yığdığı varda.

Baxan deyir dünya dönüb əksinə,
Başçı qulaq verməz haqqın səsinə,
Yurdsevər insanın dəyər şəstinə,
Haqsız haqqa cəza verər obada,
Deyən yox,günahkar kimdi dünyada.

İndi ədalətin yoxdu kəsəri,
Yazılmış qərarın olmur səməri,
Haqlının həyatı olub sərsəri,
Çətin çatar haqlı indi murada,
Deyən yox,günahkar kimdi dünyada.

## MƏNLİKSİZ

Tər-təmiz suyu da üfürüb içər,
Haram vardan ötürü əyri dost seçər,
Düz söz üstə eldə haqlıdan küsər,
Anadan çox istər hər zaman pulun,
Yad sözə aldanıb getməz el yolun.

Gündə daş-baş alır utanmır özü,
Qalıb hər adamın cibində gözü,
Guya başçı alır danlanır üzü,
Hər addım boş başın əyir qeyrətsiz,
Söyləməz haqq üçün düz söz cürətsiz.

İtirib vicdanın,şər atar haqqa,
El,oba içində çıxarır hoqqa,
Yekə qarın beldə dolanmır toqqa,
Nifrətə,bəd sözə laiq qeyrətsiz,
Eldə bivec ömür sürür şərəfsiz.

Görür elin gözü pisi,yaxşını,
Namərd tapar eldə acgöz tayını,
Həyalı qız gəlin pozmaz andını,
Bərkə düşər eldə bir gün qeyrətsiz,
Alar bəd cəzasın eldə mənliksiz.

## GÖRÜB YAZDIM

Bu həyatda görüb yazdım,
Düzə necə əyri deyim.
Xeyir şərə nökər olub,
Şərə necə mən əl verim.

Hara baxsam görürəm,
El-obada haqlı işsiz.
Haqsız haqqı salıb tora,
Əyri ağa, düzlük kəniz.

Haqsızlığın yoxdu həddi,
Duman,çəndi elin yolu.
Çoxu kasıb,azı varlı,
Özgə ərə gedir dulu.

Xəbəri yox,toxun acdan,
Acın qəlbdə dərd-qəhəri.
Əllərimiz hər gün işdə,
Zəhmətin yoxdu bəhəri.

Yoxa çıxıb haqq,ədalət,
Hər bölgədə başsız ağa.
Haqsız haqqa hakim olub,
Çarə gəzən baxır dağa.

Çıxıb əldən elin yurdu,
Namərd mərdə satqın dedi.
Kürsü tutan tələ qurdu,
Yurdu satan haram yedi.

Seçəmmirik doğru yolu,
Alçaq əllə tora düşdük.
Biz göz dikdik özgə ələ,
Qardaş,dostla pay bölüşdük.

Torpaq,sərvət bizimkidir,
Dövlət,varım yadın olub.
Yurdum düşüb özgə ələ,
Xəbis bizə duzaq qurub.

Bölgə qalıb yağı əldə,
Yoxdu hələ çarə dərdə.
Gərək olur kasıb cəngdə,
Vətən düşsə çətin günə.

Dünən nökər,bugün ağa,
Eldə hakim mənəm deyir.

Qoymur haqlı desin sözün,
Haqqa haqsız fərman verir.

Canımızda qorxu vardır,
Səs çıxaran cəza alar.
İndi düz söz demək olmur,
Haqsız haqqı həbsə salar.

Ağlın gücü pula çatmaz,
Kürsü tutan saymır eli.
Varlı yumur düzün ağzın,
Deyir durma fırla vəli.

Babaların sözün dandıq,
İtirmişik yolu tamam.
Mən keçərəm öz canımdan,
Türkəm yurddan ayrı durmam.

## ƏL ÇƏKMƏZ TÜRK OĞLU

Ya Rəbb söylə nədir günahım mənim,
Niyə haqsız yerə tora düşmüşəm.
Namərd mənə atdı cəngdə gülləsin,
Yurddan ayrı qalıb dara düşmüşəm.

Qalıb indi yada malım,dövlətim,
Özgə güclə haylar mənə çəkdi dağ.

Yağı haylar bizi aldı hədəfə,
Neçə dost,qardaş qalmayıbdı sağ.

Haya yurdu satan qəsd etdi bizə,
Neçə elim,obam düşdü didərgin.
Bizim başçı hay sözünə inandı,
Haylar silah yığdı,qurdu səngərin.

El,oba yurdunu zorla itirdi,
Əzabı çox olub yurdsuz ellərin.
Niyə dünya görmür düzü,haqsızı,
Yoxsa dünya görmür hayların felin.

Üz tutdu dindaşa güc aldı haylar,
Satın aldı özgə südün əməni.
Bizə tələ qurdu döyüşdə düşman,
Neçə kənd,bölgəmi tutdu erməni.

Hələ öndə durur hayla cəngimiz,
Qurtarar elləri xalq,ordum dardan.
Son döyüşdə bizə diz çökər haylar,
Əl çəkməz türk oğlu torpaqdan,yurddan.

Dağ Qarabağ azad olar yad əldən,
Ordum cəngə girsin biz zəfər çalaq.
Baş komandan fərman versin döyüşə,
Ucalsın Şuşada üç rəngli bayraq.

## SÖZ QƏHƏT OLUB

Bu nədir get-gedə görürük,düzü,
İnsanlar dəyişir,azalır hörmət.
Əvvəlki qayğılar bir yana qalsın,
Qohumlar içində baş tutmur söhbət.

Sanki yada dönüb eldə qohumlar,
Dünənki qəlb açan söz qəhət olub.
Azalır nur saçan insan sifəti,
Gündəlik haram var mərhəmət olub.

Azalır elsevər,xeyirxah insan,
Mənsəb olub indi alçağın varı.
Zəkalı başların azdı qiyməti,
Zəhmətkeş insanın yoxdu güzarı.

Ağıl pələng kimi salınıb tora,
Özgə süd əməndə insanlıq hanı.
Yurdsevər qərq olub ürəkdə dərdə,
Vahid görmək istər Azərbaycanı.

Sayılmır haqlının sözləri doğru,
Tükənir get-gedə nüfuzlu insan.
Ürəyim dərd çəkir insanlıq üçün,
Yadlaşır dost,qohum,dəyişir zaman.

## YURDA BAĞLIYAM

Vətən mənim qeyrət,hünər,həm gücüm,
Onunla bağlıdır öz könül dünyam.
Ölərəm mən yada olmaram möhtac,
Vətəndir ürəkdə mənim ilk sonam.

Ürəyin atəşi cövlan edir hey,
Bir ocaq çatmışam soyuqda dosta.
Baxıram zirvədən yurda,torpağa,
Ömür bəhrə verər eldə dost varsa.

Ən ülvi duyğular mənim həyatım,
Həyat yollarında tutdum el yolun.
Olmuşam yurdsevər insana arxa,
Ey mənim dostlarım haqqa dost olun.

Soy-kököm Ulutürk,yurda bağlıyam,
Durnagöz bulaqdan saf su içmişəm.
Qazandım ad-sanı öz zəhmətimlə,
Döyüşdə düşməni mən xar etmişəm.

Mənimçin haqq səsi günəş şəfəqi,
Həyat mənə olub müdrik bir qoca.
Olmuşam mən arxa bərkdə haqlıya,
Mənimsə mənliyim dağlartək uca.

## İBRƏT OLSUN HAYA

Eldə haqlı istər söz ixtiyarın,
Deyəcək günahın dayaz başların.
Desin kimdi bizdə dostu yanların,
El,oba əhv etməz yurd satanları,
Ağır cəza çəksin gərək canları.

Vardır torpaq altda zəngin sərvətim,
Keçər yurdçin cəngdə canım,qeyrətim.
Dayanıb arxada ana vətənim,
El oba əl üzməz torpaqdan əsla,
Xalqım qalib olar ağıllı başla.

Döyüş torpaq üstə,sərvət üstədir,
Düşmənin xislətin zaman göstərir,
Döyüşdə haqsıza tarix dərs verir,
Bəllidir dünyaya türkün hünəri,
Çağırır zəfərçin cəngə elləri.

Türklər bağışlamaz xəbis düşməni,
Bizdən əvvəl cəngə girdi erməni,
Çağırır döyüşə hər şəhid məni,
El,oba yurd üçün deyir can qurban,
Döyüşdə haylara türk verməz aman.

Sərvətdir xalq üçün hər qarış torpaq,
Candan artıq sayır el də vətəni.

Hər eldə şərəfdi şəhid hünəri,
Türk əsgəri yurdun keşik çəkəni,
El,oba döyüşdə dərs verər haya,
Türkə səngər olar hər dağ,hər qaya.

Ali Baş komandan əmr verdi cəngə,
Şanlı əsgər aman vermə haylara,
Atdığın hər güllə hədəfə dəysin.
Haylar üzün tutar sar dayılara,
Ümid edər dindaş olan daşbaşa,
Əlin açar cəngdə haylar dindaşa,
Tarix ibrət dərsi verər haylara,
Türkün gücü cəngdə çatar sarlara,
Xalq,ordu var ağır döyüşdə hayla,
Türkdən aman dilər dindaşı dayla,
Başçı, ordu, millət döyüşdə gücdü,
Gördük hayla dindaş cəngdə diz çökdü.
Türkün hünərini yad ellər gördü,
Haylar qanı görüb ayaq götürdü,
Türk ordusu zəfər çaldı döyüşdə,
Haylar çökdü yerə türklə görüşdə.
Türkün qərarına hay imza atdı,
Dindaş kölgəsində şandığa yatdı,
Haylar unutmasın acı illəri,
Tükənməz döyüşdə türkün hünəri,
Xəbis haylar cəngdə türkə diz çökdü.
Türkün hünərini yad ellər gördü,
Güvənməsin haylar cəngdə dindaşa,

Ağlı olan durmaz türklə savaşa,
Türkün gücü çatar hər vaxt haylara,
Türkün oxşarı var uca dağlara,
İbrət olsun axır döyüş haylara.

## GÖRDÜM ÖMÜR YOLUMDA

Bu uzun əzablı,ömür yolumda,
Neçə namərd gördüm haqqa tor quran.
Tanıdım bədxahı hər vaxt eldə mən,
Haqlı qoymaz əyri söyləsin yalan.

Dağıdır el varın əlaltdan əyri,
Zəhmətlə qazancın azdı dəyəri,
Özgə yarla keçir "xoşbəxt günləri",
Hər vaxt yad qohuma edər can qurban.

Kəndə gələn başçı əyriyə dostdu,
Düzə salam verməz arası yoxdu,
Haqlının düz sözü acgözə oxdu,
Bədxahın gözləri doymaz haramdan.

Yoxdu qayda qanun bizim bu kənddə,
Əyri başa keçir xeyirdə,şərdə,
Doğru düz söz deyir düşübdü dərdə,
Haqlıya ələyri atır şər,böhtan.

Bəd işdə acgözə əl tutar başçı,
Əyri hər vaxt tutar əlində qayçı,
Yüksək kürsü tutan olubdu payçı,
Başçı,əyri,yaltaq doymaz haramdan.
Neçə namərd gördüm haqqa tor quran,
Haqlıya ələyri atır şər,böhtan,
Haqlı qoymaz əyri söyləsin yalan,
Bədxahın gözləri doymaz haramdan.
Hər vaxt əyri edər elvarın talan,
Ayaq tutar amma yeriməz yalan,
Özünə qəsd edər bədcəza alan,
Elvarı talanmaz varsa haqq-divan.
Neçə namərd gördüm haqqa tor quran,
Əyri hər vaxt tutar düzü ayaqdan,
Haqlı əlin üzməz eldən,obadan,
Acgöz,əyri əlin çəkməz haramdan,
Elvarı talanmaz varsa haqq-divan.

## YOL GEDİR

Bu dünya yol gedir,demir hayana,
Eldə haqlı deməz yurda yanana,
Bədxah istər elin varı talana,
Dünya istər haqlı candan əlüzsün,
Haqlı naçar qalıb ayağa düşsün.

Dünya hər vaxt eldə düzə kəc baxıb,
El varın yeyənin əllərin sıxıb,
Haqlını hər zaman yandırıb-yaxıb,
Dünya bədxah üçün yarpaqtək əsər,
Haqlı naçar qalar bəxtindən küsər.

Dünya haqsız kəsər doğrunun yolun,
Dünya deyir hər gün canı az yorun,
Əyrilər el varın dağıdar oğrun,
Dünya istər bədxah ondan yarısın,
Haqlı sözün desə alar cəzasın.

Bu dünya tanımaz haqqsevər bəşər,
Əyrini çox istər qoynunda bəslər,
Namərdi hər zaman şər işdə səslər,
Dünya haqqı hədəf alar arxadan,
Dünyadır haqlını ilantək çalan.
Dünya istər haqlı candan əlüzsün,
Haqsızın önündə ayağa düşsün,
Dünya haqsız üçün yarpaqtək əsər,
Haqlı naçar qalar bəxtindən küsər.
Dünya istər bədxah ondan yarınsın,
Haqlı sözün desə alar cəzasın,
Dünya istər haqlı candan əlüzsün,
Haqsızın önündə ayağa düşsün,
Dünya haqqı hədəf alar arxadan,
Haqlı haqsız küsər taledən,baxtdan.

## CƏNGDƏ ZƏFƏR ÇALAQ

Türklə cəngə çıxıb torpaqçin haylar,
Çünki dünya görmür cəngdə haqsızı.
Dindaşı əl verib cəngdə haylara,
Qarabağ ürəkdə hayın ağrısı.

Özün haqlı sayır haqsız düşmənim,
Hayla cəngə durar Azərbaycanım.
Dərddən uzaq olsun hər elim-obam,
Vətənin yolunda qurbandır canım.

Türkün yurdu düşüb düşmən şərinə,
Türklə cəngdə haylar səslər dindaşın,
Qarabağ torpağın tutmaq istəyən,
Türklə cəngdə dindaş alıb daşbaşın.

Hayla cəngə duran güclü ordum var,
Xalqım arxa durar cəngə başlasın.
Yox olar ürəkdə kədərim,qəmim,
Ordum zəfər çalıb Şuşaya çatsın.

El yolunda yanım şamtəki hər vaxt,
Sən durub Şuşada vətən, yurda bax.
Qalib olub xalqım,ordum-əsgərim,
Yurda dönsün yurddan ayrı düşənim.

Qarabağ hər zaman Azərbaycandır,
Arxada qardaşı türk,Naxçıvandır.
Vətən oğlu oğuz türkün oğludur,
Hər zaman vətənə,xalqa borcludur.

## DEDİN ÜRƏKLƏ

Göstərdin zəhmətkeş insana qayğı,
Gördün bərkə düşüb tutdun əlindən.
El içində oldun sadə bir insan,
El sənə güvəndi düz əməlindən.

Eldə yaşlı,cavan sənə inandı,
Əldə ölçün oldu insaf və mürvət.
Kimi haqsız gördün düz qərar verdin,
Amalın hər zaman düzlük,ədalət.

Dünyanın əşrəfi,eloğlum Əşrəf,
Sanki göydən düşmüş yerdə tanrısan.
El yanında çıxıb uca ad-sanın,
Hər zaman qayğıkeş,aqil başçısan.

Cavan yaşda başçı oldun bölgədə,
Özünü tanıtdın eldə xeyirxah.
Dinlədin insanın arzu,niyyətin,
Gözündə yad oldu əməldə bədxah.

Artdı hər vaxt sənin hörmət,izzətin,
Hər yerdə düz sözü dedin ürəklə.
Qoymadın talansın elin sərvəti,
Dedin el yaşasın halal əməklə.

## ÇƏKİR YAXŞILAR

Sığal çəkdim qəmdən küsən qəlbimə,
Namərd səbəb oldu duman,çənimə,
Xabis hər vaxt həsəd çəkdi şənimə,
Niyə eldə çəkir dərdi yaxşılar,
Nədən hədəf olur zəkalı başlar.

Bəd işin yönünü kəsib durmuşam,
Eldə mən pisləri düzdə yormuşam,
Yaxşı işlə eldə ad-san qoymuşam,
Niyə hər vaxt dərd-qəm çəkir yaxşılar,
Nədən düzün yolu olur yoxuşlar.

Hər vaxt cəfa çəkdim haqqın yolunda,
Mən oldum günahkar işin sonunda,
Görünər bədəməl yaxşı donunda,
Elidə aldadar bəzən naxışlar,
Niyə hər vaxt çəkir dərdi yaxşılar.

Məni azdırmayıb əməldə yaddaş,
Hər işdə düzlərə mən oldum sirdaş,
El-oba sevməyən olmaz vətəndaş,

Yurd-yuva dərdini çəkir yaxşılar,
Haqqın yolun kəsir boz qaya, daşlar.

Səadət hey qaçır haqdan uzağa,
Hər insan ağılla gedər qabağa,
Hünərsiz üz tutmaz çox uca dağa,
Torpağa bağlıdır hər vaxt yaxşılar,
El-oba hər zaman haqqı alqışlar.
Düzün canı qurban yurda,oymağa,
Qeyrət gərəkdir türkoğlu olmağa,
Vətən oğul deməz canın güdənə,
Oğul gərək zərbə vura düşmənə,
Vətən torpağını qorumaq gərək,
Vətənin hər zaman biz qədrin bilək,
Ucaldaq şöhrətin hər vaxt vətənin,
Əroğlu türk çəkər yurdun keşiyin,
Torpağa bağlıdır hər vaxt yaxşılar,
Yaşayaq həyatda səadət görək.

## QARABAĞ AZAD OLDU

*(poema)*

Tarixə şərəfdir xalqsevər insan,
Kimin kim olduğun göstərir zaman,
Xalqa başçı olmaz hər adam yəqin,
Oxuyun tarixi siz diqqət verin,
Hər xalqa zəkalı insan gərəkdir,
Hər zaman hər işdə hünər çələngdir.
Zəka,hünər olsun gərək başçıda,

Xalq gücünə başçı əzər daşıda,
Xalqın tarixidir onun şöhrəti,
Xalqa gərək cəngdə ordu qüdrəti,
Başçının güvənci hər zaman xalqdır,
Hər xalqın hər zaman başçısı vardır.
Xalqa yol göstərir ağıllı başçı,
Millət dedi Heydər olsun başçımız,
Doğru yol tutarıq varsa ağlımız,
Bərkdə Heydər gəldi oldu başbilən,
Xeyir işlər gördü zorla,səbirnən,
Çətin işlər gördü yadla fəndinən.
Bizlər yaxşı işə məhəl qoymarıq,
Hər işdə hər zaman fikrə dalarıq.

Bizdə ümid qalır yenə Heydərə,
Elin bəd günündə bir çarə görə,
Bu xalq,bu millət xoş gün görə bəlkə,
Bizlər yada baxıb ibrət almarıq,
Əltutub biz haqqa arxa durmarıq.

Bizdə ata,baba birlik az olub,
Hər vaxt bədxah iş tutan öndə durub,
Ağlı olana haqsız zərbə vurub,
Bizlər tarix boyu əltutduq yada,
Vətən,yurdsevəri qoymuşuq darda.

Bizlər yenə yaman dərdə qalmışıq,
Hayla cəngdə canı oda salmışıq,

Bizlər qələt edib axçiq almışıq,
Hissə,tamah gücə yurdu vermişik,
İndi hayla cəngdə dərdə düşmüşük.

Zaman gəldi Heydər köçdü dünyadan,
O,ümid istədi İlhama xalqdan,
İlham xalqda inam,dözüm istədi,
O,neçə il xalqa haqq sözün dedi,
Hər yerdə pay olmaz dedi torpaqdan,
Vaxt gələr qovarıq hayları yurddan,
Bizdən haylar vaxtsız döyüş istədi,
Cəngə qədər haylar bədfənd işlətdi,
Neçə kəndi qəfil tutdu ataşə,
Biz də çox vaxt nahaq getdik güzəştə,
Dünya bizi hayla cəngə qoymadı,
Haylar cəngə qalxdı bizi saymadı,
Ölkənin başçısı İlham gözlədi,
Hər ölkənin başçı sözün izlədi,
Ölkədə yaratdı qüdrətli ordu,
Ordusuz müşküldür qoruyaq yurdu,
Bizdə məqsəd oldu sülhə can atmaq,
Hayları döyüşsüz yurddan çıxartmaq,
Uzun illər haylar qəsd etdi yurda,
Bizi gücsüz sayıb gəzdi Şuşada.

Yəqin dərdə çarə qılar başbilən,
Hayla cəngə durduq ordu,elinən,
Cəngdə zəfər çalaq qüvvə,elminən,

Bizlər şəhid versək alaq qan,qisas,
Çıxsın Qarabağdan haylar saxlar yas,
Başqa çarə yoxdu bərkdə bizlərə,
Güzəşt etmək olmaz hay kənizlərə,
Yoxsa cavan nəsil bizi qınayar,
Bizi ömür boyu fərsiz anlayar,
Qoymayaq gənc nəsli bədxah günlərə,
Vətən candan artıq olub türklərə,
Türkün tarixi var şanlı,şərəfli,
Türklər yadla cəngdə olub hünərli,
Türkün tarixi var şanlı,şərəfli,
Dünya türkü hər vaxt cəngdə görübdü,
Türklə cəngə girən soyun söyübdü.
Türkün torpağına gözdikən düşmən,
Alacaq bədcəza ordudan,eldən.
Dünya görür türkün haqlı olduğun,
Yadlar cənglə istər tutsun türk yurdun.

Xalq,millət istədi yurd azad olsun,
Hayla döyüşə xalqla ordu dursun,
Möhtəbər Məclisdə İlham haqq dedi,
Haylara dindaşı biraz döz dedi,
İlham hər vaxt səbrlə xalqı dinlədi,
Məqsəd nədir haylar əsla bilmədi.
Ölkənin qüdrəti gücə bağlıdır,
Millət anladı ki,İlham haqlıdır,
Xalqa çətin gündə başçı gərəkdir,
İnsana güc verən canda ürəkdir,

İlham güvəndi dost,qardaş türkə,
Dedi vaxtdı gərək biz girək cəngə,
Haylar inanmadı türk zəfər çala,
Döyüşdə hayları it təki qova,
Ali Baş komandan İlham əmr verdi,
Ordu dayanmasın bir addım dedi,
Qoymarıq göz açsın cəngdə hayları,
Girməz döyüşə hayın sar dayları.

Türklər aman verməz hayla döyüşdə,
Türklər haqqı istər yadla görüşdə,
Türkün başbiləni hissə qapılmaz,
Yadların əlində can oda atmaz,
Vətənçin türk candan keçər uf deməz,
Yağının önündə güzəştə getməz,
Türkün mənliyi var sınar əyilməz,
Yadlar daha türkdən torpaq istəməz,
Türklər hər vaxt yurd üçün cəngə girər,
Türkə torpaq,vətən candan artıqdır,
Torpaq türklər üçün həyat,varlıqdır.
Türkün tarixi var şanlı, şərəfli,
Türklər yadla cəngdə olub zəfərli,
Xalqımız orduya güvəndi cəngdə,
Gərək olan güclə əl tutdu bərkdə,
Qarabağ döyüşdə oda tutuldu,
Bizlər zəfər çaldıq yurd azad oldu,
Ölkə bayram etdi xalq nəfəs aldı,
Dünya gördü türk yurdu türkə qaldı,

Xalq,millət inandı İlhama hər vaxt,
Cəngdə qalib olduq hünərə sən bax!
Ölkənin başçısı düşündü xalqı,
Gərək xalqa çatsın ölkənin varı,
Tarixə yazıldı İlhamın adı,
Hər vaxt bəhrə verər xalqın muradı.

## SƏNLƏ ÜLFƏTİM

Tanıdım mən səni bir yaxşı dostla,
Sanıram həyatda əhli-hal səni,
Görməsəm cismini neçə gün,həftə,
Anıram inanki yad edib səni.

İnsana xoş gəlir sənin ülfətin,
Bilirsən qədrini doğma yurd,elin,
Könlümə ruh verir hər vaxt söhbətin,
Yaradan pürkamal xəlq edib səni.

Deyirsən hər sözü yerli-yerində,
Hər sözün hecası düzdü dilində,
Sayılır soy-kökün hər vaxt elində,
İlahi xoşəməl yaradıb səni.

Cəbrayıl öz yurdun ürəkdən sevər,
Elinə hər zaman səadət dilər,
Yurd üçün döyüşdə öz canın verər,
İnanki unutmaz oba,el səni.

Sədayam deyərəm hər sözün düzün,
Olmusan elsevər,söz qanan özün,
Ağdı el içində hər zaman üzün,
Bu yurda bəxş edib yaradan səni.
İstərəm yüz yaşa,unutma məni.

## HAQQ İSTƏRƏM

Bir zaman əlçatmaz zirvə idim mən,
Yurdda Murovtək bir dağdım onu bil,
Zorla yad gücünə düşdüm aralı,
Qəlbdə dərdim ümman olub onu bil,
Dünya görür düz sözüm yalan deyil.

Tarçı qardaş çalma "Şur"u bəm üstə,
Bülbül oda yanar gül həvasində,
Nə vaxtdı qalıbdır qulağım səsdə,
Qəlbdə dərdim ümman olub dünya bil,
Bilirəm yadlar məni sayan deyil.

Yolun üzü indi bərkə, daradı,
Sellər coşdu sel Saranı apardı,
Cavan yaşda saçım vaxtsız ağardı,
Qəlbdə dərdim ümman olub dünya bil,
Bilirəm özgə mənə yanan deyil.

Türkoğluyam hər vaxt haqqı istərəm,
Haqqa qəsd edənə güzəşt etmərəm,

Yurdçin yəqin hayla cəngə girərəm,
Qəlbdə dərdim ümman olub dünya bil,
Türk elləri dost tək gələr haya bil.

İnan cəngdə haya zəfər çalaram,
Türk adına şanlı tarix yazaram,
Cəngə hazır ordum fərman gözləyir,
Ali Baş komandan yadı izləyir,
Əmr verdi Ali Baş komandan cəngə,
Qoymayın hay qaçsın tutun yol,döngə,
Ali Baş komandan cəngi izlədi,
Xəbis haydan döyüş sirrin gizlədi,
Ordum hər vaxt getdi cəngdə irəli,
Haylar naçar qaldı qaça bilmədi,
Ordumuz cəbhədə haya dərs verdi,
Hər döyüşdə düşmən canlar itirdi,
Qırx dörd gün davam etdi cəngimiz,
Döyüşdü şanlı zabit,əsgərimiz,
Qarabağ qurtardı düşmən əlindən,
Hay aman istədi türkün dilindən,
Əsgər əldə bayraq Şuşaya çatdı,
Türkün qərarına hay imza atdı,
Cəngdə zəfər çaldı xalqımla ordu,
Qarabağ Azərbaycan,türk yurdu,
Alqış,Ali Baş komandan var olsun,
Vətən deyir ordu keşikdə dursun.

## TAMAH DAŞI

Biz göz açıb bunu görmüşük düzü,
Tamah bizə hər vaxt olubdu yengə.
Ələyri el varın əlaltdan yeyib,
Doğrunu bəd işdə salıbdı cəngə.

İbrət götürməsək elin sözündən,
Məsəl var ki artıq tamah baş yarar.
Acgözün yedəyi tamah əlində,
Tamah üstə acgöz bəd cəza alar.

Çəkər hər vaxt tamah çoxun bəd yola,
Acgöz gözün dikər haram sərvətə.
Adam var tamahdan əlüzməz əsla,
Güvənər ələyri bərkdə rüşvətə.

İndi çoxu gözün dikib harama,
Tamah qoymur zəhmət çəkib dolana.
Acgöz deyir haqlı çəkil bəd yoldan,
Haram varla özgə kəniz saxlama.

Fələyin bəd oynu tapıbdır bizi,
Düzü bərkə salar,əyriyə dəyməz.
Verər dərdi-qəmi hər vaxt doğruya,
Əyriyə dost olar haqlını sevməz.

Fələyin hər işin göstərir həyat,
Haqlı haqsız olur,əyri də haqlı.
Baxıram tarixə görürəm özüm,
Haqlının olubdu sinəsi dağlı.

Haram var dost edib eldə çoxların,
Kimdə yoxsa tamah adlanır fərsiz.
Tamah el-obada sayılmaz hünər,
Talayır el varın hər vaxt şərəfsiz.

## ALQIŞ XALQA, BAŞÇI, ORDUYA
*(poema)*

Zaman mənə cəza verdi dərdini,
İtirdim hayla cəngdə yurd,kəndimi,
Deyib haya satqın döyüş fəndimi,
Özgə güclə haylar mənə güc gəldi,
Yurdsuz haylar türkə yurddan çıx dedi.

Ömür-günüm mənə acı bibərtək,
Ordu yığaq haya torpaq verməyək,
Ordum zəfər çalar yurda biz dönək,
Özgə əllə haylar mənə güc gəlib,
Südü haydan olan haya sirr verib.

Elin yaman günü xoş gəlir yada,
Haylar qoşun çəkib bölgəyə,yurda,
Yoxdu əldə silah qalmışam darda,

Haylar cəngdə yadla mənə güc gəlir,
Qəfil cənglə haylar mənə dağ çəkir.

Araz çayı neçə ildi bulanıb,
Xan Çinarlar yurdda oda qalanıb,
Qara telim cavan yaşda ağarıb,
Özgə əllə haylar mənə güc gəlir,
Qarabağ mahalı hayındır deyir.

Neçə bölgə,kəndi tutubdu haylar,
Çünki haya arxa durub sardayılar,
Qarabağ,Şuşamız ordu haraylar,
Şəhidlərin ruhu bizi çağırır,
El-oba yurduna güllə,od yağır.

Neçə dəfə haylar türklə cəng edib,
Çox da yurdsuz haya türk torpaq verib,
Türklər qonşu haya çox güzəşt gedib,
Haylar yenə türklə cəngə çıxıbdır,
Özgə güclə haylar qəsdə yatıbdır.

İlk döyüşdə haylar bizə güc gəldi,
Bu vaxt cəngdə haya bizlər uduzduq,
Hay tutdu hər yolu,bölgədə bəndi,
Haqsız haylar cəngdə yada güvəndi,
Tutdu Qarabağı dedi mənimdi,
Möhtəbər Məclisdə haqlı mən oldum,
Qərarda yazıldı hay haqsız oldu,

O zaman yox idi güclü ordumuz,
Yararsız idi hər silah,qurğumuz,
Başçımız çətində xalqa güvəndi,
Xalq önündə hər vaxt haqq sözün dedi,
Düşmən arxalıdır bizi eşitmir,
Haqsız haylar hökmə güzəştə getmir,
Bizim çarəmiz var ordu yaratmaq,
Hayla cəngə durub məqsədə çatmaq,
Neçə illər keçdi cəngə durmadıq,
Haya qəsdən haqlı zərbə vurmadıq,
Möhtəbər Məclisdə başçımız dedi,
Biz haqlıyıq hər vaxt sözün yeritdi,
Başçı gördü dünya haya çıx demir,
Başçımız haylara güzəştə getmir,
Ali Baş komandan əmr verdi cəngə,
Bacarmaz hayla yad bizimlə cəngdə,
Azərbaycan ordusu döyüş qurdu,
Haylara çox ağır zərbələr vurdu,
Hayla qırx dörd gün çəkdi cəngimiz,
Yağı əldən azad oldu bölgəmiz,
Şanlı əsgər bayraq taxdı Şuşaya,
Hər zaman şərəflə vətən sən yaşa,
Azərbaycan haya göz dağı çəkdi,
Cəngdə xalqa güclü ordu gərəkdi,
Haylar gördü türkün gücün diz çökdü,
Haylar məğlub oldu göz yaşı tökdü,
Türk qərar çıxartdı hay imza qoydu,
Haylar türk önündə boynunu burdu,

Dünya gördü hayın haqsız olduğun,
Dedi haya cəngə haqsız durduğun,
Dünya gördü Azərbaycan haqlıdır,
Hayların hər sözü hər vaxt yalandır,
Haylar türklə cəngə durmasın gərək,
Ummasın haylara biz torpaq verək,
Özgə güclə haylar hər vaxt cəng edib,
Türklər cəngdə hayın bəddərsin verib,
Haylar bizlə cəngə durammaz daha,
Çatammaz məqsədə can oda yaxa,
Türklə şan hayların dostluğu tutmaz,
Türklər haya daha heç vaxt inanmaz,
Haylar özgə güclə cəngə durmasın,
Türk yurdunda kəniz təki dolansın,
Azəri-türk ordusu zəfər çaldı,
Üçrəngli bayrağım yurdda ucaldı,
Dönər Qarabağa doğma el,oba,
Yenə həyat qurar el görər səfa,
Xalq,millət orduya başçı gərəkdir,
Cəngdə zəfər çalmaq şərəf,hünərdir,
Ali Baş komandan hər vaxt var olsun,
Tanrı ömür versin yüz yaşa dolsun,
Xalq,millət orduya başçı gərəkdir,
Cəngdə zəfər çalmaq şərəf hünərdir,
Alqış deyək xalqa,orduya hər vaxt,
Xalq,millət,orduda hünərə sən bax,
Vətən torpağına sipərdir ordu,
Qoruyar hər zaman vətəni,yurdu.

## CƏNGDƏ ZƏFƏR BİZİMDİR

*(poema)*

Zaman məni haqsız saldı dərd-sərə,
Haylar çəkdi məni qəfil cəngə hey,
Fələk mənə yağı oldu,haya dost,
Dərd-qəmim qəlbimdə olub qırıq ney,

Talan edir yağı mənim varımı,
Sönməz közüm qalıb yurdda qor altda.
Mən vətənə neçə şəhid vermişəm,
Elim yurddan ayrı qalıbdı darda.

Çəkər yurd qəmini mənlə qəlb yarım,
Boran olub bahar fəsli ömrümə.
Dodaqlarda gülüş yerin qəm tutub,
Yurd həsrəti yaman dərddi könlümə.

Haqlı sözüm dağ çəkir özgə cana,
Oğul,qızım yurddan ötrü cəng edir.
Bir vaxt haydan alar şəhid qisasın,
Yurddan əl üzmərik oğul,qız deyir.

Mən bilirəm kimlər qənimdi haqqa,
Xalqım əlin çəkməz yurd Qarabağdan.
Doğru sözü üzə deyən haqq mənəm,
Ordum yurdu azad edər yağıdan.

İlk döyüşdə haylar bizə güc gəldi,
Haya arxa duran yadı unutduq,
Hay tutdu hər yolu,hər yerdə bəndi.
Biz də cəngdə hayla-yada uduzduq,
O zaman yox idi güclü ordumuz,
Yararsız idi hər silah,qurğumuz,
Haqsız haylar cəngdə yada güvəndi,
Haylar dedi Dağ Qarabağ mənimdi,
Möhtəbər Məclisdə haqlı mən oldum,
Yazılan qərarda hay haqsız oldu,
Başçımız çətində xalqa güvəndi,
Xalq önündə hər vaxt haqq sözün dedi,
Düşmən arxalıdır bizi eşitmir,
Haqsız haylar haqqa güzəştə getmir,
Bizim çarəmiz var ordu yaratmaq,
Hayla cəngə durub məqsədə çatmaq,
Neçə illər keçdi cəngə durmadıq,
Haya qəsdən haqlı zərbə vurmadıq,
Möhtəbər Məclisə başçımız getdi,
Biz haqlıyıq dedi sözün yeritdi,
Başçı gördü dünya haya çıx demir,
Başçımız haqsıza güzəştə getmir,
Ali Baş komandan əmr verdi cəngə,
Bacarmaz hay dursun bizimlə cəngə,
Xalqla güclü ordu dərs versin haya,
Əsgərə səngərdir cəngdə hər qaya,
Şanlı zabit,əsgər girsin döyüşə,
Aman verməsin hay bəd yola düşə,

Şəhid qanın alsın cəngdə haylardan,
Aman verme haya can al yağıdan,
Yurdsevər əsgərim dağ çəkdi haya,
Əldə bayraq tutub qalxdı Şuşaya,
Üç rəngli bayrağım yurdda ucaldı,
Yurdsevər əsgərim şanlı ad aldı.
Haylar gördü cəngdə bizlə bacarmaz,
Yağı ayaq tutub əldən qaçammaz,
Yağı cəngdə məğlub oldu,diz çökdü,
Kimin kim olduğun dünya da gördü,
Türkün qərarına hay imza qoydu,
Haylar türk önündə boynunu burdu,
Gəzəmməz şandığa türkün çölündə,
Qarabağ ağrısın çəkər könlündə,
Yurd qapısın hər vaxt haya bağlaram,
Yurda dönsün həyat qursun el,obam,
Vətən torpağını verməik yada,
Yurdsuz el,obanı qoymarıq darda,
Torpaq üçün türklər keçər canından,
Haylar təki qorxmaz cəngdə qanından,
Türkün varlığıdır ana vətəni,
Cəngə çəkər türklər haqsız düşməni,
Dünya şahid oldu türkün haqqına,
Tarixə kim baxsa düşər yadına,
Türklər yadla cəngdə zəfər qazanıb,
Türkün şərəfinə dastan bağlanıb.
Unutmaram hayla olan cəngimi,
Yurda kəc baxanın mənəm qənimi,

Neçə cəngə girib haylar elimlə,
Dərs vermişəm cəngdə haya əlimlə,
Xəbis haylar hər vaxt türkə kəc baxır,

Torpaq üçün canın yandırıb yaxır,
Vətən torpağını verməric yada,
Yurdsuz el-obanı qoymarıq darda,
Torpaq üçün türklər keçər canından,
Haylar təki cəngdə qorxmaz qanından,
Türkün varlığıdır ana vətəni,
Cəngə çəkər türklər haqsız düşməni,
Dünya şahid olub türkün haqqına,
Tarixə kim baxsa düşər yadına,
Türklər yadla cəngdə zəfər qazanıb,
Türkün şərəfinə dastan bağlanıb,
Türkün ordusu var sipər torpağa,
Cəngə durar başa güllə,od yağa,
Qarabağ Azərbaycan,türk yurdudur,
Vətənə,torpağa sipər ordudur,
Başçımız güvəndi xalqa,orduya,
Soy-kökü hər zaman bağlıdı yurda,
Vətənə,torpağa sipər ordudur,
Qarabağ Azərbaycan,türk yurdudur.

## ÇƏKİR ÜRƏYİM

Çətin yansın özgə mənim halıma,
Dərd əlindən fəryad edir ürəyim.
Çəkdiyim ağrıya yox şərik olan,
El-oba dərd-sərin çəkir ürəyim.

Düşübdü möhnətə el-obam mənim,
Yurd-yuva həsrəti olub həmdəmim.
Şamtəki hey tökür gözyaşın qəlbim,
Baş alıb bölgəmə gedir ürəyim.

Deməræm buna nə ömür,nə güzar,
Kim deyər qüssə-qəmim yolun azar.
Ayrılıq əlində qalmışam bezar,
Qəm üstə dil açan neydir ürəyim,

Yetən deyir dərd-kədəri sən də at,
Başqası tək yurdu yadından çıxart.
Al-ver elə dost,qardaşa yalan sat,
İstəsəm də yola gəlmir ürəyim.

Seyid Əli tənha gəzmə bu eldə,
Vaxtsız bəyaz olub başında tel də.
Çalış saxla qalan az ömrü əldə,
Dərdimə çox dözüb nərdir ürəyim.

## ƏL ÜZMƏ ELDƏN

Ey dost küsmə bəxtdən, əl üzmə eldən,
Kimdi haya arxa duran sən tanı.
Görmədim yurdsevər yada baş əysin,
Tanıdım əməldə yurdu satanı.

Keçsədə yetmişi nadanın yaşı,
Aldadır yad sözü ağılsız başı,
El-oba qeyrətin çəkəmməz naşı,
Qeyrətli eloğlu olar qurbanı.

Zəhmətin qoy olsun halal çörəyin,
Elin xoş növrağı olsun diləyin,
Qohum,dostun olar bərkdə gərəyin,
Candan artıq istə sən sev cahanı.

Dünyanın gərdişi hər vaxt bahar,qış,
Aqilə cahillər şər,böhtan atmış,
Namərd el varından istəyə çatmış,
Eldə sayma insan sən hər çatanı.

Dinc həyat istəyir bəşərin çoxu,
Bu dünya zülümdən görməsin qorxu,
Uca tut ad-sanı ey insanoğlu,
Qoru vətən adlı sən öz ananı.

## SÖZÜN QALACAQ

Köçər bir gün eldən ömür karvanım,
Ziyarət dağında gözüm qalacaq.
Həyatda yaşadım kədər,qəm yedim,
Görən son beşiyim yurdum olacaq?

Ömrün hər çağında yurd oldu sevgim,
Duymadı qəlb sevən öz yarım məni.
Eşqimə sadiqəm and içdim yurda,
Sevgi ocağında gözüm qalacaq.

Yurdsevməz adamı saymadım insan,
Elsevər insana mən arxa oldum.
Haqq yolun yolçusu çəkilir adım,
Bilirəm el-oba məni anacaq.

Olacaq dar qəfəs axır qismətim,
Təki yurda dönsün öz obam,elim.
İstərəm el mənə yurdsevər desin,
Yaz,yarat ay Səda sözün qalacaq.

## TUTUBDU KÖNLÜM

Nə vaxtdı qüssə,qəm əl üzmür məndən,
Yaman dəymə-düşər olubdu könlüm.
Toxunma gəl ona,üz tutar yada,
Bilki bulud təki dolubdu könlüm.

Yazmışam qəlbimə dilbərin adın,
Gül açar bir bahar arzu,muradım.
Eldə yalan çıxar yadın bəd sözü,
Göy gölün sonasın tutubdu könlüm.

Sevgi həsrəti də sınayır məni,
Candan çox istərəm qəlbim sevəni.
Səsləyir səadət cəfa çəkəni,
Hicranı dözümlə yorubdu könlüm.

Nur saçar baxanda yarın gözləri,
Can alır hər zaman şirin sözləri,
İstərəm biz gəzək çəmən,düzləri,
Hər səhər yol üstə durubdu könlüm.

Düşübdü dillərə sözüm,söhbətim,
Günəşə bənzəyir ürəkdə eşqim.
Pozulmaz ay Səda yarla düz əhdim,
Toy-büsat məclisi qurubdu könlüm.

## GÖZ DİKƏR XƏBİS

Vətənçin döyüşdə öz canın güdər,
Yurdsevər insana tor qurar iblis.
Haram varla istər eldə tanınsın,
Elin sərvətinə göz dikər xəbis.

Elin xoş günündə açılmaz eyni,
İsmətin itirmiş eldən utanmaz.
Yurdçin şəhid oldu neçə oğul,qız,
Şəhidə qeyrətsiz zərrəcə yanmaz.

Adam var bəd əməl onun peşəsi,
Doğruya kəc baxar pisləyər adın.
Namərdin sevinci düzün bəd günü,
Çəkər hər cəfasın özgənin,yadın.

Alçağın ülfəti düzlə tutammaz,
Doğru öndə getsə çəkər ayaqdan.
Hər sözü,xisləti tanıdır onu,
Hər zaman həyatda yaşayıb nadan.

## UNUTMAZ EL-OBA

Ürəkdə dərd-qəmim yurddan ayrılıq,
Yurdsevər oğluyam əzəldən elin.
Gözümdə canlanır yaşıl yamaclar,
Salıram mən yada əlvan güllərin.

Kəklikli,Turaclı,çiçəkli dağlar,
Səsləyir seyrinə hər zaman məni.
Nəğmətək çağlayır büllur bulaqlar,
Görürəm aləlvan dağı,çəməni.

Könlümü oxşayır xınalı Kəklik,
Dağların döşündən boylanır mənə.
Gözsevər Turaclar baxıb nazlanır,
Könül açan səslə deyir tərənə.

Anıram o güllü baxça,bağları,
Könülm çəkər müdəm yurdun həsrətin.
Əllərim zəhmətlə yaşadır məni,
Olubdu elsevər hər vaxt ülfətim.

Nə vaxtsa üzülsə dünyadan əlim,
Çıxmaram yadından mən doğma elin.
Gərəkdir vətənçin zəkalı insan,
El-oba unutmaz yaxşı əməlin.

## QARABAĞ AZƏRBAYCANDIR

*(poema)*

Baxıram tarixə olmuşam şahid,
Türkün torpağına yad olub qənim.
Döyüşə çıxıbdır türklə yad haqsız,
Yurdçin cəngdə şəhid verib çox elim.

Döyüşə durubdu hay haqsız mənlə,
Hissə-hissə çıxıb əldən varımız.
Yenə haylar yadla durub qəsdimə,
İndi Dağ Qarabağ canda ağrımız.

Zaman çəkib bizi nahaq sınağa,
Olmuşuq döyüşdə hər vaxt biz haqsız.
Özgə əlin verib qonşu haylara,
Mənlə cəngə duran olub günahsız.

Olmuşuq hər zaman haylara yaxşı,
Çətində tutmuşuq hayın əlindən.
Haya yurd vermişik türk torpağında,
Biz uzaq durmuşuq bədxah əməldən.

Haylar əlin verdi dindaşa hər vaxt,
Torpaqçin döyüşə durdu biz türklə.
Dindaşı güc verdi cəngdə haylara,
Qovuldu yurdumdan el-obam güclə.

Belə çatdı sona ilk cəngi hayın,
Neçə bölgə,kəndi güzəştə getdik.
İtirib bölgəni bəd cəza aldıq,
Amma hayla cəngin sonu var dedik.

Zaman aman vermir güc gəlim haya,
Haylar bölgə tutur əldə silahla.
Qalıbdı çarəmiz güclü orduya,
İstərik cəng çatsın sona barışla.

O vaxt bizdə kreslo üstə cəng idi,
Haylar üçün fürsət düşmüşdü göydən.

Cəngsiz tutdu haylar neçə bölgə,kənd,
Fərsiz başçı dedi nə çıxar cəngdən.

Xalq,millət bilirdi ümid kimədir,
Yenə çarə qaldı Ulu Heydərə.
Dinlədi o xalqı bərkdə ağılla,
Özün gərək bildi cəngdə ellərə.

Siyasət elmini bilməz hər adam,
Cəhd edib əməldə yol tapdı Heydər.
Ali Məclisdə o söylədi xalqa,
Xalq,millət düşünən haqq yolun gedər.

Ağıllı başçımız güvəndi xalqa,
Xalqın məqsədini anladı haqlı.
Xalq,millət məqsədə çatar bir zaman,
Gərək bizdə olsun ordu yararlı.

Sözün dedi xalqa ağıllı başla,
Gərək hayla cəngdə gedək güzəştə.
Tarix göstərər kim haqlı,kim haqsız,
Son qoyaq hayla cəngdə atəşkəsə.

Heydər imza qoydu haqsız qərara,
Xalqa üzün tutdu böyük ümidlə.
Möhtəbər Məclisdə qəraryazıldı,
Lakin haqsız idi sübut,dəlillə.

Ulu Heydər xalqa inandı hər vaxt,
Amma vaxtsız köçdü həyatdan əfsus.
Xalqa gərək oğul cəngi görmədi,
Eldən getdi Ulu Heydər-Dağ Yunus.

Cavan başçı İlham seçdi haqq yolun,
Hər vaxt ağıl,elmlə haqq yolun getdi.
Düşündü hər zaman xalqın həyatın,
Haqsız haya bəzən güzəştdə etdi.

Zaman güc,əl verir cəngə girək biz,
Gərək hər vaxt bilək hər işin günün.
Cəngə girmək olmaz güclü ordusuz,
Vermək olmaz bada gənc nəslin ömrün.

Möhtəbər Məclisdə biz haqlı olduq,
Haylar haqsız oldu çıxmadı yurddan.
İllər ötdü haylar bizi saymadı,
Yurdu talan etdi, güc aldı yaddan.

İlham fərman verdi ordu yaratdı,
Xalqa sözün dedi torpaq bizimdir.
Zaman gərək bizə əl versin cəngdə,
Dünya haqlı deyir torpaq bizimdir.

Ali Baş komandan əmr verdi cəngə,
Haya aman verməz şanlı ordumuz.

Zabit, əsgər yurdçin keçər canından,
İstər azad olsun haydan yurdumuz.

Durmadı ordumuz getdi irəli,
Əsgər çıxdı əldə bayraq Şuşaya.
Alındı bölgə,kənd düşmən əlindən.
Qırx dörd gündə zəfər çaldıq biz haya.

Haylar bizi güclü gördü diz çökdü,
Məğlub oldu haylar öz canın sökdü,
Zəfər çalıb qərar yazan biz olduq,
Haylara döyüşdə biz zərbə vurduq,
Qarabağ Azərbaycan türk yurdudur,
Yurda sahib hər zaman xalq,ordudur.

Qarabağ qurtardı hayın əlindən,
Daha həsrət qalmaz oba,elindən,
Verməzik türk yurdun əsla biz haya,
Dönər yurda həyat qurar el,oba,
Neçə cəngdə haylar türkə diz çöküb,
Türkə əsir düşüb göz yaşın töküb,
Hayın haqqı yoxdu türklə dost ola,
Xəbis haylar türklə getməz düz yolla,
Axır döyüş ibrət olsun haylara,
Qarabağ haylara olsun dərd,qada,
Haya zəfər çaldıq gördü bu dünya,
Alqış!Alqış! xalqa,başçı,orduya,
Yurda sahib hər zaman xalq,ordudur,

Güclü ordu yoxsa, yad tutar yurdu,
Alqış!Alqış! xalqa,başçı,orduya,
Qarabağ Azərbaycan türk yurdudur,
Yurda sahib hər zaman xalq,ordudur.

## TÜRKLƏ CƏNGƏ DURMASIN

Fikir çəkir məni hər vaxt bölgəmə,
Duracam gücümlə hayın cənginə.
Mənə haqsız yerə sən qaçqın demə,
Mənə özgə güclə hay zərbə vurdu,
Tutdu özgə güclə bölgəmi,yurdu.

Dindaşı əl verdi hayla cəngimə,
Yağı divan tutdu bölgə,kəndimə,
Başçımız aldandı hayın felinə,
Yad südəmən başçı cəngə durmadı,
Hayla döyüş üçün ordu qurmadı,

Bizdə kürsü tutan cəngə durmadı,
Yurddan ötrü canın bərkdə yormadı,
Hələ o vaxt bizdə ordu olmadı,
Haylar özgə güclə döyüşə girdi,
Yad südəmən cəngdə haya sirr verdi.

Türkün torpağından əl çəkmir yağı,
Sönüb yurdda indi həyat çırağı,
Qalıb el-obasız ziyarət dağı,

Güc yığıb döyüşə duracam hayla,
Alacaq bəd cəza dindaşı dayla.

Neçə dəfə türklə cəngə durub hay,
Cəngdə haya əlin verib dindaş day,
Cəngdə türk önündə diz çökdü hay,
Cəngdə türkə qalib olammaz haylar,
Məğlub haylar yenə dindaşı haylar,

Daha türklə cəngə durammaz haylar,
Türkün gücün gördü dindaş dayılar,
Yadlar cəngə dursa hay yurdsuz qalar,
Türkün torpağından əl çəksin haylar,
Torpaq üçün yadla türk cəngə durar.

İllər keçdi haylar yurddan çıxmadı,
Yazılan qərara haqlı baxmadı,
Haqsız hay yurda bizi buraxmadı,
Dedik çatar haya düz qərar bəlkə,
Haylar özgə güclə güvəndi cəngə.
Sona yetdi bərkdə güzəşt,səbrimiz,
Hayla qərar oldu yurdda cəngimiz,
Haylar inanmadı biz duraq cəngə,
Ali Baş komandan əmr verdi cəngə,
Ordu dayanmadı bir addım belə,
Döyüş bacarmadı hay oldu kölə.
Şanlı əsgər,zabit keçdi canından,
Asıldı üçrəngli bayraq Şuşadan,

Haya zəfər çaldıq qırx dörd gün cəngdə,
Qırx dörd günlük cəngdə tutuldu bölgə,
Qalmadı hayların izi bölgədə,
Azad oldu xəbis haydan yurdumuz,
Xalqla zəfər çaldı cəngdə ordumuz.
Yazılmış qərara hay imza qoydu,
Hay dedi qərara etiraz yoxdu,
Alqış xalqa,başçı,orduya cəngdə,
Yenə həyat çağlar yurdda,bölgədə,
Qarabağ Azərbaycan türk yurdudur,
Torpağın sahibi xalqla,ordudur.

Qarabağ Azərbaycan türk yurdudur,
Haylar türklə cəngə durammaz daha,
Özgə güclə haylar bizlə cəng etsə,
Xəbis haylar ayaq qoyammaz yurda,
Türklə hayın tutmaz dostluğu əsla,
Xəbis hay yaşamır ağıllı başla,
Hər vaxt haylar türklə cəngə çıxıbdı,
Cəngdə türkə dünya haqlı baxıbdı,
Xəbis hay yaşamır ağıllı başla,
Türklə hayın tutmaz dostluğu əsla,
Haylar türklə cəngə durammaz əsla.

## TÜRKÜN MƏRAMI

Yurd vermişik yurdsuz haylara bir vaxt,
İndi bizlə cəngə durub haya bax.
Mənə səngər olub hər qaya,hər dağ,
Arxalı hayla mən döyüşə girdim,
Qoymadım yurddan çıxsın haqlı elim.

Elə bil bəxt yazan qara bəxt yazıb,
Eldə haqqa qəsdçin fərman yazdırıb,
Bizi doğru yoldan özgə azdırıb,
Arxalı hayla mən döyüşə girdim,
Cəbhədə döyüşən sardayı gördüm.

İstərik ürəkdən yurdu,bölgəni,
Qoruyaq biz gərək yurdu sevəni,
Candan çox istərik hər vaxt vətəni,
Arxalı hayla mən döyüşə girdim,
Vətənçin döyüşdə mən şəhid verdim.

Başçımız hər zaman bizə yad oldu,
Yurdsevər oğul,qız cəngdə can qoydu,
Satqın əllə varım talan olundu,
Arxalı hayla mən döyüşə girdim,
Mənə zərbə vuran satqını gördüm.

Elin haqlı sözü bizlərə dərsdi,
İnsanda hər zaman qeyrət gərəkdi,
Əldən çıxan torpaq ürəkdə dərddi,
Arxalı hayla mən döyüşə girdim,
Yurd üçün döyüşdə mən sinə gərdim.

Neçə yol qan,qada tapıbdır bizi,
İtirmişik neçə yurd,kəndimizi,
Zəngəzurdan çəkdik öz əlimizi,
Çatmadı döyüşdə başda düşüncə,
Yad sözə aldanıb son qoyduq cəngə.

Haqqı dedim ağız büzdü başbilən,
Məni haqsız saydı özgə südəmən,
Yasaq olar desək qonşuya düşmən,
Arxalı hayla mən döyüşə girdim,
Özümü döyüşdə arxasız gördüm.

Türkoğluyam yurddan əl üzmərəm mən,
Mənlə döyüşdə güc gələmməz düşmən,
Güc yığar cəngçin eldən,obadan,
Qurtarar el,oba yəqinki dardan,
Tarixin yaddaşın oxusun bəşər,
Hayların əməli olub böhtan,şər,
Dünya haqlı görür cəngdə türkləri,
Haya qalib olar türkün elləri,
Türkün məramıdır hər vaxt ədalət,
Hər vaxt türkdə olub sözə sədaqət.

## GÖSTƏRİR ZAMAN

Hər zaman söylə dost,sözün doğrusun,
İnanma haqsız sənlə cəngə dursun.
Həqiqət baş əyməz haqsız önündə,
Dost sənə əl tutar yaman günündə.
Sən uca tut hər vaxt eldə düz sözü,
Kim haqlı,kim haqsız seçər el gözü.
Gözəllik,həqiqət eldə danılmaz,
Hər adam dəryada qəvvas olammaz.
Məkirli əməldən sən uzaq olmaqçin,
Ağlın hər vaxt olsun əlində ölçün.
Səninlə dost olsa elsevər insan,
Sənlə cəngə dursa alçalar nadan.
Özünü gözlə sən xəbis,paxıldan,
Tutmasın çətində,bərkdə ayaqdan.
Çox da çılpaq demə çalış sözünü,
Cahil olan yerdə gözlə özünü.
Sən çalış məcazi söylə hər sözü,
Anlamaz mənasın alçağın özü.
Uzatma düz sözü itər mənası,
Yeməkçin yaşayan çətin qanası:
Özünü sən qoru çalış hər zaman,
Özünə dost tapar ağıllı insan.
Hər adam dost olmaz,eylə imtahan,
Aqil ibrət dərsin alar həyatdan.
Bizdən öncə deyib atalar sözün,
Hər adam ağıllı sanıbdır özün.

Elmi bilən gərək cahil olmasın,
Həqiqət yolunda şam təki yansın,
İdraka güvənsin,hissə uymasın,
Əqli olan gərək haqqı danmasın.
Ağıllı,hünərli olarsa insan,
El-oba gözündə ucalar inan.
Qeyrətli hər zaman olar yurdsevər,
Eldə yarın seçər könlündə bəslər.
Yarla ömür sürər bəxtiyar olar,
Əlvan güldən yara çələng bağlayar.
Vətənə bağlıdır qeyrətli insan,
Kimin kim olduğun göstərir zaman.

## KİMDİ DƏYƏR VERƏN

Dəyişib zəmanə başdan-ayağa,
Yoxdu qiymət verən indi sənətə.
Gərəksiz olubdu eldə ağıllı,
Başbilən deyilmir aqil xilqətə.

Doğru,düz sözümdü istəsən qına,
Paylarıq el varın biz ona,buna.
Alimlər elmini atıb bir yana,
Üz tutur çörəkçin çoxu qürbətə.

Az qalıb adama salam verənlər,
Al-verə bağlanıb qazanc güdənlər,

Eldə at oynadır müftə yeyənlər,
Qalmayıb güman da insaf,mürvətə.

Çoxları can atır kürsüyə,taxta,
Dəyişib soy-kökün sənətdə saxta,
Göz dikib məqama güvənir baxta,
İstəyir o çatsın haram sərvətə.

Azalıb ləl sözün qiymətin verən,
Sayılmır bölgədə haqq sözün deyən,
Bəyənmir el qızın özgə yar sevən,
Kimdi dəyər verən namus,qeyrətə.

## SƏN DEMƏ

Bu dünya sehribaz olub ay Cavad,
Əzəl haqqa qurmaz torun sən demə.
Yaxşını sınağa çəkir hər işdə,
Düzə yoxdu qəsdi onun sən demə,
Gəl öncə dünyadan yad söz sən demə.

Aldadar işvəsi,nazı insanı,
İnsan mələk sanar hər vaxt dünyanı,
Yaman dərdə salar eli-obanı,
Elsiz qoymaz Oğuz yurdun sən demə,
Canı dərdlə təkcə yordum sən demə.

Ağa qara deyər hökım-fərman verər,
Nədənsə hər işdə haqsızı sevər,
Yaxşı dərd əlindən canından bezər,
Quru yanar,yaşıl yanmaz sən demə,
Dünyanı əhdinə düz ilqar bilmə.

Dünyanın gözündə doğruluq yalan,
Bu dünya özüdür ədavət salan,
Yad əllə el varın hey edər talan,
Heç vaxt el içində dost yalan demə,
Görərik hər işi sadə sən demə.

Doğrunu bu dünya salar ayağa,
Hər yerdə kütbaşı çəkər qabağa,
Qoymaz bülbül qonsun güllü budağa,
Dünya haqqa əlin verər sən demə,
Dünya düzə güzəşt edər sən demə.

Guya ki,sürürük biz də ömür-gün,
Günhasız el-oba düşübdü köçkün,
Tanıdır bu dünya bizə soy-kökün,
Dünya tutar bizə yönün sən demə,
Düzəldər dəvənin boynun sən demə.

# "TƏRSİMƏ TÖRƏMƏLƏR" SİLSİLƏSİNDƏN

## 1. ÇATAR MURADA

Mən uymaram vara həyatım boyu,
Can atmaram nə şöhrət,nə ada.
Tanınar hər kəsin eldə soy-kökü,
Buna şahid olub hər vaxt el-oba.

Kimsə mənə düzlük üstə şər atsa,
Haram vardan ötrü ayaqdan dartsa,
Eldə alçaq odur aranı qatsa,
Haqlı bərkə düşsə el çatar dada.

Kim görüb doğrunu haram var yesin,
Haram var yığanın veribdi dərsin,
Cahil odur yad qızına yar desin,
Qeyrətli elsevər çatar murada.

## 2. MİSRA DÜZMƏRƏM

İdrakım öz varın bəxş edə mənə,
Ləl,gövhər sözlərin mənasın deyəm .
Təbim barın verə mən deyəm sənə,
Görəsən sənətdə dostum mən kiməm.

Sözüm dildə gəzər,özüm elsevər,
Dəryada hər üzən tapmaz ləl,gövhər,
El desə adıma yəqin yurdsevər,
Qalaram yadında bilki ölmərəm.

## 6. DÖYÜŞ YARADIM

Yurdum əldən çıxıb yoxdu xoş çağım,
Düşmənin hər sözü ağıdı,ağı.
Dərd əlindən bezib,yorulub canım,
Qalıbdı yad əldə Ziyarət dağı.

Qurbandı öz canım yurdun yolunda,
Gözüm həsrət qalıb Araz boyunda,
Namərdlik olmayıb mənim soyumda,
Olmadı əlimdə döyüş yarağı.

Yorulub el,oba dərd-qəm çəkməkdən,
Qova bilmir ağrı,acını qəlbdən,
Yurd eşqində mən də olmuşam Kərəm,
Sözlə misra yazdım aşıq sayağı.

## 7. YURDA HƏSRƏT QALANIM

Dəyişər amanı yəqin dövranın,
Tanınar yurdsevər,satqın xar olar.
İtirər yurdsatan əlindən varın,
El içində bir gün divan qurular.

Yurdu əldən çıxan dərdin əlində,
Yurd-yuva həsrəti bəyaz telində,
Hər zaman bayatı gəzər dilində,
Gərək can cəzasın alsın satqınlar.

Yurd-yuva ağrısı qəsd edər cana,
Yurdsuz igid çatmaz yüksək ad-sana,
Namus getsə əldən dərddi insana,
Haqsız olar haqqa böhtan atanlar.

## 8. SÖZÜN DOĞRUSU

Atalar deyibdir südü pak olan,
Yalan yerə içməz heç vədə anda.
Əlaltdan əläyri cibin dolduran,
Düzə tələ quran,qəsdə yatandı.

Görmüşəm həyatda alçağı mən də,
Salıb haqsız yerə düzü kəməndə,
Özü dil çıxarıb bərkə düşəndə,
Kim deyər əläyri eldən utandı.

Baş varki ağıldan yoxdu bir əsər,
Sədа düzlük sevər,əyri yol kəsər,
El-oba döyüşdə yəqin birləşər,
Yurdsevər öz canın oda atandı.

## 9. TANRI KÖMƏK DURSUN

Tanrı kömək dursun biz çalaq zəfər,
Ellər Qarabağa,yurda qaytsın.
Xalqla ordu cəngdə olar müzəffər,
Bizə düşmən hayın yurdu dağılsın.

Yurda həsrət dərdi qalmasın qəlbdə,
Şuşa yeni həyat qursun bölgədə,
Qurulsun toy,büsat hər yeni kənddə,
Hər yerdə üçrəngli bayraq ucalsın.

Ən böyük murazım elin xoş günü,
El-obanın yurda dönəcək yönü,
El-oba şərəflə sürər ömrünü,
Məclis qursun türk ellərin çağırsın.

## 10. MƏN DƏ OYANDIM

Mənim amalımdır yurdu qorumaq,
Borcluyam yurd üçün canımı yormaq,
Yurddan ötrü hayla döyüşə durmaq,
Zəfər çalıb eldə toy-büsat qurmaq.

Yurda kəc baxanla mən dost olmaram,
Cəngə girib yadın canın alaram,
Dostu unutmaram sadiq qalaram,
Yurda kəc baxanın gözün oyaram.

Qoymaram bir daha dərd çəksin canım,
Mənə oğul deyir Azərbaycanım,
Qoy tapsın səadət cənub, şimalım,
Qurbandır vətənə öz canım, qanım.

# SON DÖYÜŞDƏ ZƏFƏR TÜRKÜNDÜR

Hədəf olub hər vaxt yada sərvətim,
Sönməz odum qaldı yurdda qor altda.
Mən vətənə şəhid oğul vermişəm,
Yurda şəhid olub neçə yüz adda.

Bəxtim hər vaxt məni gözə tuş etdi,
Kipriklərim od ağrısı çəkdi hey.
Fələk mənə yağı oldu haya dost,
Dərd-qəmim qəlbimdə olub sanki ney.

Neçə bahar boran olub ömrümə,
Dodağımda gülüş dönüb dərd-qəmə,
Yurd üçün döyüşdə oldum arxasız,
Haylar özgə əllə güc gəlib mənə.

Bizdə vardır hayla dost olan alçaq,
Sirr satır əlaltdan hər vaxt haylara.
Bədəməl işinən əlləşir alçaq,
Güvənir dindaşı sarıdaylara.

Mən bilirəm haqqa qənimdi kimlər,
Gərək qisas alım cəngdə haylardan.
Doğru sözü üzə deyən haqq mənəm,
Xalqım çəkməz əlin yurd Qarabağdan.

Keçmir könül açan ömür-günlərim,
Fələk sanki mənə edibdi qarğış.
Yurd həsrəti yaman dərddi, a dostum,
Yoxdu qəlbdə sevinc,gözdə nur baxış.
Haqlı sözüm özgə cana dağ çəkir,
Yurddan əl üzmərəm türkoğluyam mən.
Uzaq düşüb yurddan neçə el-obam,
Gərək son döyüşdə zəfər çalam mən.

Elim gücün yığsın duraq son cəngə,
Son döyüş ölümdü haylara məncə,
Haylar ibrət alar son cəngdə türkdən,
Açar əl-ayağın haylar hörükdən,
Haylar can qurtarmaz türkün əlindən,
Nəslin kəsər hər vaxt haylar cənginən,
Türkün torpağından əl üzsün haylar,
Cəngdə haya yad olsun sardayılar.
Türkün varlığıdır vətən torpağı,
Cəngdə güc,silahdı türkün bayrağı,
Hər qaya,hər dağ cəngdə səngəri,
Zəfər çalar cəngdə türkün əsgəri,
Dünya görüb cəngdə türkün hünərin,
Türkü haqlı görür gözü bəşərin,
Türkün məramıdır hər vaxt ədalət,
Düşmənə nifrəti,dosta sədaqət.

## QƏZƏL

Yar bilmək istəsə nədir bədxah hal ürəyimdə,
Qoy bilsin muradım hələ qalıb kal ürəyimdə.

Mən ki çəkmişəm çox cəfa nazlı nigar yolunda,
Hələ vardır neçə arzum mənim lal ürəyimdə.

Artdıqca bəd günüm kədər öz yükün ağır tutdu,
Xoş günümə qələm çəkir qəm,məlal ürəyimdə.

Yar istəsə aşkar edim ona özüm sirrimi,
Tükənib həm gülüş,həm də cah-cəlal ürəyimdə,

Yar baxsın Sədanın halı indi tamam fənadır,
Vardır yarla görüş yenə bir xəyal ürəyimdə.

* * *

Yurd dərdimə bu dünyada yoxdu çarə edən hələ,
Yoxsa cahan yatıb qulaq vermir el hayıma gələ.

Nə vaxtdı zindan evində əriyirəm bir şam kimi,
Niyə bəşər görmür mənə haqsız hay qurub tor-tələ.

Mürgüləyir dövran özü qəm içində qalıb tənha,
Deyən dünya özü çəkir ağrı yükün şeytan əllə.

Baxan görür haqlı mənəm dünya susur kar-lal olub,
Türksoy el-obam olmayıb tarix bilir yada kölə.

Ürəyimdə vətən dərdi neçə ildir cana qənim,
İnanmıram dərdə dözən canım bir vaxt yurdsuz ölə.

El-obalar qoymaz yurdu qalsın yurdsuz,haqsız haya,
Cəbhə boyu türksoy ordum haqsız hayla durar cəngə.

Səda öz dərdinə axtar sən tapasan özün dərman,
Aman vermə türkoğlu yurdun keçsin özgə ələ.

## CƏNGDƏ ZƏFƏR BİZİMDİR

*(poema)*

Bizlər niyə Dədə Qorqud olmadıq,
Onuntək hər zaman yurda yanmadıq,
Vətən güvənc oldu laiq olmadıq,
Baxdıq özgə sözə yurdu unutduq,
Yadlara aldanıb yad əldən tutduq.

Tarix boyu yada olmuşuq hədəf,
Bizlər yada baxıb almadıq ibrət.
Yadlar sevdi xalqın,öz ana dilin,
Yurdçin dilənçitək uzatdı əlin.
Yada baxıb bizlər ibrət almadıq,
Vətən,ana dili bizə yad oldu.
Bizlərə yad oldu torpaq sevgisi,
Özgə sözü bizə şirin dad oldu.

Yurdsevər insana tələ qurmuşuq,
Bizlər özgə üstə cəngə durmuşuq,
Başçı əyri oldu aldatdı bizi,
Onun yar-sirdaşı özgə kənizi.
Xalqın zaman-zaman artdı dərd-səri,
Başçımız özgənin oldu nökəri.
Keçirdik özgəni başda otursun,
Önündə zəkalı ayağa dursun.
Ayıq başlı vardı tək-tək hər eldə,
Tələ qurub canın aldıq gədikdə.
Zaman keçdi bizlər olduq yurda yad,
Üz tutduq yad yerə özgə oldu şad.
Elsevər insana biz olduq yağı,
Eldən perik düşdü cavanlıq çağı.
Başçımız hər yerdə sözə güc verdi,
Özgəyə əl tutub ucalaq dedi.
Başçı özün xalqdan çox uca tutdu,
Böyük kürsü verdi yadı qudurtdu.
Bir vaxt özgə keçib başda oturdu,
Qorxmadı o,xalqın sərvətin sordu.
Dözməyib elsevər doğru söz dedi,
Özgəyə söylədi keçmə sən həddi.
Torpaqdan pay olmaz dinlə bu xalqı,
Bilki çox aldadıb bizləri yağı.
Bir zaman vermişik haylara torpaq,
Aldanıb biz dedik qonşu,dost olaq.
Unutduq xislətin bizlər hayların,
Səslədi bizlə cəngə sardayların.

Zaman bəd gətirdi olduq silahsız,
Haylar haqlı çıxdı biz olduq haqsız.
Haylara sardayı cəngdə güc oldu,
Bizi ala çəkib tor-tələ qurdu.
Bizi pərən-pərən gördü sardayı,
Bizlə son döyüşə çağırdı hayı.
Yurdsevər oğul,qız yadla döyüşdü,
Zora düşüb yurddan el-oba köçdü.
Bizdə kürsü üstə savaş gedirdi,
Hayla sarı yurda hücüm edirdi.
Bizdə qazanc oldu torpağı satmaq,
Hər döyüşdə məkrli məqsədə çatmaq.
Bizdə nə vaxt olub birlik bilən yox,
Bərkdə el varından sərvət yığan çox.
Yurdsevər oğul,qız cəngdə hünərdir,
Candan əziz hər vaxt ana vətəndir.
Yad sözünə bizlər hər vaxt inandıq,
Özgə əllə yurdda biz oda yandıq.
Tarixi unutduq biz dərs almadıq,
Haya güzəşt gedib dosttək dolandıq.
Qarabağ dərd-sərin çıxartdıq yaddan,
Qonşutək biz umduq yaxşılıq sardan.
Bizlər ayıq başa olmuşuq qənim,
Özgə əllə tora düşüb vətənim.
Kürsü tutan cəngə girməz vətənçin,
Canın fəda etməz oba,yurd üçün.
El varına tamah salan nə çoxdu,
Bədxah gözə hər vaxt düz,haqlı oxdu.

Hər oğul vətənçin can qurban etməz,
Vətənçin bəd gündə döyüşə getməz.
İnsan var yaşayır yeməkçin ancaq,
Nə gərək vətənçin yurdsatan alçaq.
El-oba arxadır başlı başçıya,
Elin yurdu gəlməz özgə qayçıya.
Elsevər oğul,qız cəngdə hünərdir,
Candan əziz hər vaxt ana vətəndir.
İnsan olmaz el varına kəc baxan,
Alçaq olar haqqa şər,böhtan yaxan.
Ağlı olan haqqı deyər hər zaman,
Ata-baba yurdun unutmaz insan.
İnsan hər vaxt başla düşünsün gərək,
Hər sözə əməldə düz qiymət verək.
Zəkalı düşünür hər vaxt ağılla,
Az adam yaşayır ağıllı başla.
Vətənin varlığı millətdir,xalqdır,
Ana dili gözü,varı torpaqdır.
Tarixə baxanda görərik yəqin,
Zəka silahıdır hər vaxt millətin.
Millətə zəkalı düz yol göstərən,
Vətənin hər zaman dərd-qəmin çəkən.
Vətəni ucaldar hər vaxt zəkalı,
Gərək hər vaxt başçı olsun ağıllı.
Oxusaq tarixi olmarıq naşı,
Ucaldar başçını ağıllı başı.
Başlı başçı xalqı bəd günə qoymaz,
Bəzən başçı olur ağıldan dayaz.

Vətən,millət doğru yolun itirər,
Xalq,millət tarixən yaman gün görər.
Görək nədir böyük səhvimiz bizim,
Hər vaxt yad söz üstə düşüb cəngimiz.
Aldanıb yadlara çox səhv etmişik,
Bizlər eldə yadı başçı seçmişik.
Yad əllə zəkalı yurddan qovulub,
Eldə haqqı deyən ağız yumulub.
Yurdsevər insana tələ qurmuşuq,
Eldə özgə üstə cəngə durmuşuq.
Başçı haqqı desə el deyər haqdı,
Haqq adına yalan demək günahdı.
Budur qardaş bizim böyük səhvimiz,
Neçə ildir yad əldədir bölgəmiz.
Zaman bizi çəkdi cəngdə sınağa,
Bizlə cəngə girdi sarla,haydığa.
Bu gün bizə haqqı deyir başçımız,
Dərdə çarə tapar yəqin ağlımız.
Başçı xalqı güvənc sayır əməldə,
Xalqla ordu hər vaxt gərəkdir cəngdə.
O,elmlə,ağılla ordu yaratdı,
Cəngdə zəfər üçün ilk addım atdı.
Başçımız millətə haqq sözün dedi,
Bəzən məqsəd üçün güzəştə getdi.
Möhtəbər Məclisdə haqlı biz olduq,
Axır haqsız hayla biz cəngə durduq.
Bərkdə gərək oldu dərin düşüncə,
Ali Baş komandan əmr verdi cəngə.

Xalqla,ordu hayla cəngə başladı,
Cəngdə yaman günə saldı daşnağı.
Şanlı əsgər,zabit cəbhəni yardı,
Üçrəngli bayrağı yurdda ucaltdı.
Şuşa,neçə bölgə,kənd azad oldu,
Cəngdə məğlub haylar sarla yas qurdu.
Yadın kölgəsində şandığa yatdı,
Türkün qərarına hay imza atdı.
Xalqım bayram etdi yurd azad oldu,
Haqsız haylar cəngdə sarla xar oldu.
Dönəcək bölgəyə,yurda el-oba,
Yenə həyat qurub görəcək səfa.
Qarabağ Azərbaycan türk yurdudur,
Torpağın sahibi xalqla ordudur.
Başçı İlham şanlı ad-sana çatdı,
Cəngdə ordu,başçı xalqı ucaltdı.
Tanrı ömür versin yüz yaşa dolsun,
Vətən,xalq içində üzü ağ olsun.
Türksoyludur vətən,yurda bağlıdır,
İnsanı ucaldan zəhmət,ağlıdır.
İlhamı hər zaman biz böyük görək,
Xalqın başçısına biz alqış deyək.
Tarixə düşəcək şanlı ad-sanı,
Şair yazsın xalqla,başçı dastanı.
Şanlı ordumuza biz deyək alqış,
Dünyanın özüylə türk də yaranmış.
Türkün soy-kökü torpağa bağlı,
Türkə silah olub düşüncə,ağlı.

Ana vətən türkə güvənc hər zaman,
Qurtarar vətəni döyüşdə dardan.
Türkün tarixi var şanlı,qüdrətli,
Əsgəri,zabiti şirtək cürətli.
Dünya görüb cəngdə türkün zəfərin,
Yaddaşıdır tarix hər vaxt bəşərin.
Türkün məqsədi var dünya var olsun,
Yer üzü düşmənə hər vaxt dar olsun.
Türkün məramıdır ədalət olsun,
Bəşər ordusuda keşikdə dursun.

Qarabağ Azərbaycan türk yurdudur,
Torpağın sahibi xalqla,ordudur,
Qırx dörd gündə cəngdə zəfər çalmışıq,
Tarixdə şərəfli dastan yazmışıq,
Yaşa Azərbaycan xalqı,ordusu.

## GÖRƏK SƏNƏTDƏ

Həyat yolun olub nə çox təzadlı,
Çəkib bərkə namərd hər yerdə səni,
Tutmusan haqq yolun hər vaxt ay Elbrus,
Tanıdıb qeyrətin mürtədə səni.

Döyünür vətənçin ürək sinəndə,
İdrakın bar verib misra düzəndə,
Fəxr edir el-oban səni görəndə,
Qoşa yarpaq dedin gördüm nər səni.

İdrakı naqislər büzdü ağzını,
Sıxmısan sinənə telli sazını,
Ucaltdı hər misra bal avazını,
Görmüşəm hər yerdə elsevər səni.

Bədxahlar hər işdə öndə durublar,
Doğruya hər eldə tələ qurublar,
Yurdsevər insana bədxah olublar,
Görmüşəm hər yerdə nərhünər səni.

Nə qədər böyükdür səndəki ürək,
Biz səni hər zaman sənətdə görək,
Sənətin gənclərə qoy olsun örnək,
Görürəm şeirdə hünərvər səni,
Çəkəmməz sınağa hər namərd səni,
Sənətin yolunda görüm nər səni,
Mən görüm hər zaman elsevər səni.

**10.01.2020**

## DÖRDLÜKLƏR

Dünya xali deyil qüssə,sevincdən,
Ömrün həm qarası,həm də ağı var.
Keçirik azadlıq yolunu biz də,
Bu yolun dərəsi,həm də dağı var.

Elə dərya var ki üzüb keçilməz,
Dərya da var şordu suyu içilməz,
Dərya adasında bitər cır qamış,
Bir kimsəyə gərək olub biçilməz.

Torpaq var ki əkib barın görərsən,
El-oba içində üzağ olarsan.
Torpaq var ki paslı dəmirdi sanki,
Yolunda il boyu canı yorarsan.

Zirvədən baş alıb gur çaylar axdı,
Keçərək düzləri ümmanda itdi.
Çiçək var üstündə bitdi sal daşın,
Tikan da var gülün yanında bitdi.

Tapılmır dünyanın sirrini açan,
De varmı uca şair Nizamidən.
Oxuyarsan hər vaxt ləl kəlamların,
Qoymazsan Xəmsəni yerə əlindən.

Çalışsan hər varı bir gün alarsan,
Cəhd eləsən çoxun yəqin alarasan,
Çox sərvəti təkrar almaq olsa da,
İtirsən vicdanı çətin alarsan.

Zəhmətin bəhrəsi şirindir-şirin,
Bir şairsən olsa idrakın dərin,

Yaşamaq hər kəsə gəlməsin asan,
Tanınar ad-sanın varsa əsərin.

Səpməsə öz nurun günəş torpağa,
Bağban cəfa çəkər baxammaz bağa,
Günəşsiz,yağışsız a dostlar Vallah,
Təbiət gül-çiçək sərəmməz dağa.

Quruldu toy-büsat zəfər eşqinə,
Bülbül nəğmə dedi sevindi hamı.
Alqış qopdu bülbül zilə çıxanda,
Qarğa dedi məndən alıb ilhamı.

Heç düşərmi nalbənd zərin eşqinə,
Nal onun gözündə sərvi gözəldir.
Nalı tərif edib söylədi nalbənd,
Gərəkdə insana zərdən əzəldir.

## MURADA ÇATSIN

Vətən anam,vətən yurdum,məskənim,
Candan əziz vətən qayğı çəkənim,
Vətən tarix boyu olub şöhrətim,
Boy artmışam ana vətən qoynunda,
Qurban olum bərkdə vətən yolunda.

İstəyimdir oğul olum vətənçin,
Yağı yadla döyüş qurum yurd üçün,

El-oba bəd gündə düşməsin köçkün,
Məramımdır hər vaxt vətən ucalsın,
Qoruyaq düşməndən vətən qalasın.

Savalan göz dikib Murov dağına,
Qiymət verək ata-baba ağlına,
Qardaş görüş verib bahar çağına,
Mən istərəm hər vaxt vətən ucalsın,
Eldə birlik olsun murada çatsın.

Təbriz,Bakı həsrət çəkir nə vaxtdan,
Azadlıq ummayaq talehdən,baxtdan,
Eldə birlik olsa yad düşər taxtdan,
Vətənə hay verər bərkdə oğul,qız,
Çatarıq məqsədə birlikdə yanlız.

## ZƏFƏR ÇALAR

Yaşadır ümidim məni dünyada,
Olsada yurd dərdim ağrı,möhnətim.
Qoymaram yurd qalsın namərd əlində,
Öz ağlım çətində gücüm,gərəyim.

Haylar həsəd çəkir hər vaxt yurduma,
Varlığım dağ çəkir bədxah gözlərə.
El-oba deyəndə mənə yurdsevər,
Namərd məni tutdu naqis sözlərə.

Yurdçin döyüşdə mən oğul itirdim,
Hayla cəngə girib neçə can aldım.
Qorxmadım ölümdən hayla döyüşdə,
Yurdsatan alçağın qəsdinə yatdım.

Bağlıdır torpağa türkün həyatı,
El-oba əl çəkməz torpaqdan əsla.
Türk eli güc yığır qursun son döyüş,
Haya zəfər çalar əldə silahla.

Türk elləri haydan alar qan,qisas,
Haylar məğlub olar türkə diz çökər.
Bəşər haya baxıb deyər haqq sözün,
Cəngdə haya haqsız,türkə haqq deyər.

## A DOSTUM

Vara tamah salan dostu neylərəm,
Sadiqəm mən təmiz bir ada dostum.
Can qurban eylərəm yurdsevər mərdə,
Tanrı mərdi kaşki yarada dostum.

Mən haqqın yolunda durmuşam sadiq,
Mənə dərd-qəm olub yurddan ayrılıq.
Alçağın əlindən çəkdim yamanlıq,
Qalmadım mən naçar darda a dostum.

Murazım insana olub yaxşılıq,
Yolumda tor qurub hər vaxt yamanlıq,
Acgözün istəyi olub harınlıq,
Bağlıyam ürəkdən yurda a dostum.

Dost dostdan güc alsa çətində qorxmaz,
Bədxah işdə dostun başı ağrımaz,
Yaxşı,yaman gündə dostlar ayrılmaz,
Bərk tutar əlindən dost darda dostun.

Sədayam hər zaman dosta sadiqəm,
İstərəm çəkməsin dostum qəlbdə qəm,
Dost istər dostuna dost olsun həmdəm,
Yetişsin hər işdə murada dostum.

## ODA QALANIR

Görməyə gözüm yox hər zaman əsla,
Eldə başçı işin görür daşbaşla.
Salıb yaman günə doğrunu əyri,
Baş-ayaq yol gedir düzün işləri.
İtirib çoxları elin,yuvasın,
Doğru getsin özgə eldə dolansın.
Haqsız bəd iş görür baha qiymətə,
Düzlük naçar qalıb gedir minnətə.
Saxtalıq sayılır indi düz əməl,
Yaşamaq hər yerdə olubdu cəncəl.
Baxan yox insanda ağıl,kamala,

Ağlın varsa çalış düşmə zavala.
İdrak,hünər indi olub gərəksiz,
Çünki eldə başçı olub məsləksiz.
Düzlük,mərdlik indi yaramır işə,
Kimin kim olduğu baxır gərdişə.
El varın talayan olub başbilən,
Haqlı söz deməyə gücün var dinlən.
İndi düzə arxa duran az olar,
Haram var yeyənin halı saz olar.
Ağlı olan eldə olub iş bilməz,
Sözün düzün deyən başa çəkilməz.
Gərək deyil indi ağıl,ləyaqət,
Quru sözdü dosta qalıb sədaqət.
Pislik xidmət edir şərə,nöqsana,
Yetişir ələyri yüksək ad-sana.
Kütbaş masqa taxır görür bəd işin,
Salır bərkə doğru sözün gərdişin.
Hər yerdə alçaqlıq yüksək ad alır,
Doğru əyri əllə oda qalanır.

## BƏHRƏ VERMƏZ

Pislik xidmət edir şərə,nöqsana,
Yetişir ələyri yüksək ad-sana.
Hər yerdə alçaqlıq yüksək ad alır,
Doğru əyri əllə oda qalanır.
Düzlük indi bəhrə verməz ağacdı,
Zəhmət çəkən hər vaxt vara möhtacdı.

Baxıb üzə rişxənd edir yaltaqlar,
Haram vara çatıb daş-baş alanlar.
Haqsız düzə gülür hər vaxt könlündə,
Başlı aciz qalıb haqsız önündə.
Sayılmır zəkalı indi obada,
Zəhməti bəhrə vermir gedir bada.
Bölgədə yurdsevər sayılır özgə,
Ona qənim olur qaranlıq döngə.
İtirib sadəlik mənasın indi,
Bilmək olmur indi həyalı kimdi.
Dilənçitək olub indi ar, namus,
Qayıtmaz düz yola gəlsə Dağyunus.

## ALÇAĞIN ƏMƏLLƏRİ

Tər-təmiz suyu da üfürüb içər,
Haram vardan ötrü dağ,dərə keçər,
Haqsızı özünə dost,qohum bilər,
Pulu əziz sayar qardaşdan,dostdan,
Alçağın adına yazılmaz dastan.

Acgöz daşbaş alar utanmaz özü,
Qalar hər gələnin əlində gözü,
Guya başçı alır danlanır üzü,
Baş əyir hər addım başçıya yaltaq,
Yalan deyir hər vaxt düz sözə alçaq.

İtirib vicdanın düzə şər yaxır,
Bakirə qızlara gözaltdan baxır,
Bəd yolda tələyə düşən axtarır,
Nifrətə,bəd sözə laiqdir alçaq,
Bədəməl ölsədə bəd ad qalacaq.

Allahdan yox qorxun haram yeyirsən,
Mən Quran əhliyəm sözdə deyirsən,
El görür ay arsız yüz don geyirsən,
Hər işi əlaltdan görür şərəfsiz,
Çoxdan ar,namusun atıb qeyrətsiz.

Görür elin gözü pisi,yaxşını,
Yabısan get axtar çöldə babını,
Həyalı qız,gəlin gözlər andını,
Bir gün mərd əlinə keçər qeyrətsiz,
Alçaq ağır cəza alar görərsiz.

# ŞAİR XALQIN OĞLUDUR
(poema)

## EPİLOQ

Zaman çəkdi yenə xalqı sınağa,
Haqsız əllə bizlər düşdük qınağa.
Xalqın dərdin çəkməz şairtək heçkəs,
Hər yetən verəmməz bərkdə xalqa dərs.
İstər xalqla-millət hər vaxt azadlıq,
Neçə əsr,qərinə yad əldə yandıq.
Millət haqlı olub haqqın istədi,
Özgənin yanında sözü keçmədi.
Millət durdu cəngə azadlıq üçün,
Göstərdi millətə yad hökmün,gücün.
Qeyrətli oğul,qız çıxdı meydana,
Ucaltdı gur səsin haqlı hər yana.
Bizdə başçı özgə sözün saydı düz,
Xalqın haqqın dandı başçımız sözsüz.
Qonşu haylar gördü bizi çətində,
Bizlə cəngə girdi silah əlində.
Haylar bizlə cəngə durdu yad əllə,
Tutdu neçə yurdu bədxah əməllə.
Dağıldı ittifaq zaman gücünə,
Hər zaman gərəkdir başda düşüncə.
Bizdə kürsü tutan xalqa yad oldu,
Haqlıya düz işdə tor-tələ qurdu.
Millət bərkdə güzəşt etdi düşmənə,

Haylar dedi yenə torpaq ver mənə.
Millətin yox idi hərbi qüvvəsi,
Qalmışdı yad əldə topu,gülləsi.
O zaman biz yaman günlər yaşadıq,
Bu vaxt atəşkəsçin hayla barışdıq.
Xalqın oğul,qızı durdu ayağa,
Qaçdı kürsü tutan başçımız ağa.
Neçə şair,ədib keçdi canından,
Keçmədi yurdsatan kürsü varından.
Şair Xəlil Rza əlin candan üzdü,
Şair dedi: millət gedən yol düzdü.
Daha bəsdi haylar bizə qəsd etdi,
Hayla aramızda dostluq da bitdi.
Qoymarıq bircə hay Bakıda qalsın,
Nə şəhər,nə kənddə türklə yaşasın.
Xəlil Rza dedi can qurban xalq, yurda,
Haylar yaşamasın Dağ Qarabağda.
Şair Xəlil dedi xalqa azadlıq,
Daha bəsdi yada kölə olmarıq.
Vətən bizim olub ulu babadan,
Gərək bizlər onu qurtaraq dardan.
Uca kürsü tutan ona kəc baxdı,
Xalq,millət adından şər-böhtan yaxdı.
Şairi nahaqdan həbsə aldılar,
Sonra neçə qara fikrə daldılar.
Şair oğlu Təbriz getdi cəbhəyə,
Saldılar döyüşdə onu tələyə.
Təbriz şəhid oldu vətən yolunda,

Yurda sevgi vardı onun soyunda.
Şair dedi xalqım,vətən yaşasın,
Xalq gücüylə ana vətən ucalsın.
Məramım hər zaman vətən var olsun,
Azadlıq vətənə vəfadar olsun.
Mən xalqın gündüzü,həm gecəsiyəm,
Ömür sona çatıb mən gedəsiyəm.
Şair dedi xalqdır güvənc yerimiz,
Xalqı ucaldar cəngdə zəfərimiz.
Döyüşdə zəfərdən dastan yazılsın,
Hər kənddə,şəhərdə bayraq ucalsın.
Neçə şəhid zərbə oldu qəlbinə,
Şair çətin dözdü xalqın dərdinə.
Bahar fəsli şair köçdü dünyadan,
Xalq şair oğlunu çıxartmaz yaddan.
Xəlilin ölümü oldu şərəfli,
Əksi özü kimi hər vaxt şəfəqli.
Şair kimi uca ad-sanı qaldı,
Hər vaxt əldə gəzən əsəri vardı.
Xəlil Rza millətin şərəfli oğlu,
Hər sözün düşmənə deyərdi doğru.
Xəlil Rza olub bir şair, qəhrəman,
Yaşayır bizimlə ruhu hər zaman.

Dərd-qəmim yenə çəkir ərşə məni,
Mən necə yazım Xəlil Rza qəmini.
Vaxtsız getdi eldən-obadan Xəlil,
Onun ölümünə çox səbəb-dəlil.

Vətən,torpaq,insan dərdi çəkirdi,
Vətən bir olsa ölmərəm deyirdi.
İnanmadım onun söz tarı susar,
El-obanı acı,bəd xəbər basar.
Ömrünün baharı oldu qarlı qış,
Bağda çiçəkləri Xəlilsiz qalmış.
Ömür-gün gəmisi batdı dəryada,
Xalqa əziz adı qaldı dünyada.
Sevirdi vətəni canından artıq,
Onu bizdən uzaq saldı ayrılıq.
Doğma kəndə tez-tez gedib gələrdi,
Elin məclisində üzü gülərdi.
Deyərdi cocuqlar bizim gələcək,
Gün gələcək hayın bağrın dələcək.
Ağsaqqal,ağbirçək görüb sevinər,
Adamın zat kökü gendən bilinər.
Elin dar günündə durmazdı gendə,
Tez yola çıxardı xəbər verəndə.
Köksündə məşəltək sevgisi vardı,
Deyərdi bu vətən gözəl diyardı.
Vətənin birliyin istərdi cantək,
Vətənim böyükdü dunya,cahantək.
Haqqı dedi Xəlil çəkdi əzablar,
Ona tələ qurdu ağsaq yabılar.
Sözün üzə dedi qorxmadı əsla,
Ucaldı hər zaman zəkalı başla.
Ona özgə idi söz verib danan,
Azıydı onuntək vətənçin yanan.

Gözündə ucaydı sözü bütövlər,
Onunla şad oldu güldü könüllər.
Mərd görəndə gözü güldü ulduztək,
Bəzən eldə aciz gördü yurdsuztək.
Görəndə bir yerdə güllü baxça,bağ,
Olardı sevinci sinəsində dağ.
Onun dostu idi doğru adamlar,
Ona özgə idi qorxaq olanlar.
Ömrünü sənətə bəxş etdi Xəlil,
Neçə incə əsər sözümə dəlil.
Şairlik tanrıdan olubdu payı,
Vətən ucalığı eldə harayı.
Böyük hünərlə tikdi şeir sarayı,
Arxasız olana arxa durubdu.
Neçə güclülərin qolun burubdu,
Aman istəməyib kürsü tutandan.
Gedibdi zəhləsi yalan satandan,
Kürsü tutan onun gözündə heç nə,
El içində nadan olubdu gənə.
Çatsaydı imkanı onun siz bilin,
Günü xoş keçərdi obanın,elin.
Bir cənnət məkan edərdi şor düzü,
Çıraqban olardı gecə-gündüzü.
Oğul balasın verdi yurda qurban,
Dedi çox əzizdi el,Azərbaycan.
Odlu ürəyində el,vətən sevgisi,
Xəlil Rza bizlərə tanrı vergisi.
Qeyrəti dözmədi nahaq qanlara,

Nifrət etdi duzaq quran yadlara.
Xəlil Rza ulu tanrının xilqəti,
Cahana ərməğan onun qüdrəti.
Əməli sözüylə tutdu hər zaman,
Xəlil el gözündə şair, qəhrəman.
Ona əzab verdi satqın adamlar,
Eldə sapı bizdən olan baltalar.
Tutuldu haqq söz üstə bir gün şair,
Dedilər çox şeyə deyilsən qadir.
Gözündən od çaxdı yadın gözünə,
Güclü cavab verdi onun üzünə.
Şair qorxu bilməz vətən yolunda,
Qoydular maşına zəncir qolunda.
Apardılar tezcə böyük mərkəzə,
Dedilər bəlkə türmə qəddin əzə.
Şair tələb etdi,çıxdı ekrana,
Haqq sözünü ordan yaydı hər yana.
Xəlil dedi mən bələdəm tarixə,
Haqsız divan tutub əbəs Yakirə.
Karamzin,Puşkinə tələ quruldu,
Vətəni sevənin başı vuruldu.
Zaman gəldi onlar eldə ucaldı,
Vətənə qəsd edən özü alçaldı.
Fikriniz varsada mənə qəsd etmək,
Bir şərəfdir vətən yolunda ölmək.
Arxaya yox tarix gedir qabağa,
Çürük fikir deyən düşür bucağa.
Düşmən əməlindən vardır xəbərim,

Zülmün zəncirin qıracaq əllərim.
Neçə əsr,qərinə bizik yad əldə,
Bizə yağı olub qonşu ölkə də.
Türkün öz tarixi şərəfdir ona,
Ana vətən göz dikibdi oğluna.
Mən istərəm dünya bilsin haqq sözü,
Mənə qəsd edib hay qonşu özü.
Yurdsuz haylar dünən bizdən yurd alıb,
Biz türkə dost,aşna deyib aldadıb.
Özgə əllə bizə gizli tor qurub,
Öz keçmişin indi deyən unudub.
Haylar qənim olmaq istər bizlərə,
Torpaq azdı göz dikib dənizlərə.
Türkün qəlbi geniş gücü böyükdü,
İndi haylar haqlı sözə dönükdü.
Bütün cahan görür türkü,hayları,
Çıxıb üzə indi özgə dayları.
Torpaq müqəddəsdir toxunmaq olmaz,
Yurd-yuvanı satın da almaq olmaz.
Sözüm budur haylar yurddan çəkilsin,
Bu haqsız əmələ qərar verilsin.
Yoxsa səbr kasamız çox dolub daşır,
Haya ölüm,türkə zəfər yaraşır.
Oğlum,qızım hayla durar savaşa,
Çala,çuxur gəzər haylar birbaşa.
Haylar özgə gücə inam bağlayır,
Özgə güclə öz sinəsin dağlayır.
Qarabağ ölkəmin gövhər,mərcanı,

Onsuz bütöv bilmə Azərbaycanı.
Hələ öndə durur Zəngəzur,Göyçə,
Kaş o günü mən görəydim bircə.
İrəvan mahalı mənə yurd olub,
Analar xan oğlu bu yurdda doğub.
Xain,satqın olub elin qənimi,
Qoymayıb çəkilsin duman,çənimi.
Zaman deyir mənə dözmə bu dərdə,
Zəka qalib gələr qəmə-kədərə.
Götür silah başla hayla döyüşə,
Türkə qarşı haylar çıxammaz döşə.
Al haqqını ondan ata-babanın,
Qoy haqlını gözü görsün dünyanın.
Əzəldən hayların yoxdu yuvası,
Olub yad qapıda nökər-qarası.
Qoy qurtarsın hayla yurd üstə cəngim,
Bədəməl üstündə hay tapar qəmin.
Türk oğluna qorxu əsla yaraºmaz,
Yurd üstündə bir də hayla barışmaz.
Türk əsgəri hünər,silah sevəndi,
Onun yurd-yuvası ana vətəndi.
Aldanıb haylara pay verdik yurddan,
Türkün vətən oğlu qorxmayıb qurddan.
İnsan gərək ağlın başda saxlasın,
Dostu yarı çətin işdə sınasın.
Özünə inanıb yatmasın hədər,
Yoxsa asan tapar onu qəm-kədər.
Türkü özü qədər istəməz yadlar,

Yurd üstə döyüşdü səf-səf ordular.
Şairdir vətənin fədai oğlu,
Hər zaman hər sözü demişdi doğru.
Xəlil Rza hay salardı var səsiylə,
Düşmənə köz basar söz gülləsiylə.
O dedi dərs aldım Nizamidən mən,
Ağlı qoyub ölkə tutma gücnən sən.
Əl atma asanca gücə,silaha,
Silahla abad olmaz yurd bir daha.
Ağıl,zəka görsün işin hər yerdə,
Qoy sülh olsun kənddə,həm də şəhərdə.
Xəlil Rza deyir buna mən şərik,
"Söz var nə əkərik,onu biçərik".
Mənim öz amalım vətəndir,haqdır,
Sülh olsa hər yerdə həyat da vardır.
Mən nifrət etmişəm eldə haqsıza,
Bəd işdə aman yoxdu vicdansıza.
Tutsa əgər böyük kürsü başsızlar,
Soyar eli,satar yurdu qansızlar.
Qənimən əzəldən yaltaq,satqına,
Eldə söz deyərəm məndə haqqına.
Qorumaz vətəni,yurdu qeyrətsiz,
Vətənə qəs edər imansız,dinsiz.
Qoy uca kürsüdə elsevər dursun,
Vətənin şərəfin cantək qorusun.
Bütöv vətən olsun onun amalı,
Gəlməsin dilinə kəlam haralı.
Xalqım bilir dostam ona ürəkdən,

Xəbər alsın məni əsən küləkdən.
Ömür boyu bütöv vətən demişəm,
Haqqın üstə cəfa,dərd-qəm yemişəm.
El içində özüm düz yol getmişəm,
Haqq yolunda polad can əritmişəm.
Bilirəm olmasam bir gün dünyada,
Salacaq hər zaman el-oba yada.
Təki vətən mülkü olsun gülüstan,
Xəlil Rza sənki el, vətən oğlusan.
Olmuşam mən sənə məsləkdə sirdaş,
Qəlbimdə öz əksin ay Xəlil qardaş.
Vətən səni anır şair oğlutək,
Sənin məzarına düzülür çələng.
Ad-sanın dillərdə dönüb nəğməyə,
Dilim gəlmir sənə yoxdur deməyə.
İndi az-az yaman günlər tükənir,
Oğul,qızın haqqı deyib dillənir.
Zaman verə bizə bir gün əllərin,
Könlü gülər yurdda doğma ellərin.
İnam vardır bizim elə-obaya,
Haqq işimiz çatar bütün dünyaya.
Bizim Qarabağda qalammaz haylar,
Əgər əlin çəksə özgə sardaylar.
Elin gücü sel gücünə bərabər,
"Ya ölüm","ya olum" vermişik qərar.
Tanrı özü əlin versin bizlərə,
Döyüşdə haylar dönər kənizlərə.
Şair sözü qılınc təki kəsərli,

Döyüş üçün türklər hər vaxt hünərli.
Türklər qorxaq hayla döyüş başlamır,
Haylar uyub yada sözün də qanmır.
Haylar başa düşsə böyük günahın,
Türklə döyüşdə itirməz öz qanın.
Qurtular yurd-yuva xain əlindən,
Özü zərbə alar bədəməlindən.
İnşallah başlanar yenidən həyat,
Doğma yurd-yuvasın istər camaat.
Yurda sahib duraq yox olsun qınaq,
Şahidlərə heykəl qoyub ad sanaq.
Hər eldən dosttəki qonaqlar gəlsin,
Özü görüb haqqı,nahaqqı desin.
Hələ vətən bütöv deyil ayrıdı,
Bu ki,Xəlil Rzanın hayharayıdı.
Türkün oğlu qoy tanısın dostunu,
Düşmənə dərs versin azssa yolunu.
Oğul itirərsə yurdu alammaz,
Yoxsa vətən quru sözlə ucalmaz.
Vətən dərdi bizlə müdəm cəng edir,
Xəlil Rza təki ər oğul yetirir.
Bir şair,qəhrəman xalqı tanıdır,
Bizim xalqın neçə dühası vardır.
Xəqani,Nizami,Nəsimi,Sabir,
Böyük Füzuli söz deməyə qadir.
Səməd Vurğun,Hüseyn Cavid,Cabbarlı,
Şəhriyar qalıbdı qəlbi qubarlı.
Özgə yerdə neçə şair vardır,

Onlar yurda sipər,həm də qaladır.
Vətən şərəfinə yaradır əsər,
Haqq sözü bir zaman yad dilin kəsər.
Xəlil də onlardan dastan yazıbdı,
Vətən dərdin sözlə sazda çalıbdı.
İlham alıb türkün yurdundan düzü,
Onunçin oxşayır qılınca sözü.
Böyük zəka,dərin elmi varıydı,
Dərd,kədər çəkməyə eldə dağıydı.
Ömür-gün yaşadı elin yolunda,
Deyirdi elin haqqı var boynumda.
Ona tanrı verdi ucalıq eldə,
Ad-sanı deyilir hər zaman dildə.
Vətənə kəc baxan durdu qəsdinə,
Onunla girdilər gücün bəhsinə.
Vətən dərdi,şəhid oğul üzdü can,
Can fəda etdi sənə Azərbaycan.
Bədəcəl aldı bizdən Xəlil Rzanı,
Taparsan sən onu gəzsən Turanı.
Sözləri dillərdə dönüb nəğməyə,
Dilim gəlmir ona ölüb deməyə.
Düzsözün qüdrəti gərəkdir xalqa,
İndi onun ruhu dayaqdı haqqa.
Böyük xalqın şair oğlu öləmməz,
Əbədi yanardı məşəltək sönməz.
Tanıdım mən onu gənclik illəri,
Salmışdı əks-səda odlu şerləri.
Baxışı oxşardı cavan qartala,

İstərdi namərdə bir külüng çala.
Bir kimsə işlətsə yad söz nitqində,
Qoyardı o şəxsi darda,çətində.
Deyərdi özgə dil öyrənsən yaxşı,
Çıxarsan haqsıza sən yada qarşı.
Borcluyuq ana dilin təmiz bilək,
Axı nə üçün yad sözü işlədək.
Ana dili,vətən şərəfdir bizə,
Biz də əsgərik ana dilimizə.
Təmizlik Xəlilçin əməldə bayraq,
Rüşvəti it üçün sayardı yalaq.
Onun gözündən od,alov yağardı,
Xaini,xəbisi özü boğardı.
Altmış yaşda Dədə Qorqud olmuşdur,
Əl-üzünü Göyçə göldə yumuşdur.
Hər yerdə vətəni deyib durmuşdur,
Saxta fəxri adı yerə vurmuşdur.
Vətənə azadlıq qazanaq dedi,
Haqq üstə neçə cəza,zərbə yedi.
Təbi böyük dərya təki çağlardı,
Türk dilində neçə dastan bağladı.
Dilinin əzbəri türk soylu alim,
Elə bil onlardan almışdı təlim.
İbn Sina,Ömər Xəyyam,əl-Biruni.
Nizami,Xəqani,Böyük Füzuli.
Qibləgahı idi şair Nəsimi,
Sanki ondan alıb vətən dərsini.
Yenə adlar çəksəm ümman olardı,

Hər yaxşı əməldən dastan olardı.
Sözdən şah sarayı tikdi Xəlil Rza,
İnanma kimsə belə əsər yaza.
Elə bil hər sirri aydın görürdü,
Söz onun əlində muma dönürdü.
Adi mənzərəni nəzmə çəkirdi,
Sözləri dildə sanki bal,şəkərdi.
O bir dəfə "mənəm mənəm" demədi,
Namərdin önündə boyun əymədi.
Kiməsə bircə kərə yarınmadı,
Başqası tək saxta şer yazammadı.
Vüqarda oxşarı Baba dağıydı,
Sanki Dədə Qorqud özü sağıydı.
Kimsənin varında gözü olmadı,
Özgə süfrəsinə tamah salmadı.
O göz yumub mərdə namərd demədi,
Halal süfrəsində haram yemədi.
Onun canıydı yurdun hər qarışı,
Əkib becərməkdən çıxırdı başı.
Cənnət yaratmışdı Türkan bağında,
Barı hədsiz idi nar budağında.
Olmuşdu baxçada gülün bülbülü,
Sinədə varıydı səmatək könlü.
Oxşardı bağında körpə quşları,
Atardı kənara xırda daşları.
Gələrdi ilhama baxıb bağına,
Gənclik illəri düşərdi yadına.
Elin gözəl qızı aldı könlünü,

Nura qərq elədi ömür-gününü.
Dedi Firəngizim arzu,diləyim,
Tək onu sevibdi mənim ürəyim.
Oğul,qız balamın odur anası,
Ömür-günüm eşq yolunda yanası.
Olsada bir ana özü Firəngiz,
Vətəni anatək sevir qəlbimiz.
Vətən dərdi onu,məni yandırır,
Axı vətən bizə anadır,candır.
Oğlu Təbriz getdi qorusun yurdu,
Atdığı gülləylə hədəfi vurdu.
Yurda xain ona qurdu çox duzaq,
Çalışdı tez etsin həyatdan uzaq.
Ata,anaya qoy olsun yaman dağ,
Bəd xəbərdən gözlər oldu şam-çıraq.
Yaşadı o satqın yarasa təki,
Satqına özgə yurddur Bakı,Şəki.
Təbriz oldu eldə Milli qəhrəman,
Öz oğlun unutmaz vətən heç zaman.
Ata xalqa şair,oğul qəhrəman,
Bəxtin belə yazıb böyük yaradan.
Vətənin dərdini çəkən ucalar,
Vətənə can verən tarixdə qalar.
Ata,oğul elin fəxri oğludur,
Hər ikisi yurdda izin qoyubdur.
Vətən sizi zaman-zaman anacaq,
Xalqım sizlər üçün heykəl quracaq.
Yeni nəsil biz də varıq deyəcək,

Xain yadın kökün-soyun kəsəcək.
Gənc nəsil vətənçin keşik çəkəcək,
Xalqın birliyini yəqin görəcək.
Şəhidlərin ruhu olsun şad,xürrəm,
Mən Kirs dağdan yurda baxmaq istərəm.
Erkən yaşdan aldı çox dərin bilik,
Yetən Xəlil Rza olammaz söylədik.
Neçə il işlədi ali məktəbdə,
Biliyi heyrət oldu tələbədə.
Onun dərsləri çox açıq keçərdi,
Doğru danışmağı qəlbən sevərdi.
Günəştək nurluydu onun zəkası,
Tələbə onunçin ürək parası.
Birdə gördün coşdu Kür,Araz təki,
Heç bilməzdi o,zərrə qorxu,çəki.
Hər dərsi vətənin dərdi söhbəti,
Deyərdi budur xalqın aqibəti.
Üz tutub tanrıya kömək dilərdi,
Öz amalın açıq-saçıq deyərdi.
Əl verməzdi çoxu ona qorxudan,
Çünki göz varıydı çox yuxarıdan.
Elmdə,şerdə Xəlil bir pələng idi,
Çoxları Xəlildən kənar çəkildi.
Haqq söz üstə ona əzab verdilər,
Gah işdən,gah da yurddan get dedilər.
Şair sözü alov oldu başçıya,
Başçı əyri-əyri baxdı yançıya.
Başçı dedi sənə cəza verərdim,

Bu ölkədən özgə yerə gedərdin.
Mən baxıram hələ yaşın cavandır,
Bu yaşında çoxu yolun azandır.
Şair dedi buna çatmır hüququn,
Sən poza bilməzsən ölkə qanunun.
Ali qanun sözə verib azadlıq,
Sənsə sübh çağına demə qaranlıq.
Nizami hikməti mənə mayaqdır,
Mənim zəkam,ağlım mənə dayaqdır.
Kürsüdə oturan sən bir müqəvva,
Demə mən çalım sən oyna yad hava.
Bu yurdun Babəki xalqa şərəfdir,
Xəliltək oğullar oxa hədəfdir.
Bilki qorxaq ox götürüb atammaz,
El-obanın dərd-qəminə yanammaz.
Saxlaya bilməzsən dəyişir zaman,
Səninək bivecdən olmaz qəhrəman.
Zəkalı,ağllı yerdə sürünməz,
Gücsüz,qorxaq şirlə cəngə girəmməz.
Vicdan azadlığı mənə hakimdir,
Ağılsız başlara sözüm həkimdir.
İnsan gərək görsün özü sabahın,
Vətən üçün əldə tutsun silahın.
Vətən bizə müqəddəsdir,anadır,
Vətən dərdi əziz,doğma canadır.
Tarixdə şərəfli borcdur bizlərə,
Yurdu azad verək gənc nəsillərə.
Zaman bizdən qeyrət,hünər gözləyir,

Qanbir qardaşlar da bizi səsləyir.
Biz geciksək pay almarıq günəşdən,
Əbəs söhbət açma sən yüksəlişdən.
Bügün tələb edir biz verək qərar,
Vətən oğlu əllə zəncir də qırar.
İstəmirəm mən bir pay azadlığı,
Nəyə lazım yadın sevinc,şadlığı.
Haqqı var istəsin xalq azadlığı,
Qadirdir məhz buna xalqın varlığı.
Çatacam azadlığa güclə özüm,
Döyüş cəbhəsini yaracaq sözüm.
Azadlıq şəfəqin gözüm görəcək,
Doğma el-obamın könlü güləcək.
Olacaq müstəqil mənim də ölkəm,
Mən gərək sevincdən göz yaşı tökəm.
Ölmərəm mən görsəm o günü özüm,
Çağlayar dillərdə hər şerim,sözüm.
Vətən,vətən,vətən can verdim sənə,
Sənki müqəddəs bir anasan mənə.
Vətənin şöhrəti göyə ucalsın,
Vətənin birliyi qələbə çalsın.
Mən də görüm o qələbə gününü,
Oğul istər yurda versin ömrünü.
Ölüm haqdır ondan gen qaçmaq olmaz,
Bu dünya durduqca yaşamaq olmaz.
Vətənin varlığı dursun dünyatək,
Var,sərvəti aşıb daşsın dəryatək.
Fəqət şanlı xalqım ayağa qalxsın,

Azadlığı zorla qoparıb alsın.
Bu ölkəm yadların çıxsın əlindən,
Azadlıq pay olsun günəş selindən.
Neçə yüz ildir bu ölkəm bölünüb,
Bu bəla dünyada bizdə görünüb.
Burda at oynatdı neçə cahangir,
Boğuldu hər zaman başda düz fikir.
Saxta vətənbazlar verdi hökm,qərar,
Yaltaqlar yadların yaxasın sular.
Zaman özü buna canlı şahiddir,
Mənim əcdadlarım nəyə qadirdir.
Xudaya,sən mənə qeyrəti qaytar,
Əcdadım Babəkin cürətin qaytar.
Dünya özü həsəd çəksin qoy türkə,
Mən də məzarda dinc yatam bəlkə.
Əzablı günlərim sona çatıbdır,
Zaman özü yolun bizə açıbdır.
Yurdumda azadlıq güləcək sabah,
Xalqa arxa dursun bu yolda Allah.

## PROLOQ

Xalqa hər vaxt ağıl,zəka gərəkdir,
Vətənçin bəd gündə döyüş hünərdir.
Başçı gərək bərkdə xalqı düşünsün,
Cəngdə gərək başçı yadla döyüşsün.
Bərkdə ulu başçı əl verdi xalqa,
Milləti çətində qoymadı darda.
Ulu başçı çox iş gördü xalq üçün,
Döyüşçin topladı millətin gücün.
Dedi yadla cəngdə ordu gərəkdir,
Orduya qan verən millət ürəkdir.
Ulu başçı hər vaxt gördü uzağı,
Gördü cəngdə yada güvənir yağı.
Ulu başçı neçə ölkədə oldu,
Xalq,millət yolunda öz canın yordu.
Möhtəbər Məclisdə haqq sözün dedi,
Hər yerdə ağılla düz sözü keçdi.
Bizlərə gərəydi gözləyək zaman,
Verməyək düşmənə bəd işdə aman.
Ulu başçı cəngdə atəşkəs dedi,
Xalq,millət başçıya düz qiymət verdi.
Ölkədə çox işlər baş-ayaq idi,
Çoxuydu doğrudan millətin dərdi.
Başçı bərkdə xalqa dözüm istədi,
Yada ağıl verdi hünər göstərdi.
Xalq,millət içində vardı bədxahlar,
Yalan sözlə haqqı danırdı yadlar.

Neçə illər keçdi yığdı xalq gücün,
Ordumuz yarandı yadla cəng üçün.
Ömür vaxtsız çıxdı əldən çox əfsus,
Bizdən əlin üzüb getdi Dağyunus.
Həyat davam edir yaşayaq gərək,
Xalqa başçı olan tək oğlun görək.
İlham üzün tutdu xalqa çətində,
Xalqa çarə gördü vətən dərdində.
Ulu başçı oğlu oldu xalqsevər,
Zərgər bilər nədir qızıl,ləl,gövhər.
Xalqın haqlı sözün dinlədi İlham,
Söylədi hər zaman xalqla mən varam.
Vermədi yadlara bir qarış torpaq,
Gərək biz də yurdçin döyüşə duraq.
Döyüş üçün bizə gərəkdi ordu,
Qorusun çətində ordumuz yurdu.
Möhtəbər Məclisdə haqqı söylədi,
Qarabağ bizimdir haylar gəlmədi.
Ali qərar çıxdı hay oldu haqsız,
Özgə yurddan haylar gərək çıxasız.
Yağı özgə gücə güvəndi cəngdə,
Hay dedi verməriк bircə çərək də.
İllər keçdi haylar yurddan çıxmadı,
Yazılmış qərara məhəl qoymadı.
İlham neçə yerdə haqlı söz dedi,
Haylar haqlı sözü haqsız söz bildi.
Zaman gəldi İlham əmr verdi cəngə,
Tutulsun bölgədə yol-iriz,döngə.

Şanlı ordu keçdi cəngdə hücuma,
Əmr oldu əsgərə bir addım durma.
Vətən səndən zəfər gözləyir əsgər,
Şuşaya bayraq tax sən hünər göstər.
Düşmən məğlub olur ağ bayraq qalxır,
Ali Baş komandan cəbhədə baxır.
Xalqla ordu zəfər çalır döyüşdə,
Durub əsgər, zabit yoxuc, enişdə.
Xalqla, millət alqış deyir orduya,
Haqlı kimdir indi şahiddir dünya.
Görmədi zəfər çaldıq Xəlil Rza,
Çıxdı ana vətən tam azadlığa.
Deyirik hər zaman ruhun şad olsun,
Vətəndə, hər eldə büsat qurulsun.
Xalq,millət yad edir sənin adını,
Biz də gördük azadlığın dadını.
Azadlıq yolunda getdi neçə can,
Yaşasın hər vaxt anam Azərbaycan.
Xəlil Rza qurban getdi vətən yolunda,
Əbədi göz yumub vətən qoynunda.

Şairin
**"MƏN-AZƏRBAYCANAM!"**
şeirindən seçmələr:

"Dinləyin,dinləyin mən bir kamanam,
Şərqin sinəsindən qopan fəğanam,
Uzaq əsrlərin çox dərinliyindən,
Sabaha üz qoyan sonsuz karvanam.

Mən sənə min dəfə qurban olmuşam,
Ey bəşər "öl desən" bir də qurbanam,
Mənimdir yurd,vətən dürdanələri,
Beyləqan,Naxçıvan xəzinələri.

Sovqatı,bəxşişi açıq sinidə,
Ağzının sonuncu tikəsini də,
Dosta bağışlayan,düşmənə verən,
Dumanlı Təbrizəm,həm də Zəncanam,
Hər şeyi alınıb tükənsə belə,
Eşqi tükənməyən Azərbaycanam!"

## GƏLƏ BİLMİRƏM

Dərdin mənə həmdəm olub Cəbrayıl,
Sənsiz qəlbdən deyib-gülə bilmirəm,
Fələk bizə qənim,yada çıxdı dost,
Bağlanıb yol-iriz gələ bilmirəm.

Tufan görmüş çiçək kimi haldayam,
Yurdu satanları oda qalayam,
Tora düşmüş tərlan kimi sardayam,
Susub təbim gülə nəğmə demirəm.

Qalmışam yuvasız,halı pərişan,
Alıbdı öz bəxtim məni tərs nişan,
Ürək deyib gülmür qardaş,qohumnan,
Vallah özgə yurdu sevə bilmirəm.

El-oba hayları haqqa çağırır,
Düşmənin bəd işi canı ağrıdır,
Haqlı zəfər çalar zamanı vardır,
Yada torpaq varı verə bilmirəm.

Səda dərd-qəm çəkir doğma obasız,
Deməki olmuşam yurda vəfasız,
Yurda xain çıxdı satqın,vicdansız,
Bağlanıb yol-iriz gələ bilmirəm,
Bəxtim nə vaxt gülər hələ bilmirəm.

## QURTARSIN YAD ƏLDƏN

Dağ çəkir sinəmə yurddan ayrılıq,
Uyuşmur yad yerə,isinmir ürək,
Baxıram uzaqdan dağ Qarabağa,
Dost olub haylara arxadı fələk.

Ürəyim çırpınır kənd,bölgə üçün,
Yetən deyir mənə canı üzürsən,
Yaman dərddi bilki torpaq həsrəti,
Yurdsuz qalıb səntək oban görürsən.

Yurda xain çıxdı haya dil verən,
Var-dövlət qazandı satqın əlaltdan,
Vətənə xəyanət etdi qeyrətsiz,
Eldən uzaq düşüb namərd nə vaxtdan.

Hər günü olubdur Sədaya dərd-qəm,
İstəyir öz yurdun hər vaxt el-oba,
Biz alaq haylardan şəhid qisasın,
Ordumun gücüylə çəkilsin dara,

Dindaşı yaxamnan qoy çək sin əlin
Düzə yoxdu başqa sözü aləmin,
Dünya deyir cəngdə hayların şərin,
Cəngdə zəfər çalar xalq,ordum yəqin,
Qazanar azadlıq Qarabağ,Şuşa,
Laiq olar cəngdə ordum alqışa.
Xalq deyir vətənim şöhrətim,şanım,
Yaşasın hər zaman Azərbaycanım.

## MÜSƏDDƏS

Hər işdə nöqsanı var,insan görür dünyanın,
Ümid edir hər insan dərdə salır öz canın,
Müəmma,sirdi dünya danır insanla andın,
Biz etibar etməyək,yox vəfası dünyanın,
Nəyi qalıb dünyada, sən söylə Süleymanın.

Hər zaman kürsü tutur haqqa qənim olanlar,
Haram varla dostlara gen süfrə açır axşamlar,
Doğruya tələ qurur, haqsız fərman yazanlar,
Dağıdır neçə yurdu bədxah əllə nadanlar,
Sayıq ol hər işdə dostum,yox vəfası dünyanın,
Yalandı taxtı-tacı, yox özü Süleymanın.

Baxsan göyə görünər səmada ay hilalı,
Uzun çəkmir yox olur qəlb oxşayan cəlalı,
Gəl aldanma ay Səda ömür əldə qalalı,
Müsafirsən dünyada çəkmə dərdi-vəbalı,
Ayıq ol uyma sözə yox vəfası dünyanın,
De hanı səxavəti taxt-tacı Süleymanın.

# TÜRKƏ DOST OLAR

Ürəyim bağlıdır hər vaxt sənə Cəbrayıl,
Qəlbimdə yerin var mənki varam dünyada.
Hər zaman güc olub yurda dağtək vüqarın,
Qoymaz bil ki, səni əsla el-oba darda.

Ürəyimdə dərdin hər vaxt axın-axındı,
Gözüm səndən uzaq,qəlbim sənə yaxındı,
Fələyin işidir elin bədxah baxtıdı,
El oyanıb indi hayla döyüş vaxtıdır.

Sənsiz ömür-günüm hər vaxt mənə dərd olub,
Həsrətin canımı gündə dərd-qəmlə yorub,
Özgə güclə haylar cəngdə mənə zərbə vurub,
Səninçin oğul, qız döyüşdə şəhid olub.

Qeyrətli qız, oğlun hayla cəngə hazırdır,
Yurdu candan artıq sevən eldir, obadır,
Bil ki, yurdçin canım hər zaman dardadır,
El-oba dərd-səri yurd-Şuşa,Qarabağdır.

Sənsiz şirin sözüm çıxa bilməz dilimdən,
Mənlə cəngə girən qaça bilməz əlimdən,
Cəbrayıl bölgəsi ayrı düşməz vətəndən,
Əlin üzməz zorla yurddan ayrı düşəndən.

Dünya görür Ordum hayla cəngə qadirdir,
Türk torpağı haya qalmaz deyir komandir.
Bizə cəngə qalxın deyən ana vətəndir,
Yurdçin oğul, qızım cəngdə candan keçəndir.

Döyüşdə ordumuz haydan intiqam alsın,
Türkün gücü düşmən canın çarpaz dağlasın,
Bayrağımız Şuşa, Qarabağda ucalsın,
El, obam qoy yenə kənd, şəhər ucaltsın,
Bölgədə oğul, qızı xoşbəxt həyat tapsın.

Türklər istər hər vaxt olsun sülh, azadlıq,
Dünya bilir cənglə olmaz sülh, abadlıq.
Türkün dostu olar sülhsevər adamlar,
Türkdən ayrı düşməz dost, qardaş olanlar.

*Kitabın içindəkilər:*

*Ön söz* ........................................ 3
Azad oldu ........................................ 12
Tənha qoymadı ........................................ 14
Qəlbə nur saçar ........................................ 15
Dünya haqlı görür ........................................ 16
Yurdda axtarın ........................................ 17
Həsrət çəkir ........................................ 18
Vətənə sevgi ........................................ 19
El varı ........................................ 20
Təmiz ürəkdən ........................................ 21
Adam var ki ........................................ 22
Haqqı danarıq ........................................ 23
Gəzər gözün ........................................ 24
Tanrı dərgahı ........................................ 26
Qismətin olsun ........................................ 27
Unutmaz məni ........................................ 28
El çələng hörər ........................................ 29
Dərdə qalanım ........................................ 30
El qınar səni ........................................ 31
Sən haqq gəzirsən ........................................ 32
Birlik gərəkdir ........................................ 33
Azərbaycan əsgəri ........................................ 34
Dost olan ........................................ 35
Xalqıma heyrət ........................................ 36
Verməərəm yada ........................................ 38

Azad olur ..........39
Müəllim sözü ..........40
Yurdu sevər ..........41
Bizdən əl üzməz ..........42
İzim qalandır ..........43
Ay Cavad ..........45
Bağlayır fələk ..........46
Ömür uzansın ..........47
Düz sözün desin ..........48
Yurd haya qalmaz ..........49
Xeyir, şər ..........51
Düzlük istərik ..........52
Yoxdu səfası ..........53
Adam sayılmaz ..........54
Dərs alaq ..........55
Hikmətli sözlər ..........57
Sirdi açılmaz ..........58
Utanmır ..........59
Sənsən ..........60
Yaşadır məni ..........61
Ürəkdə həsrətim ..........62
Biz yada inandıq ..........63
Sayıq olmalı ..........64
Dərdə mən həmdəm ..........65
Qeyrət öyrənək ..........66
Fraqmentlər ..........67
Muğamın məkkəsi ..........69
Sən haqlı olasan ..........71

Elsevər insan ....................72
Görmüşəm ....................73
Daha cəngə durmaz ....................74
Olsa ədalət ....................75
Qaçır uzağa ....................77
Fraqmentlər ....................78
Nə gəzir ədalət ....................79
Sirdi bu dünya ....................80
Xalqın əmlakı ....................82
Zəfər bizimdir ....................84
Qoru sağ canı ....................85
Yoxdu kəsəri ....................86
Mənliksiz ....................87
Görüb yazdım ....................88
Əl çəkməz türk oğlu ....................90
Söz qəhət olub ....................92
Yurda bağlıyam ....................93
İbrət olsun haya ....................94
Gördüm ömür yolumda ....................96
Yol gedir ....................97
Cəngdə zəfər çalaq ....................99
Dedin ürəklə ....................100
Çəkir yaxşılar ....................101
Qarabağ azad oldu ....................102
Sənlə ülfətim ....................107
Haqq istərəm ....................108
Tamah daşı ....................110
Alqış xalqa, başçı, orduya ....................111

Cəngdə zəfər bizimdir ........ 115
Çəkir ürəyim ........ 119
Əl üzmə eldən ........ 120
Sözüm qalacaq ........ 121
Tutubdu könlüm ........ 121
Göz dikər xəbis ........ 122
Unutmaz el-oba ........ 123
Qarabağ Azərbaycandır ........ 124
Türklə cəngə durmasın ........ 129
Türkün məramı ........ 132
Göstərir zaman ........ 134
Kimdi dəyər verən ........ 135
Sən demə ........ 136
Güzəştə getməz ........ 138
Sağ olsun vətən ........ 139

*"Tərsimə törəmələr" silsiləsindən*

1. Çatar murada ........ 141
2. Misra düzmərəm ........ 141
3. Mənim amalım ........ 142
4. Vaxt gələr ........ 142
5. Həyandır ........ 143
6. Döyüş yaradım ........ 144
7. Yurda həsrət qalanım ........ 144
8. Sözün doğrusu ........ 145
9. Tanrı kömək dursun ........ 145
10. Mən də oyandım ........ 146

Son döyüşdə zəfər türkündür ........ 147
Qəzəl ........ 149

Cəngdə zəfər bizimdir ........ 150
Görək sənətdə ........ 156
Dördlüklər ........ 157
Murada çatsın ........ 159
Zəfər çalar ........ 160
A dostum ........ 161
Oda qalanır ........ 162
Bəhrə verməz ........ 163
Alçağın əməlləri ........ 164
Şair xalqın oğludur ........ 166
Epiloq ........ 166
Proloq ........ 185
Mən Azərbaycanam! ........ 188
Gələ bilmirəm ........ 188
Qurtarsın yad əldən ........ 189
Müsəddəs ........ 191
Türkə dost olar ........ 192

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor:** Səma Qasımova

Çapa imzalanmış 01.06.2022
Şərti çap vərəqi 12,5. Sifariş № 178
Kağız formatı 60x84 1/16. Tiraj 300



Seyidəli (Səda) Məhəmməd oğlu Məhərrəmli 1939-cu ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində anadan olmuşdur. 1967-ci ildə Azərbaycan Dövlət Pedeqoji Universitetini bitirib. Onun şeirləri müxtəlif mətbuat orqanlarında vaxtaşırı dərc olunmuşdur.

Bu kitab onun oxucularla üçüncü görüşüdür. Onun birinci "Torpaq həsrəti" adlı kitabı haqqında Ankaranın "Böyük Belde" qəzetəsində türk professoru İsa Kayacan məqalə dərc etdirmişdir. Başqa bir kitabı "Qarabağ Azərbaycan, türk yurdudur" adlanır. Bu kitaba 170-dən çox şeir və 4 poema daxildir.